**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

**Ədalət Abbasov,  Nəcibə Orucova**
**Ülkər Aslanova, İlahə  Həsənova**

# ŞİFAHİ NİTQİN İNKİŞAFI
**(dərslik)**

**Bakı- 2017**

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

**Ədalət Abbasov,  Nəcibə Orucova**
**Ülkər Aslanova, İlahə  Həsənova**

# ŞİFAHİ NİTQİN İNKİŞAFI
## (dərslik)

Azərbaycan Dövlət Neft və
Sənaye Universiteti təsdiq
etmişdir.    Əmr  №  01-I/67
“28  11  2016”

**Bakı- 2017**

UOT – 80 (07)

***Dərsliyin nəşr edilib ərsəyə gəlməsində bizə dəstək olduqları üçün ADNSU-nun rəhbərliyinə, xüsusən də rektor professor Mustafa Babanlıya dərin təşəkkürümüzü bildiririk.***

***Müəlliflərdən***

**Müəlliflər:** Filologiya üzrə fəlsəfə doktoru, dosent **Ədalət Məhəmmədəli oğlu Abbasov**
Baş müəllim **Nəcibə Əli qızı Orucova**
Baş müəllim **Ülkər Heydər qızı Aslanova**
Baş laborant **İlahə Vaqif qızı Həsənova**
Şifahi nitqin inkişafı. (dərslik). Bakı, ADNSU-nin nəşri, 2016, səh.148.

**Elmi redaktor:** AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Nizami Qulu oğlu Cəfərov**

**Rəyçilər:** Filologiya elmləri doktoru, professor
**Nəriman Əliməmməd oğlu Həsənzadə**
Filologiya elmləri doktoru, professor
**İkram Ziyad oğlu Qasımov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Aida Rza qızı Salahova**

*Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan əcnəbi tələbələr üçün nəzərdə tutulmuş bu dərslikdə şifahi nitqin zəruri problemləri və onların həlli yolları geniş surətdə izah olunmuşdur.*

*Tapşırıqların demək olar ki, hamısında söz və ifadələrin, eləcə də onların tərkibindəki morfoloji əlamətlərin (şəkilçilərin) yazılışı ilə düzgün tələffüzü arasındakı fərqi göstərmək, izah etmək və bu istiqamətdə tələbələri orfoepik vərdişlərə yiyələndirmək, onların lüğət ehtiyatını zənginləşdirmək, şifahi nitqini inkişaf etdirmək, onlarda rabitəli nitq bacarıqlarını formalaşdırmaq və s. əməli işlərin üsul və metodlarını göstərmək qarşıya məqsəd kimi qoyulmuşdur.*

*Dərslikdən digər texniki ali məktəblərin əcnəbi tələbələri, filoloji fakültələrin tələbələri, müəllim və doktorontları faydalana bilərlər.*

## MÜNDƏRİCAT

Ön söz........................ ........................................................ 6
Unudulmaz lider.......................................... .................... 8
Fənnin predmeti. Tələbələrdə şifahi nitq vərdişlərinin formalaşması üsulları........................................................ 10
Ilk leksik məşğələlər və tələbələrdə ilk lüğət ehtiyatının yaranma yolları................................................................ 11
Tələbələrin lüğət ehtiyatını zənginləşdirmək və şifahi nitqini inkişaf etdirmə imkanları.................................................... 13
Lüğət ehtiyatının inkişaf etdirilməsi üzərində iş................... 15
Tələbələrin şifahi nitqini inkişaf etdirmək məqsədilə mətn üzərində iş................................................................................ 17
Oxu dərslərində lüğət üzərində iş və onun tərtibi................. 19
Şifahi nitqin inkişafında müəllimin nitqinin rolu. ................ 22
Ədəbi əsərlərin oxusu və təhlili prosesində yeni sözlərin izahı..................................................................................... 24
Yeni sözlərin izahında Azərbaycan dilinin imkanlarından faydalanma bacarığının formalaşdırılması............................ 26
Sözün şərhində sinonim və antonimlərdən istifadə vərdişlərinin yaranması........................................................ 28
Cümlə qurmaq vərdişlərinin nitqin inkişafında faydası......... 31
Frazeoloji birləşmələr və aforizmlər hesabına nitqin zənginləşməsi...................................................................... 33
Canlı danışıq üçün daha aktiv olan hazır söz və ifadələr vasitəsilə nitqin zənginləşdirilməsi....................................... 36
Mətnin oxusu, təhlili və əzbərlənməsi ilə əlaqədar öyrənilmiş söz birləşməsi və ifadələrin izahı........................ 38
Analoji yolla cümlə qurma vərdişlərinin yaradılması............ 39
Ana dilindən Azərbaycan dilinə tərcümə………………… 41
Deformasiya edilmiş cümlələrin bərpası hesabına nitqin inkişafı…………………………………………………… 43
Cümlənin tamamlanması və genişləndirilməsi üzrə çalışmalar................................................................................ 45
.

Cümlənin yenidən qurulması işinə aid mətn üzərində tapşırıqlar........................................................................ 48
Deformasiya olunmuş mətnin bərpası üzərində iş................ 50
Yarımçıq dialoji nitqin bərpası əsasında nitqin inkişafı..................................................................................... 52
Tərtib edilmiş mətndə cavabı buraxılmış suallara cavabların bərpası............................................................. 55
Dinlənilmiş mətnə əvvəlki adına uyğun yeni ad vermək......................................................................................... 58
Rabitəli nitq vərdişlərini formalaşdırma üzərində iş............ 60
Tələffüz qaydaları haqqında............................................... 62
Qoşasaitli sözlər və onların tələffüzü.................................. 64
Qoşasamitli sözlər və onların tələffüzü................................ 66
Vurğu.................................................................................. 68
Heca.................................................................................... 71
İntonasiya, onun tərkib hissələri (komponenti).................... 73
Lüğət üzərində iş................................................................. 76
Lüğət ehtiyatının zənginləşdirilməsində bədii qiraətin rolu...................................................................................... 78
Fikri ifadə vərdiş və bacarıqlarının formalaşması…………..... 80
Nitq təcrübəsi vasitəsilə fikri ifadə vərdişlərinin zənginləşdirilməsi………………………………………….. 82
Müəllimin ifadəli oxusu və izahı…………………………... 85
Mətnin oxusuna verilən tələblər.......................................... 87
Dinlənilmiş mətnin məzmununun şərhi………………….... 89
Plan üzərində iş…………………………………………….. 91
Mətnin məzmununa yaxın məlumat vermə……………....... 93
Qısa nağıl etmə.................................................................... 95
Mətnin obrazını dəyişməklə nağıl etmə…………………..… 97
Dialoq nitqində intonasiyanın rolu...................................... 100
Replika haqqında, onun başlıca növləri…………………… 102
Adi ünsiyyət nitqi................................................................ 105
Çıxış və ona verilən tələblər……………………………….. 107
Planlaşdırılmış (əvvəlcədən düşünülmüş) nitq.................... 110
Bədahətən (müəyyən edilməmiş) nitq................................. 112

Nitq etiketləri haqqında ümumi məlumat............................ 114
Müraciət etiketləri……………………………..…….......... 116
Görüşmə etiketləri.............................................................. 118
Ayrılma etiketləri................................................................ 119
Alqış və qarğışlar etiketin bir növü kimi............................ 121
Nitq etiketlərindən düzgün və məqamında istifadənin, anlaşmanın və ünsiyyətin keyfiyyətinə təsiri………………… 122
Əlavə oxu üçün mətnlər
Ana və poçtalyon................................................................ 124
"İnsan" (fəlsəfi romantik pyesindən parça).......................... 126
Oynama "Yanıq Kərəmi"-yə............................................... 127
Molla Nəsrəddin lətifələri.................................................... 128
Nərdivan................................................................................ 129
Tikanlı məftillər..................................................................... 130
Şikayət................................................................................... 131
Yaşılbaş sona........................................................................ 133
Ədalətli bölgü........................................................................ 134
Yamanlıq geri dönür............................................................. 135
Mürəkkəb astronomik cihazların ixtiraçısı........................... 136
Qız məktəbində..................................................................... 138
İclas qurusu........................................................................... 139
Şuşa....................................................................................... 143
Sevgi qocalmaz..................................................................... 144
Sözlük (Azərbaycanca-İngiliscə).......................................... 147
Qaynaqlar.............................................................................. 151

## ÖN SÖZ

Çağdaş dünya xalqlarının istər iqtisadi, siyasi, istərsə də ədəbi-mədəni cəhətdən inteqrasiyasında onların bir-birinin dilini öyrənməsi, ən zəruri məsələlərdəndir. Ayrı-ayrı millətlərin, xalqların, dostluq və qardaşlıq əlaqələrinin təşəkkülündə, möhkəmlənməsində və yaşamasında əsas amil kommunikativ funksiyanın daşıyıcısı olan dildir.

Hər bir millətin yalnız dilini bilməklə onun milli mədəniyyətini öyrənmək əsasında həmin millətə hüsn-rəğbət hisslərini ifadə etmək mümkündür.

Respublikamızın ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin Azərbaycan dilini öyrənməsi bir tərəfdən dilimizin dünyanın ən zəngin, nüfuzlu dillərindən biri olmasını təsdiq edirsə, digər cəhətdən isə onların xalqımızın milli mədəniyyətinə marağının göstəricisidir. Azərbaycan dili vasitəsilə onlar xalqımızın milli-mənəvi dəyərlərini, tarixi keçmişini, azadlıq, müstəqillik uğrunda uzun illər yadelli işğalçılara qarşı apardığı qəhrəmanlıq mübarizəsini öyrənir və milli adət-ənənələrimiz, etnoqrafiyamız ilə yaxından tanış olurlar.

Məlumdur ki, əcnəbi tələbələrə "Azərbaycan dili", "Nitqin elmi üslubu" və "Şifahi nitqin inkişafı" fənləri tədris edilir. Bu fənlərin tədrisi paralel aparılır və biri digərinə kömək məqsədi daşıyır. Bunların sırasında "Şifahi nitqin inkişafı" fənni əcnəbi tələbələrin şifahi nitqinin inkişaf etdirilməsində aparıcı mövqeyə malikdir.

Bu fənnin tədrisindən məqsəd əcnəbi tələbələrin lüğət ehtiyatını zənginləşdirmək, şifahi nitqini inkişaf etdirmək, onlarda rabitəli nitq vərdişləri yaratmaqdır.

Bu vacib problemin həlli məqsədilə dərslikdə nəzəri-qrammatik izahatla yanaşı, praktik çalışmalara üstünlük verilmişdir. Bu da "Şifahi nitqin inkişafı" fənninin xaraktercə praktik olması ilə birbaşa əlaqəlidir.

Mətnlərin seçilməsi xüsusilə yüksək dəyərləndirilməlidir. Belə ki, xalqımızın milli-mənəvi dəyərlərini, qəhrəmanlıq tarixini,

milli təfəkkürünü özündə əks etdirən mətnlərlə yanaşı, tələbələrin təhsilində onların elmi istiqamətləri də nəzərə alınmışdır. Texniki fənlərin müəyyən sahələrinə aid mətnlərə də imkan daxilində səhifə ayrılmışdır.

Əziz oxucular! Bu sahədə ilk təcrübəmiz olduğu üçün təbii ki, müəyyən nöqsanlar və qüsurların da olması istisna deyildir.

Odur ki, irad və təkliflərini bildirən oxucularımıza əvvəlcədən səmimi təşəkkürümüzü bildiririk.

***Müəlliflərdən***

# UNUDULMAZ LİDER



Azərbaycan tarixən bir-birindən ağıllı və güclü sərkərdələr, uzaqgörən, müdrik dövlət xadimləri yetirmişdir. Sərkərdələr tarixə düşürlər, dövlət adamları isə tarixi yaradırlar. Heydər Əlirza oğlu Əliyev dövlət adamı idi. Dərin zəka, analitik təfəkkür, heyrətamiz yaddaş və işgüzarlıq keyfiyyətlərinə malik olan bu böyük dövlət xadimi müasir dünyanın son dərəcə müdrik və qətiyyətli siyasətçisi idi. Beynəlxalq münasibətlər sisteminə mühüm töhfələr verən Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi bütün dünyada etiraf olunur və yüksək qiymətləndirilir.

Heç bir görkəmli şəxsiyyətə bu qədər təlatümlü həyat, dünya siyasətinin zirvəsinə ucalmaq nəsib olmayıb. Bu həm də onun yenilməz iradə sahibi olmasının, ən çətin anlarda belə ruhdan düşməməsinin, bütün hallarda yalnız həyatından çox sevdiyi xalqına arxalanmasının nəticəsi idi. Heydər Əliyev qədər xalqını sevən ikinci siyasətçi doğulmayıb. Heç bir tarixi şəxsiyyətin dilindən "Mən həyatımın qalan hissəsini xalqıma bağışlayıram" ifadəsi işlədilməyib. Ulu öndərimizin bütöv həyatı Azərbaycan xalqına həsr olunmuşdur.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri təkcə qurub-yaratdıqları ilə bitmir. Onun fəaliyyəti hər an elmimizin, təhsilimizin, mədəniyyətimizin inkişafında, milli-mənəvi dəyərlərimizin, dilimizin, ədəbiyyatımızın qorunmasında, ordumuzun möhkəmləndirilməsində özünü yaşadır.

Məhz Heydər Əliyev amili dünya azərbaycanlılarının həmrəyliyinə və birliyinə nail olmasında xüsusi rol oynadı.

"Mən fəxr edirəm ki, azərbaycanlıyam" deyən Heydər Əliyev dünya azərbaycanlılarını bir araya gətirdi, vahid amal ətrafında

birləşdirdi. Heydər Əliyev Azərbaycana demokratiya, demokratik seçkilər və bəşəri dəyərlər gətirdi.

Bu gün hər birimizin taleyində dahi rəhbərimiz olan Heydər Əliyev dühasının zərrəsi var. Biz dünyanı heyran edən Ulu öndərimizlə hər zaman fəxr edirik.

***Ə.M.Abbasov***

## Məşğələ 1.
## FƏNNİN PREDMETİ. TƏLƏBƏLƏRDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN FORMALAŞMASI ÜSULLARI.

Milli dilin ən yüksək forması sayılan ədəbi dil ümumxalq dili əsasında seçmə və əvəzetmə üsulu ilə yaranan nümunəvi dildir. Ədəbi dilin formaca iki növü vardır: 1) Yazılı ədəbi dil 2) Şifahi ədəbi dil.

Yazılı ədəbi dil orfoqrafiya qaydaları ilə müəyyən edilir. Şifahi ədəbi dil isə orfoepik normalara əsasən tənzimlənir. Sözlərin düzgün (ədəbi tələffüzü) tələffüzü orfoepiya lüğətlərində verilir.

Fənnin predmeti ədəbi tələffüz normalarıdır. Tələbələrdə düzgün nitq vərdişləri formalaşdırmaq fənnin əsas məqsədini təşkil edir. Bu məqsədə nail olmaq üçün oxu mətnləri, onlar üzərində müxtəlif orfoepik çalışmalar və lüğətlərdən daha çox istifadəyə ehtiyac vardır.

**Tapşırıq №1.**

Mətni oxuyun. Azərbaycan dili haqqında təsəvvürlərinizi sərbəst nitq vasitəsilə şifahi ifadə edin.

### Azərbaycan dili

Azərbaycan dili Azərbaycan Respublikasında və Cənubi Azərbaycanda yaşayan **azərbaycanlıların** ana dilidir. **Bundan** başqa müxtəlif ölkələrdə (dünyanın 87 ölkəsində) yaşayan azərbaycanlılar ana dili olaraq bu dili işlədirlər.

Azərbaycan dili Azərbaycan Respublikasında yaşayan, bu torpağın qədim **sakinlərindən** sayılan talış, tat, ləzgi, kürd, udin, saxur və başqa azsaylı xalqların ümumi ünsiyyət vasitəsidir. Bütövlükdə bu dil 50 **milyondan** çox **azərbaycanlıya** xidmət göstərir. Eyni zamanda, respublikamızda **yaşayan rusların**, gürcülərin də xeyli qismi bu dili bilir və gündəlik həyat və məişət tərzində istifadə edirlər.

Azərbaycan dili geneoloji (qohumluq mənşəyi cəhətdən) türk dilləri ailəsinin Oğuz qrupuna mənsubdur.

Oğuz **dilindən** (budağından) türkmən dili, Qaqauz dili, Azərbaycan dili və Türkiyə türkcəsi törəyib.

Dillərin qohumluq prinsipindən başqa, birdə tipoloji bölgüsü var. Bu bölgüdə sözlərin morfoloji quruluşu əsas götürülür. Azərbaycan dili tipoloji cəhətdən (morfoloji quruluşu) də türk dilləri ailəsinə (iltisaqi dillər) daxildir.

**Tapşırıq №2.** Mətndən fərqləndirilmiş sözləri seçin. Hər birinin düzgün tələffüz variantını qarşısında qeyd edin. Fərqli tələffüz səbəblərini izah edin.

**Tapşırıq №3.** Mənası çətin anlaşılan sözlərin lüğətini tərtib edib,mənasını müəyyənləşdirin.

## Məşğələ 2.
## İLK LEKSİK MƏŞĞƏLƏLƏR VƏ TƏLƏBƏLƏRDƏ İLK LÜĞƏT EHTİYATININ YARANMA YOLLARI.

“Leksika“ termini yunanca “leksis“ sözündən olub, dildə olan sözlərin cəminə deyilir. Leksika dilçiliyin Leksikologiya bölməsində öyrənilir. Leksika dildə olan sözlərin cəmidirsə, leksikologiya dilin lüğət tərkibini öyrənən dilçilik bölməsinə deyilir.

Sözün ilk başa düşülən mənasına leksik məna deyilir. Sözlər cümlə daxilində bir-biri ilə məna və qrammatik cəhətdən bağlanır.

### Əlişirlə əkinçi

Əlişir Nəvai bir kənddən keçib gedirdi. Baxdı ki, bir əkinçi iş görə-görə onun məşhur bir qəzəlinin qol-qıçını sındıra-sındıra oxuyur. Əlişir o saat atının başını döndərib əkinçinin yanına gəldi. Atdan düşüb zəmiyə girdi,təzəcə boy atan sünbülləri çıxarıb atmağa başladı.

- Ey müsəlman, niyə mənim zəhmətimi zay edirsən – deyə əkinçi həyəcanla qışqırdı.

- Əvvəl özünə bax, sonra mənə, öz eybini görmürsən, özgədə nöqsan axtarırsan. Bəs sən nəyə görə mənim qəzəlimin qol-qıçını sındırıb oxuyursan? Sən mənim şeirimi zay edirsən, mən də sənin zəmini , - deyə Əlişir cavab verdi.

## Daşdan da papaq olarmı?

Bir gün Sultan Hüseyn Əlişiri pərt etmək üçün ona ağlagəlməyən çətin bir iş tapşırdı, dedi :

- Əlişir, sənə üç gün möhlət verirəm. Bu müddətdə mənə daşdan papaq tikib gətir.

Sultanım, əgər sapını versəniz, üç günə yox, üç saata tikərəm,- deyə Əlişir cavab verdi.

- Necə sap lazımdır ? – Sultan Hüseyn soruşdu.
- Ağac külündən düzəldilmiş sap, Sultanım.
- Ağac külündən də sap olar?
- Bəs daşdan papaq olar ?

Əlişirin hazırcavablığından pərt olan Sultan Hüseyn başını aşağı saldı.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Əlişirin hərəkətlərini necə qiymətləndirirsiniz ?
2. Əkinçinin sualına siz necə cavab verərdiniz?
3. Sultan Hüseynin Əlişiri pərt etmək istəməsinin səbəbini nə ilə izah edərdiniz ?
4. Əlişir hansı keyfiyyəti ilə hökmdarı susmağa məcbur edir ?

**Tapşırıq №1.** Hər iki mətni diqqətlə oxuduqdan sonra sözlərin düzgün tələffüzünə əməl etməklə məzmununu ardıcıl şəkildə danışın.

**Tapşırıq №2.** Mətnin əsas qayəsini təşkil edən cümlələri seçin,həmin cümlələrin tərkibindəki sözləri işlənmə dairəsi baxımından (ümumişlək və ümumişlək olmayanlar) qruplaşdırın.

**Tapşırıq №3.** Düzgün tələffüzü yazılışından fərqli olan sözləri verilmiş cədvələ uyğun müəyyənləşdirin.

| Səslərlə hərflərin sayı eyni olan sözlər | Səsləri hərflərindən çox olan sözlər | Səsləri hərflərindən az olan sözlər |
|---|---|---|
| əkinçi | həyəcanla | şeir |
| | | |
| | | |
| | | |

## Məşğələ 3.
## TƏLƏBƏLƏRİN LÜĞƏT EHTİYATINI ZƏNGİNLƏŞDİRMƏK VƏ ŞİFAHİ NİTQİNİ İNKİŞAF ETDİRMƏK İMKANLARI.

Əvvəlki paraqrafda qeyd etdiyimiz kimi "Şifahi nitqin inkişafı" fənnini tədris etməkdə əsas məqsəd tələbələrə müəyyən oxu,yazı vərdişləri aşılamaqla bərabər, onların şifahi nitqini formalaşdırmaq və inkişaf etdirməkdir. Bu imkana sahib olmaq üçün isə ilk olaraq onların lüğət ehtiyatı zənginləşdirilməlidir.

Lüğət bu istiqamətdə atılan ilk addım və vacib amillərdəndir. Dil bu amilə söykənərək yalnız sözlərlə ünsiyyət vəzifəsinə xidmət edir. Bu məqsədə bütövlükdə nail olmaq üçün xüsusi bədii qiraətə üstünlük verilməsi məsləhətdir.

Nitqin zənginliyini,üslubi cəhətdən və ədəbi dil normaları baxımından düzgünlüyünü təmin etmək üçün dilin qrammatik qayda-qanunlarını bilmək əsas şərtlərdən sayılır.

Şifahi nitq vərdişlərinin aşılanması və möhkəmləndirilməsinin məşğələlər zamanı müxtəlif tipli çalışmalar vasitəsilə həyata keçirilməsi daha faydalı hesab edilir.

**Var ol , Vətən!**
**(Nəğmə)**
**(Azərbaycan xalq cümhuriyyətinin 80 illiyinə)**

Azərbaycan –ulu yurdum,şöhrət tacım,mərd diyarım,
Bayrağının üç rəngində yuva qurub arzularım,
Tarixlərdən gələn səsin iftixarım, şah vüqarım,
Daim yaşa,var ol sən!
Ağ günlərə yar ol sən!!

Sən əzizsən, müqəddəssən, mənim halal torpağımsan,
Dünənimsən, bugünümsən, sabahki xoş növrağımsan,
Tufanlara tab gətirmiş haqdan yanan çırağımsan.
Daim yaşa,var ol sən!
Ağ günlərə yar ol sən!!

Bir ölkəsən, bənzərin yox, var-dövlətdir hər qarışın,
Yaranışdan ləl-cövhərlə zinətlənib dağın-daşın.
Fatehlərə yenilmədin, çox bəlalar çəkdi başın,
Daim yaşa,var ol sən!
Ağ günlərə yar ol sən!!

Yağı düşmən göz dikibdir el-obana bu günə yenə,
Şir ürəkli oğlun-qızın səngərlərə gərib sinə.
Qoy eşitsin bütün  dünya, bata bilməz heç kim sənə.
Sən poladsan, qranitsən,
Qüdrətinə min-min əhsən!
Daim yaşa, var ol sən!
Ağ günlərə yar ol sən!!

***(Vidadi Babanlı)***

**Sual və tapşırıqlar.**

**Cavablandırın:**

1. Şeirdə söhbət nədən gedir?

2.”Yağı düşmən göz dikibdir el-obana bu gün yenə” misrası ilə şair nəyə işarə edir?

3. Hansı misralar əsasında vətənin tarixi xatırlanır?

**Tapşırıq №1.** Şeirdə lüğəvi mənası çətin başa düşülən sözlərdən ibarət lüğət tərtib edin.İzahlı lüğətdən istifadə etməklə həmin sözlərin mənası və mənşəyini şərh edin.

**Tapşırıq №2.** Şeirdən yazılışı düzgün tələffüzündən fərqli olan sözləri seçib yazın.Həmin sözlərdə tələffüz fərqi yaradan səsi göstərin.

**Tapşırıq №3.** Şeiri formaca əvvəlki paraqraflardakı nəsr şəkli ilə müqayisə edin.Müşahidə etdiyiniz fərqli əlamətləri müstəqil şərh edin.

## Məşğələ 4.

## LÜĞƏT EHTİYATININ İNKİŞAF ETDİRİLMƏSİ ÜZƏRİNDƏ IŞ.

Dilçiliyin lüğətçiliklə məşğul olan,onun tərtibi qaydalarını müəyyən edən sahəsinə **leksikoqrafiya** deyilir. Leksikoqraf lüğətçi, onun məşgul olduğu sahə isə lüğətçilik adlanır.

Forma və məzmunca lüğətlər rəngarəng olur:

1.Formaca: birdilli, ikidilli, çoxdilli və s.

2.Məzmunca: izahlı, omonim, sinonim və antonimlər lüğəti, terminoloji, frazeoloji lüğətlər və s.

### Azərbaycan Xalq Cümhuriyyəti

1917-ci ildə Rusiyada çar hökümətini yıxdılar. Çar Rusiyasının müstəmləkəsi olan Azərbaycan ayağa qalxdı. Xalqımız milli azadlıq uğrunda çarpışdı. **1918-ci il mayın 28-də**

**Azərbaycan Xalq Cümhuriyyəti yarandı.** O, türk dünyası və islam aləmində (Yaxın Şərqdə) ilk demokratik respublika idi. Yeni cümhuriyyət bildirdi ki, xalqımız öz müqəddəratını özü həll etməyə qadirdir.

Azərbaycan Xalq Cümhuriyyəti xalqa böyük hüquqlar verdi: söz azadlığı, mətbuat azadlığı, yığıncaq azadlığı, vicdan azadlığı. Bu respublika yeni tipli məktəblər açdı. Zəhmətkeş balalarının savadlanması qayğısına qaldı.Azərbaycanda yaşayan azsaylı xalqlara da tam azadlıq verdi.

O zaman da ermənilərin gözü Azərbaycan torpaqlarında idi. Keçmiş rus imperiyası ordusu erməni ordusunu silahlandırmışdı. Onların ordusu Azərbaycanı parçalamağa çalışır, günahsız adamların qanını tökürdü. Azərbaycan Xalq Cümhuriyyəti Milli Azərbaycan Ordusunu yaratdı. Bu ordu erməni ordusu ilə vuruşur, torpaqlarımızın bütövlüyünü qoruyurdu.

Azərbaycan Xalq Cümhuriyyəti çalışırdı ki, sənaye və kənd təsərrüfatı sürətlə inkişaf etsin, ölkədə bolluq yaransın.

Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurasının sədri Məmməd Əmin Rəsulzadə idi. O, silahdaşları ilə birlikdə Azərbaycanın hərbi cəhətdən güclü dövlətə çevrilməsi üçün böyük işlər görmüşdü.

Məmməd Əmin Rəsulzadə gənc yaşlarında "İnsanlara hürriyyət, millətlərə istiqlal" çağırışı ilə mübarizəyə qoşulmuşdu. Qələbə çalındıqdan sonra o demişdir: "Bir kərə yüksələn bayraq bir daha enməz!" M.Ə.Rəsulzadə türk inqilabının təsdiq etdiyi bir həqiqəti deyirdi: "Haqq verilməz alınar." Gələcək milli hakimiyyətə, haqqa, azadlığa inananların və onun uğrunda mübarizə aparanlarındır.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi bir il on bir ay yaşadı. Bu vaxt ərzində xalq milli azadlığın nə olduğunu gördü. 1920-ci ildə Sovet Rusiyası Xl Qızıl Ordunu Azərbaycana göndərdi.Bu ordu Azərbaycan Xalq Cümhuriyyətini silah gücünə yıxıb, sovet hakimiyyəti qurdu. Milli Ordu buraxıldı. Çoxlu günahsız əhali qırıldı. Ərazimizin bir hissəsi ermənilərə verildi.

İllər keçdi, xalqımız yenidən azadlıq, müstəqillik uğrunda mübarizəyə qalxdı. Bu mübarizə öz nəticəsini verdi. Xalqın tələbi ilə oktyabrın 18-də müstəqil Azərbaycan Respublikası elan edildi.İndi bizim başımız üzərində 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dalğalanır.

***(Y.Kərimov*)**

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Azərbaycan Xalq Cümhuriyyəti nə vaxt elan edildi ?
2. Məmməd Əmin Rəsulzadə haqqında nələri bilirsiniz ?
3. Azərbaycan Xalq Cümhuriyyəti nə vaxt devrildi ?
4. Azərbaycan Cümhuriyyəti cəmi neçə ay yaşadı ?

**Tapşırıq №1.** Çağdaş Azərbaycan Respublikasına dair öyrəndiyiniz məlumatı mətndən əldə etdiyiniz faktlarla tutuşdurub müqayisəli tərzdə danışın.

**Tapşırıq №2.** Mətndən mənasını başa düşmədiyiniz sözlərin lüğətini hazırlayın və leksik mənalarını müəyyən edin.

**Tapşırıq №3.** A saitinin uzun tələffüz olunduğu sözləri mətndən seçib, mənşəcə dəqiqləşdirin.

## Məşğələ 5.

## TƏLƏBƏLƏRİN ŞİFAHİ NİTQİNİ INKIŞAF ETDIRMƏK MƏQSƏDILƏ MƏTN ÜZƏRINDƏ IŞ.

Yazıya alınmış nitq parçası, söyləm mətn adlanır. Mətn elə bir nitq parçasıdır ki, orada artıq, lazımsız, tamamlanmamış bir fikir yoxdur. Mətn həcminə görə iki cür olur: a) makromətnlər, b) mikromətnlər.

Makromətnlər həcm etibarilə böyük və genişdir. Bədii əsərlər makromətnlər sayılır. Mikromətnlər həcmcə kiçik olan mətnlərə

deyilir. Şifahi nitqin ardıcıllığından asılı olmayaraq müəyyən bir hissəsi, parçası mikromətnlərə nümunədir.

## Cənnətim Qarabağ

Qarabağ-Qədim Azərbaycan diyarı, ərənlər yurdu. Kür və Araz çayları arasındakı tarixi bir ərazidə, səfalı bölgədə yerləşən Qarabağ Azərbaycanın dilbər guşələrindən biri. Bu gözəl ərazi Dəclə və Fərat çayları arasında olan qədim Babillə bənzərlik təşkil edir. Mülayim iqlimə, zəngin bitki örtüyünə malik olan bölgədə həyat qədimdən bəri gur və coşqun axarla davam etməkdədir. Məlum həqiqətdir ki, ən qədim bəşəri mədəniyyət iki çayarası ərazilərdə yaranan mədəniyyətdir.

Qarabağ diyarı tarixdə türklərin yaşadığı məkan kimi məlumdur. Gözəl havası və təbii gözəllikləri ilə digər bölgələrdən nisbətən fərqlənməsi, bu cənnət diyarın bölgəyə hakim olan türk sultanları tərəfindən yaylaq kimi seçilməsinə səbəb olmuşdur. Buna görə də tarixdə Qaraqoyunlular, Ağqoyunlular dövründə hökmdarların yaşadığı səfalı bir bölgə kimi məşhurdur. Təbiəti qədər tarixi də zəngin və rəngarəng olan bu diyarın sinəsi əsrarəngiz təbii gözəlliklərlə yanaşı,qanlı çarpışmalara da meydan olmuşdur. Təbii gözəlliyi ilə bərabər coğrafi xüsusiyyəti ilə də böyük əhəmiyyətə malik Qarabağ tarix boyunca bölgədəki qüvvələrin tez-tez mübarizə apardığı məkan idi. Bu, Qarabağla bağlı olan şeir və bayatılarda da özünü göstərir.

Əslim Qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Nə gələn var,nə gedən,
Məgər yollar bağlıdır ?

XX əsrin sonlarında ölkəmizin bu dilbər guşəsinin başı üstünü yenidən qara buludlar aldı. İllərlə havasını udub, çörəyini yeyən mənfur qonşularımız ona xain gözlə baxdılar.

***(Z.Yaqub)***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Qarabağ haqqında hansı bilgilərə sahibsiniz ?
2. Qarabağın coğrafi mövqeyi haqqında nə deyə bilərsiniz ?
3. Qarabağ tarixdə hansı millətlərin yaşadığı məkan olaraq tanınmışdır ?

**Tapşırıq №1**. Mətndən və digər mənbələrdən əldə etdiyiniz bilgilər əsasında "Qarabağ" mövzusunda məruzə hazırlayın və auditoriyada müzakirə edin.

**Tapşırıq №2.** Buraxılmış sözlərin yerinə verilənlərdən uyğun gələnini artırmaqla cümlələri tamamlayın.

1. .... qoca bir kişi işləyirdi.
2. Başı o qədər .... Süleyman padşahın gəlməsini belə ....
3. Padşah ..... qocaya baxdı.
4. Kişi günəşin altında o qədər dayanmışdı ki, .....

***Qapqara idi, hiss etməmişdi, diqqətlə, zəmidə, qarışmışdı ki.***

**Tapşırıq №3.** Aşağıdakı sözləri yazın, düzgün tələffüz şəklini qarşısında göstərin.

**Çiçək, ailə, müəllim, radio, dialoq, monoloq, ataya, sürətlə, dəftərimdən, dörd, səksən, doqquz və s.**

## Məşğələ 6.

## OXU DƏRSLƏRİNDƏ LÜĞƏT ÜZƏRINDƏ İŞ VƏ ONUN TƏRTİBİ.

Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi lüğətlər məzmunca müxtəlif olur. Omonim, sinonim və antonimlər lüğəti, terminoloji, frazeoloji lüğətlər və s. Bu müxtəlifliyə baxmayaraq dünya dilləri üçün lüğətlərin tərtibində ümumi, vahid bir prinsip mövcuddur ki, bu da əlifba prinsipidir. Yəni bütün lüğətlər əlifba sırası ilə tərtib

edilir ki, bu da müəyyən müəssisələrdə, xüsusən mühasibatlıq sahələrində vaxta qənaət məqsədinə xidmət edir.

## Zaqafqaziyanın konservatoriyası




Qarabağ torpağı Azərbaycan mədəniyyətinin ilk və ulu beşiklərindən biridir. Qarabağ Vaqifin, Natəvanın, Zakirin, Üzeyirin, Bülbülün, Xanın vətənidir. Qarabağ musiqi beşiyidir. Vaxtilə Şuşa "Zaqafqaziyanın konservatoriyası" adlandırılmışdı. Qarabağ musiqi məktəbi, hətta bütün Şərqdə məşhur idi. Kim "Qarabağ şikəstəsinə" qulaq asmayıb? Bu musiqidə elin bütün arzuları duyulmurmu?

Qarabağ xanəndələrinə qulaq asanda adama elə gəlir ki, oxuyan Azərbaycan xalqının ruhudur. İnsanın bütün ruhu ilə musiqidə ərimәsini, torpaq uğrunda qurban getmiş igidlərin ürək atəşini, elin bitib-tükənməyən arzularını bu səslərdə necə duymamaq olar?

Qarabağ-başıbəlalı torpağım! Düşmən tapdağı altında qalan torpağım, İsa bulağı, Şuşa qalası, Xankəndisi, Laçını, Kəlbəcəri qan ağlayan torpağım!

Artıq neçə illərdir qoynuna ayaq basa bilmirik. İncə ruhlu nəğmələrə, Qarabağ atlarının kişnərtisinə, sazlı-sözlü məclislərə həsrət qalmısan. Daha Üzeyir "Cəngi" dağlarında, düzlərində əks-səda vermir. İndi torpaqların kimi, nəğmələrinə də mənfur qonşuların şərik olmaq istəyirlər. Amma zaman gələcək

torpaqlarımızı azad edəcəyik. Dağılan şəhərlər, yandırılan kəndlər yenidən qurulacaq. Qaçqın, köçkün camaatımız yenidən doğma el-obasına dönəcək.

Yenə də dağlarında, düzlərində Üzeyir bəyin musiqisi əks-səda verəcək, oğulların "Cəngi" sədası altında yarışlar keçirəcək, qızların "Vağzalı" sədası altında gəlin köçəcək. Ulu tanrıdan arzumuz budur ki, təki o günlər tez gəlsin. Qarabağdan Bülbülün, Xanın mahnıları eşidilsin, Vaqifin, Zakirin, Natəvanın şeirləri məclisləri bəzəsin.

"Zaqafqaziyanın konservatoriyası" olan Şuşa dünyanın hər yerindən gələn qonaqlarını "Sarı gəlinlə" qarşılayıb, Azərbaycan himninin sədaları ilə yola salsın. Bəlkə, o zaman Üzeyirin, Natəvanın, Bülbülün güllə yarası almış büstləri də sağalar. Bəlkə, o zaman şəhid ruhları Qarabağ səmasında sevinclə dolaşar.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Qarabağ haqqında bilgilərinizi əsasən hansı mənbələrdən almısınız?

2.Qarabağdan çıxmış daha hansı tanınmış musiqiçilər haqqında eşitmisiniz ?

3."Cəngi" nədir və kimin adı ilə bağlıdır ?

4.Bütün Şərqdə məşhur olan "Zaqafqaziyanın konservatoriyası"nın beşiyi hara sayılır ?

**Tapşırıq №1.** Necə demək düzgündür ?

Səkkiz-səkgiz; məktəp-mə(x`,)təp; doqkuz-dokquz; anaya-anıya; itki-itgi; vərəq-varaq; zamana-zəmanə; qazet-qəzet; saət-saat; rahət-rahat; ayaqkabı-ayakqabı və s.

**Tapşırıq №2.** Mətndən şifahi nitqdə ən çox işlənən on söz seçib dəftərinizə yazın. Həmin sözlərin iştirakı ilə yeni cümlələr qurun.

**Tapşırıq №3.** Mətnin lüğətini tərtib edin. Müəllimin təcrübəsindən və lüğətin köməyindən istifadə edərək lüğəvi mənalarını müəyyənləşdirin.

## Məşğələ 7.

## ŞIFAHİ NİTQİN İNKİŞAFINDA MÜƏLLİM NITQİNİN ROLU

Şifahi nitqin inkişafına təsir edən,təkan verən amillərdən biri də müəllimin nitqidir.Bunun üçün müəllimin nitqi məzmunlu və ifadəli olmalıdır. Müəllim nitqinə nə qədər tələbkar olsa, onun düzgünlüyü, aydınlığı və ifadəliliyi qeydinə qalsa onun nitqi bir o qədər təsirli, ahəngdar və cazibəli olar. Müəllimin nitqinə verilən tələblər aşağıdakılardır :

1. Danışarkən tələsməməli və təmkinli olmalı.
2. Sözləri düzgün və aydın tələffüz etməli.
3. Sözləri yerli-yerində və məqamında işlətməli.
4. Hadisələri məntiqi ardıcıllıqla danışmalı.
5. Hadisələr arasındakı əlaqəni aydın çatdırmalı.

### Milli incəsənət muzeyi



Mütəxəssislərin fikrincə ən böyük muzeyimiz Azərbaycan Milli İncəsənət Muzeyidir. Muzeydə 17000-dən çox eksponat saxlanılır. Azərbaycanda ilk professional muzey Xalq Cümhuriyyəti dövründə-1919-cu ilin dekabr ayında elə parlamentin öz binasında fəaliyyətə başlamışdır. İncəsənət muzeyinin əsası 1936-cı ildə qoyulmuşdur. Deyilənlərə görə,

1943-cü ildən muzey teatr dekorasiya sənətinin yaradıcılarından biri Rüstəm Mustafayevin adını daşıyır. 1951-ci ildən indiyədək muzey Bakıda XlX əsrdə inşa edilmiş iki yanaşı tarixi binada-"De Burun Sarayı" və "Marlinsi Qadın Gimnaziyası" binalarında yerləşir.

Muzeydə Qədim Şərq və Azərbaycan, Rusiya və Qərbi Avropa incəsənətinin müxtəlif dövrlərini əhatə edən incəsənət əsərləri nümayiş etdirilir.

2013-cü ildə muzeyin ikinci və birinci korpuslarını birləşdirən yeni keçid korpusu da inşa edildi.Yeni korpusun inşası muzeyin daxili görkəmini bir daha zənginləşdirdi. Muzey bazar ertəsi günündən başqa, hər gün saat 10:00 dan 18:00-a qədər tamaşaçıların üzünə açıq olur.

Gənc dostlar, Azərbaycan İncəsənət Muzeyimizi görməyə, gəzməyə və müxtəlif çeşidli eksponatlar ilə yaxından tanış olmağa dəyər.

**Sual və tapşırıqlar**
**Cavablandırın:**

1. Milli İncəsənət Muzeyinin əsası nə vaxtdan qoyulmuşdur ?
2. Muzeydə nə qədər eksponat saxlanılır ?
3. Muzey ilk dəfə nə vaxtdan və harada fəaliyyətə başlamışdır?

**Tapşırıq №1.** Sözləri düzgün və aydın tələffüz etməklə mətni oxuyun. İntonasiyanın tələblərinə əməl edin.

**Tapşırıq №2.** Mətni öyrənin və məzmununu ardıcıllıqla auditoriya nəzarəti altında danışın.

**Tapşırıq №3.** Azərbaycan Milli İncəsənət Muzeyi haqqında məlumatlar toplayıb təqdimat hazırlayın. Mənasını başa düşmədiyiniz sözlərin lüğətini tərtib edin.

## Məşğələ 8

## ƏDƏBİ ƏSƏRLƏRİN OXUSU VƏ TƏHLİLİİ PROSESİNDƏ YENİ SÖZLƏRİN İZAHI

İnsan öz fikrini cümlələr vasitəsi ilə ifadə edir. Cümlələr sözlərdən ibarətdir. Odur ki, sözsüz heç bir cümlə təsəvvür etmək mümkün deyil. Söz də cümlə kimi dilin əsas vahididir. Ona görə də sözün mahiyyətini, onun məzmun dolğunluğu və məna dairəsini müəyyənləşdirmək olduqca vacibdir.

Hər hansı bir söz bu və ya digər anlayışın adını, yaxud məfhumunu bildirir.

Söz işarə edən, məfhum isə işarə olunandır. Məsələn, alma söz, meyvə isə onun ifadə etdiyi məfhumdır. Kitab söz, bilik mənbəyi olması isə məfhum hesab edilir.

Ədəbi əsərlərin oxusu və təhlilində yeni öyrənilən sözün yazılış və tələffüz formaları, həm də onun lüğəvi mənası düzgün dərk edilməlidir. Hər bir yeni söz düzgün tələffüz edilməli, yerində işlədilməli və düzgün yazılmalıdır ki, məzmunca dolğun, eyni zamanda konkret olsun.

### Cahan Pəhləvan



Səlcuqilərin İraq **Sultanlığı** əsasında on ikinci əsrin ortalarında Azərbaycan Atabəyləri dövləti yaranır. Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvan 1175-ci ildə Azərbaycan Atabəylər

dövlətinin ikinci hakimi olur. Onun zamanında bu dövlət daha da möhkəmlənərək tanınır, həmçinin atabəylərin hökuməti **sabitləşir**. Atabəyin **onillik hakimiyyəti** dövründə ölkə xaricdən heç bir təzyiqə məruz qalmadı. Məhz Cahan Pəhləvanın hakimiyyəti dövründə gürcülər onun tələblərini qəbul etdilər və onunla sülh bağladılar.

Cahan Pəhləvan sənəti və **sənətkarı qiymətləndirməyi** bacaran bir **hökmdar** kimi də yadda qalmışdır. O, elm və mədəniyyət xadimlərinə hər cür himayədarlıq göstərirdi. Onun sarayında bütün Yaxın və Ön **Asiyadan** gəlmiş şair, alim, həkim və memarlara rast gəlmək olardı. Misal üçün böyük Azərbaycan şairi Xaqani Şirvandan qaçıb onun himayəsinə sığınmışdı. Dahi şairimiz Nizami Gəncəvi isə özünün" Xosrov və Şirin" poemasını Cahan **Pəhləvana** ithaf etmişdir. Cahan Pəhləvanın dövründə Naxçıvan, Gəncə və Təbriz kimi şəhərlər sürətlə inkişaf edirdi.

**"Azərbaycan qədim və orta əsrlərdə görkəmli şəxsiyyətlər" kitabından**

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Atabəy Cahan Pəhləvan kim idi ?

2.Cahan Pəhləvan sənəti və sənətkarı necə qiymətləndirirdi ?

3.Onun hakimiyyəti dövründə ölkənin daxili və xarici siyasətini necə xarakterizə edərdiniz ?

**Çalışma №1.** Mətndə fərqləndirilmiş sözləri yazın, ədəbi tələffüz qaydasına uyğun oxuyun,onları səs və hərf tərkibinə görə təhlil edin.

**Çalışma №2.** Sonuncu abzası oxuyun. Düzgün tələffüzü ilə yazılışı arasında fərq olan sözləri göstərin. Həmin sözlərdə fərq əmələ gətirən səsi tələffüz şəklində yazın.

**Çalışma №3.** Sizin üçün yeni olan sözləri mətndən seçib lüğətini tərtib edin. O sözlərin həm mətndaxili,həm də ayrılıqda ifadə etdiyi mənasını izah edin.

**Məşğələ 9**

## YENİ SÖZLƏRİN İZAHINDA AZƏRBAYCAN DİLİNİİN İMKANLARINDAN FAYDALANMA BACARIĞININ FORMALAŞDIRILMASI.

Sözün leksik mənasını müəyyən etmək üçün aşağıdakı üsullardan istifadə etmək məqsədəuyğun sayılır:

1.Sözün sinonimini tapmaq.

2.Sözün antonimini müəyyənləşdirmək.

3.Əşya və hərəkətin xüsusiyyətini şərh etmək və ya sadalamaq.

4.Sözü tərkibinə ayırmaqla (kök və şəkilçiyə) mənalarını dəqiqləşdirmək.

5.Sözü etimoloji cəhətdən təhlil etmək.

### Qarabağ yolunda qurban verilmiş ömür

Bayat, Kəngərli, Zülqədər, Şamlı və digər boylar kimi türk-qıpçaq əsilli Qacar tayfası da Azərbaycan xalqının milli



mənşəyinin formalaşmasında daha mühüm rol oynamışdır. Qacarlar, əsasən, Azərbaycanın şimal hissəsində, Qarabağ, Gəncə və İrəvan tərəflərdə yaşayırdılar. Tayfanın yüksəlişi məhz Qacarlar ailəsi ilə başlayır.Ailədə beş qardaşın böyüyü Qacar xan idi. Tayfanın kökü də adını buradan götürmüşdür.

Atası Məhəmməd Həsən Xan yürüşlərin birində 13 yaşlı oğlu Ağa Məhəmməd xanı da özü ilə aparır. Ona qabaqda gedən

dəstənin rəhbərliyini tapşırır. Bundan sonra gənc Ağa Məhəmməd atası ilə bütün yürüşlərdə iştirak etməyə başlayır. Məhəmməd Həsən şah hətta bəzi vaxtlarda Azərbaycan və Astrabad idarəçiliyini də oğluna tapşırır. 1759-cu ildə Məhəmməd Həsən şah Zənd tayfası ilə döyüşlərin birində həlak olur və İran hakimiyyəti uğrunda mübarizə istər-istəməz onun böyük oğlu Ağa Məhəmməd şah Qacara keçir.

Ağa Məhəmməd şah ehtiraslı ov azarkeşi idi. O, xüsusilə, şahinlərlə birlikdə tülkü ovuna çıxmağı çox sevərdi. Tutduğu tülküləri qonşularına və yaxınlarına hədiyyə edirdi. Bu da səbəbsiz deyildi. O vaxt belə hesab edirdilər ki, tülkü evə ancaq səadət gətirir.

Deyilənlərə görə, Ağa Məhəmməd şah gürcü çarı II İraklinın və Qarabağ xanı İbrahimxəlil xanın Rusiya himayəsinə keçmək niyyətində olduğunu eşidir. İbrahimxəlilin gizli razılığı ilə İrakli qacarların əsil dədə-baba torpaqlarını-Qarabağ,İrəvan xanlıqlarını və Gəncəni rus çarına vermək istəyirdi.

Doğma torpaqlarının yadellilərin əlinə keçməsini qüruruna sığışdırmayan Ağa Məhəmməd şah özünün altmış minlik qoşununu Qafqaza yeridir. Qoşunun əksər hissəsi ilə Şuşanı almaq üçün Qarabağa doğru yollanır. Keçilməz Şuşa qalasını xüsusi hazırlıq olmadan tutmaq mümkün olmadığını anlayan Ağa Məhəmməd şah qoşununun istiqamətini Tiflisə döndərir. Onun dəstəsi güclü müqavimət görmədən İraklinın yaraqlılarını darmadağın edərək, Tiflisə girir. İrakli qaçıb dağlarda gizlənir.

Tiflis alındıqdan sonra bəzi Azərbaycan xanları artıq Ağa Məhəmməd şaha tabe olduqlarını bildirir. Yalnız İrəvan və Qarabağ xanları onun tabeçiliyini qəbul etmirlər. 1796-bi ilin yayında Ağa Məhəmməd şahın qardaşlarının komandanlığı altında 20 minlik ordu İrəvana yaxınlaşır. Beş həftəlik mühasirədən sonra qala təslim olur və sülh bağlanır.

***“Azərbaycan qədim və orta əsrlərdə görkəmli şəxsiyyətlər” kitabından***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

**1**.Ağa Məhəmməd şahın düşmənləri kimlər idi ?

**2.**Azərbaycanın daha hansı qüdrətli sərkərdələrini tanıyırsınız?

**3**.Ağa Məhəmməd şah milli-mənşəcə hansı türk tayfasına mənsubdur ?

**Tapşırıq №1.** Hadisələrin ardıcıllığını müəyyən edin.

☐ ...Ağa Məhəmməd şah qoşununun istiqamətini Tiflisə döndərir.

☐ .... 1976-cı ilin yayında 20 minlik ordu İrəvana yaxınlaşır.

☐ ...Bəzi Azərbaycan xanları Ağa Məhəmməd şaha tabe olduqlarını bildirirlər.

☐ ...Beş həftəlik mühasirədən sonra qala təslim olur və sülh bağlanır.

☐ ...Məhəmməd Həsən xan on üç yaşlı oğlu Məhəmməd xanı da özü ilə ova götürür.

**Tapşırıq №2.** Ümumişlək sözləri seçin və onların həqiqi və məcazi mənada işləndiklərini müəyyən edin.

**Tapşırıq №3.** Mənasını başa düşmədiyiniz sözləri ayırıb əlifba sırası ilə lüğətini düzəldin. Həmin sözlərin lüğəvi mənalarını şərh edin.

## Məşğələ 10

## SÖZÜN ŞƏRHİNDƏ SİNONİM VƏ ANTONİMLƏRDƏN İSTİFADƏ VƏRDİŞLƏRİNİN YARANMASI

Eyni anlayışı, məfhumu müxtəlif cür adlandıran, məzmunca bir-birinə yaxın məna ifadə edən sözlərə sinonim deyilir. Eyni mənaya malik olan sözlər-dubletlər adlanır. Dubletlər(eyni sözlərin müxtəlif dildə adları) dili lazımsız sözlərlə yükləyir və ifadənin səlisliyini pozur.

Sözlərin sinonim olması üçün onların eyni nitq hissəsinə aid olması əsas şərtdir. Nitq hissələrindən ən çox isim, sifət, fel və zərflər sinonim olur.

Sinonim sözlərdən şifahi və yazılı nitqdə lazımsız təkrarın qarşısını almaq, fikri daha dəqiq və mənalı,təsirli ifadə etmək məqsədilə istifadə edilir.

Məs: danışmaq, söyləmək, ərz etmək; gözəl, göyçək, qəşəng və s.

Bir-birinə zidd məna ifadə edən sözlərə antonim deyilir. Antonim sözlər müxtəlif fonetik tərkibə malik olur. Məsələn, gecə-gündüz, böyük-kiçik, uzun-qısa və s.

Antonim sözlərin dildə yaranmasına səbəb bizim yaşadığımız mühitin, obyektiv aləmin özünün ziddiyyətli olmasıdır. Məsələn, ölüm-dirim, xeyir-şər, işıq-qaranlıq və s.

Antonim sözlərdən bədii əsərlərdə təzad yaratma vasitəsi kimi istifadə edilir.

## Xətib Təbrizi

Təbrizdən Suriyaya uzanan yolla çiynində bir **xurcun**[1] sallanan gənc bir oğlan gedir. Xurcunun içində əsas yeri kitablar tutur, azca da olsa, yemək var. Gəncin adı Xətibdir. Əslən Təbrizdəndir. Onun yolu Nüman adlı **kiçik**[2] bir şəhərə-Şərqin **şöhrətli**[3] alimi Əbul-Ülanın yanınadır.

Hələ məktəb yaşlarından Xətib Şərq poetika nəzəriyyəsi ilə maraqlanır, məhz bu mövzuda çoxlu kitablar yığıb-oxuyur. İyirmi yaşlı bu istedadlı oğlanın beynində suallar doğur ki, yerli alimlərin heç birisi cavab verə bilmir və ona məsləhət görürlər ki, Suriyaya-məşhur dilçinin yanına getsin. Xətib mənzil başına çatanda xurcununda apardığı kitablar tər qoxuyurdu.

Xətib bu qədər uzun yolu nahaqdan gəlməmişdi. Əbu-l-Üla ərəb dilçiliyi və ədəbiyyatının nəhəng bilicisi idi. Sonralar Xətib Təbrizi onun haqqında belə demişdir: Ərəblərin dilində Əbul-Üləya məlum olmayan “bircə sözdə yoxdur. Bu **sözlər**[4]yalnız ona məxsusdur: “**Bəşər**[5]cinsi iki qismə bölünür, bir qismində ağıl var,

din yoxdur, o biri qismində təkcə din var, ağıl isə yoxdur”. Alimin gözləri kor olsa da o, fenomenal yaddaş sahibi idi.

Xətib Təbrizi Bağdadda türk-səlcuq hakimlərinin vəsaiti hesabına məşhur vəzir iranlı Nizamülmülkün şərəfinə açılan” Nizamiyyə” mədrəsəsində təxminən 40 il ədəbiyyatşünaslığı tədris edir və mədrəsədəki məşhur kitabxananın **təşkilatçısı** və rəhbəri olur. Onun yaradıcılıq fəaliyyəti təkcə ədəbiyyatşünaslıq deyildi. Bundan başqa Xətib Təbrizi Qurana dördcildlik şərhlərin, ədəbi əsərlərin və **leksikoqrafiyaya**, qrammatikaya, habelə ərəb poetika nəzəriyyəsinə dair bir sıra şərhlərin müəllifidir.

***(“Azərbaycan qədim dövr və orta əsrlərdə görkəmli şəxsiyyətlər” kitabından)***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

**1.** Xətib Təbrizi kimdir?

**2.**Siz olsaydınız o cür hala düşmüş kitabı özünüzlə daşıyardınızmı?

**3.**İkinci abzasda Xətib Təbrizinin həyatından gətirilən həmin epizoddan özünüz üçün nələri ibrət götürdünüz?

**Tapşırıq№1.** Mətndən işarələnmiş sözləri seçib, sinonimlərini tapın. Tapdığınız sözləri mətndəki sinonim qarşılığı ilə əvəz etsəniz dəyişiklik baş verərmi? Fikrinizi mətn əsasında izah edin.

**Tapşırıq №2.** Mətnə görə cütləri müəyyən edin.

| | |
|---|---|
| Gözləri kor olan alim | Nizamülmülk |
| İranlı məşhur vəzir | Əbi-l-Üla |
| Kitabları tər qoxuyan yolçu | Yerli alimlər |
| Xətibin suallarını cavablandıra bilməyənlər | Xətib |

**Tapşırıq№3.** Tanıdığınız elm adamlarının biri haqqında təqdimat hazırlayın.Təqdimatın ixtiyarı hissəsini (abzasını)

nəzərdən keçirməklə müvafiq sözləri sinonim və antonimləri ilə əvəz edin.

### Məşğələ 11

## CÜMLƏ QURMAQ VƏRDİŞİNİN NİTQİN İNKİŞAFINDA FAYDASI

Məlumdur ki, lüğət ehtiyatı nə qədər zəngin olsa da, öz-özlüyündə hələ o, nitq demək deyildir. Sözlər lüğəvi və qrammatik məna əsasında cümlələrdə birləşərək ünsiyyət vasitəsinə çevrilir. Cümlə fikri ifadə etməyin, başqasına çatdırmağın əsas vahididir. Düzgün cümlə qurmaq vərdişlərinə yiyələnmək üçün aşağıdakı üsullardan istifadə edilməlidir:

1) Müəllimin nitqi.
2) Ədəbi mətnlərin oxusu, təhlili və əzbərlənməsi.
3) Qrammatik məşğələlər.
4) Nitq praktikası.
5) Müəllimin suallarına cavab vermək.
6) Ailədə söhbət, yoldaşlarla danışmaq.
7) Oxunmuş mətnin nağıl edilməsivə s.

### İsaak Nyüton



Bu, boydan hündur olmayan, sifətdən çirkin, cəsarətsiz adamı sağlığında belə səma adamı çağırırdılar və təəccüblənirdilər ki, necə olur o da başqaları kimi yeyir, içir və yatır. Burada qəribə bir şey yox idi, çünki söhbət yalnız böyük alimdən gedirdi. Belə danışırlar ki, İsaak məktəbdə küt şagird sayılırmış. Ancaq bir dəfə yoldaşlarından biri onu döyür. Nyüton həmin oğlandan zəif olduğu üçün cavabını verə bilmir. O, intiqam üçün daha başqa üsul seçir: təkcə dərslərinə fikir verməklə məktəbdə ən qabagcıl şagird olur. İsaak oxumaqla bərabər, əylənməyi də sevirdi. Özü üçün oyuncaqlar düzəldirdi. Məsələn, o, yel dəyirmanının modelini yaratmışdı. Burada dəyirmanı külək deyil, küçədəki buğdanın dalınca qaçan siçan işlədirdi.

Halbuki o zaman nə hazır modellər, nə də model düzəltmək üçün kitablar var idi. Əlbəttə, bunlar ola da bilməzdi, çünki oğlan ömründə görmədiyini fikirləşib ixtira etmişdi.

Qonşular evlərinin üstündə uçan çərpələnglərə gözlərinə inanmadan baxırdılar. Bunlar İngiltərədə ilk dəfə idi ki, yaradılırdı. Yeniyetmə oğlan düzəltdiyi çərpələnglərə daha uyğun forma tapmaq üçün fikirləşirdi. Bəlkə də bu aerodinamika sahəsində tarixdə ilk tədqiqat işləri idi.

Bu çəlimsiz uşaq on dörd yaşında özügedən araba düzəltmişdi. Sürücü xüsusi dəstəyi tərpətməklə təkəri hərəkətə gətirirdi. Bu araba velosipedin əcdadlarından biri idi.

İxtiraçılıq istedadı və öz əlləri ilə qurub-yaratmaq həvəsi Nyütonun başlıca xüsusiyyətlərindən idi. Hətta, London Kral Cəmiyyətinə (İngiltərə Elmlər Akademiyası) o, yeni tipli teleskop yaratdığına görə üzv seçilmişdi. Lakin Nyüton ömrünü ancaq elmə həsr etmişdi. Onun kəşfləri müasirlərini ....

*“ Göyərçin” jurnalından*

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Bəs siz məktəbli dostunuza hansı üsulla cavab verərdiniz ?
2. Nyütonun kəşflərindən daha nələri bilirsiniz ?
3. Mətnin sonuncu cümləsi belə tamamlanmalıdır :

a)çox qısqandırırdı
b)olduqca şöhrətləndirirdi
c)heyrətləndirir və sevindirirdi

**Tapşırıq№1.** Beşinci abzasdakı "Hərəkətə gətirmək" ifadəsini aşağıdakı sinonimlərdən biri ilə əvəz etmək olmaz.

A) İşə salmaq B) Fırlatmaq C) Aparmaq

**Tapşırıq №2.** Həyatınızın ən əlamətdar günlərindən birinin (doğum gününün anma mərasimini) təəssüratlarını dostunuza rabitəli nitq əsasında danışın. Cümlələrinizdə yol verdiyiniz səhvləri müəyyənləşdirib düzəltməyə çalışın.

**Tapşırıq №3.** Mətndə buraxılmış sözlərin yerinə verilənlərdən uyğun gələnini nöqtələrin yerinə artırmaqla cümləlləri tamamlayın.

**Sevgi, baxır, can üz-üzə, əfsus**

...möcüzədi, böyük möcüzə!
O nə yaşa...., nə də ağıla
Qovuşuruq yara ...
... ar sanırlar bunu ahıla

***(Vidadi Babanlı)***

## Məşğələ 12

## FRAZEOLOJİ BIRLƏŞMƏLƏR VƏ AFORİZMLƏR HESABINA NİTQİN ZƏNGİNLƏŞMƏSİ

Tərkib hissələrinə parçalandıqda öz mənasını itirən birləşmələrə frazeoloji birləşmələr deyilir. Qrammatik söz birləşmələrinin özü və ya onun tərkibindəki sözlər məcazi mənaya keçərək öz mütəhərrikliyini itirir. Nəticədə sözlər arasında əlaqə və münasibət yaradan vasitələr donuq bir hala gəlir və o, bütöv bir

məfhumu ifadə edən sabit söz birləşməsinə çevrilir. Məsələn, yola salmaq(ötürmək), qulaq asmaq(dinləmək), başa salmaq (izah etmək və ya aydınlaşdırmaq), üzə vurmaq (utandırmaq) və s.

Aforizmlər (hikmətli sözlər) -dərin və dolğun bir ibrətamiz məna ifadə edərək, cümlələr şəklində formalaşmış sabit söz birləşmələrinin (frazeoloji birləşmələrin) bir növünə deyiir. Məsələn :

Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir su da

***(Nizami Gəncəvi)***

Kişi bir sənəti bilər xalis,
Çoxuna meyil edən qalar naqis.

***(Seyid Əzim Şirvani)***

Yaxşı kitab çox qiymətli xəzinədir

***(Həsən bəy Zərdabi)***

Adın şərəflidir sənin, ey qadın,
Dahilər anası çağrılır adın.

***(Səməd Vurğun)***

## Haqq söz

Eşitdim, bir yoxsul haqq söz demişdi,
- ah onun sözündən çox incimişdi.
Zavallı kişini salıb zindana,
Gücünü göstərdi padşah ona.
Yoxsula bir dostu söylədi xəlvət:
- Şahla bəhs eyləmək deyil məsləhət.
Yoxsul dedi : "Gərək düz danışım mən,
Qorxmayım bir günlük qara məhbəsdən".
Saray xəfiyyəsi bunu eşitdi ,
Şaha yetirməkçin saraya getdi.
Şah dedi : "Yanılır o sərsəm insan,
Məzarı olacaq qaranlıq zindan".

Bunu o yoxsula xəbər verdi qul.
Yoxsul dedi şaha : “Söylə,ay oğul!
Yaralı könlümdə yoxdur mənim qəm,
Bircə saatlıqdır bütün bu aləm.
İstər yaxşılıq et, istərsə öldür.
Bu könlüm kədərsiz, qəmsiz könüldür.
Yoxdur sənin kimi ordum, qüdrətim.
Dünyadan gedincə bir həftəyə biz,
Bərabər olarıq torpaqda şəksiz.
Beş günlük dünyaya uyma, hökmran,
Yandırma özünü xalqın ahından.
Səndən əvvəl gələn şahlar da vardı,
Zülm etdi, onları ölüm apardı.
Çalış,bu dünyada qazan yaxşı ad
Ki,səni nifrətlə etməsinlər yad.
Kim qoysa, dünyada bir çirkin adət,
Xalq ona yağdırar daima lənət.
Güclünün başı da çatsa göylərə,
Axırda girəcək bir qarış yerə”.
Eşidib padşah bundan incidi,
"Dili çıxarılsın boynundan ", - dedi.
Bundan da qorxmadı haqq sevən əsla ,
Dedi : "Çəkinmərəm, görsəm hər bəla.
Dilim kəsilsə də, bir qəmim yoxdur,
Mənim deyilməmiş sözlərim çoxdur.
Zalım eyləsə də , mənə yüz sitəm,
Axırım uğurlu olacaq, nə qəm.
Sənin xoş keçsə də həyatın bu gün,
Matəmin ellərə olar toy-düyün"

***(Sədi Şirazi)***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Sədi Şirazi haqqında nə bilirsiniz?

2.Mətnin ideyasını hansı aforizimlə ifadə etmək mümkündür?

3.Mətnin ideya və məzmunu ilə səsləşən daha hansı şeir və ya hekayə bilirsiniz?

**Tapşırıq №-1.** Şeiri nəsrə çevirib, məzmununu ardıcıllıqla danışın. Diqqətinizi cəlb edən misralardan ibarət hissəni təhlil edin.

**Tapşırıq №-2.** Mətndə işlənmiş frazeoloji birləşmə və aforizimləri seçib dəftərinizə yazın. Onların mənasını müəyyənləşdirmək üçün sinonim və antonim qarşılıqlarını tapın.

**Tapşırıq №-3.** Mətndə mənası sizə tanış olmayan sözləri lüğətdən öyrənmək üçün əlifba ardıcıllığı ilə yazın.

## Məşğələ 13

## CANLI DANIŞIQ ÜÇÜN DAHA AKTIV OLAN HAZIR SÖZ VƏ IFADƏLƏR VASITƏSILƏ NİTQİN ZƏNGİNLƏŞDİRİLMƏSİ

Nitq vərdişlərinin inkişafında hazır söz və ifadələrdən, frazeoloji vahidlərdən nitqdə işlətmənin faydası olduqca çoxdur.

Hazır ifadə və birləşmələrin mənimsənilməsi, eləcədə vərdişə çevrilməsi üçün aşağıdakı metod və üsullardan istifadəyə üstünlük verilməlidir:

1. Müəllimin nitqində müşahidə edilən söz, ifadə və frazeoloji birləşmələrin mənasının xüsusi şərhi.
2. Mətni oxuduqdan sonra nəzər diqqəti cəlb edən və fikrin ifadəli təqdimində əsas rol oynayan cümlələrin məzmun cəhətdən təhlili.
3. Mətnin oxusundan sonra onun məzmununun öyrənilərək nağıl edilməsi.
4. Şeirlərin əzbər öyrənilməsi.

## Ən böyük dövlət

Keçmiş zamanlarda bir cavan oğlan həmişə oz kasıblığından şikayət edərdi:

-Ah, nə yaxşı olardı ki, mənimdə böyük bir dövlətim olardı. Onda mən həmişə deyib-gülüb yaşardım!,- deyə o, həmişə zarıyırdı.

Bir qoca daşyonan onun evinin yanından keçəndə oğlanın sözlərini eşidib dedi:

-Sən nədən şikayətlənirsən? Sən ki böyük dövlət sahibisən!

-Mən dövlət sahibiyəm?-deyə oğlan təəccüb elədi,

- Bəs hanı?

-Sənin gözlərin. Sən bir gözünün əvəzinə nə almaq istərdin?- deyə qoca ondan soruşdu.

-Sən nə danışırsan?! - deyə oğlan təşvişlə ona cavab verdi.

-Mən gözümü heç vaxt xəzinəyə dəyişmərəm.

-Yaxşı, - deyə daşyonan sözünə davam etdi.

-Onda gəl əllərini ver, kəsilsin, əvəzində sən **çoxlu** qızıl alarsan!

-Yox, mən əllərimi qızıla **satmaram**, -deyə oğlan cavab verdi.

Daşyonan dedi:

-İndi görürsən ki, sən necə dövlətlisən, bəs nə üçün şikayətlənirsən?

Mənə inan, insan üçün ən böyük dövlət **qüvvət** və sağlamlıqdır. Bunları heç bir pulla almaq olmaz!

Qoca bunu deyib öz **yoluna davam etdi.**

***(türk nağılı)***

**Sual və tapşırıqlar**

**Cavablandırın**

1. Cavan oğlanın məqsədi nə idi?
2. Mətnin hansı hissəsi sizin üçün ibrətamizdir?
3. Cavan oğlanın fikrinə münasibətiniz necədir?

**Tapşırıq №1.** Mətnin neçənci hissəsində aforizmlərə rast gəlmək olur? Həmin aforizmləri seçib lüğəvi mənalarını öyrənin.

**Tapşırıq №2.** Düzgün tələffüzü verilmiş aşağıdakı sözləri orfoqrafiyaya uyğun şəkildə yazın.

***zamannarda, böyü[x'], deyip-gülüp, şikayətdənirsən, dövlətdisən, sağlamlıxdır, bunnarı, pulnan, almax.***

**Tapşırıq №3.** Mətndə fərqləndirilmiş sözlərin sinonim qarşılıqlarını tapın. Onların leksik mənalarını izah edin.

## Məşğələ 14

## MƏTNİN OXUSU, TƏHLİLİ VƏ ƏZBƏRLƏNMƏSİ İLƏ ƏLAQƏDAR ÖYRƏNİLMİŞ SÖZ BİRLƏŞMƏSİ VƏ İFADƏLƏRİN İZAHI.

Bədii əsərdəki ifadə və cümlələri mexaniki olaraq əzbərləmək onların məzmununu dərk etməyə kömək etmir. Bunun üçün hər bir ifadənin, hər bir cümlənin məzmun və quruluşunu təhlil etmək zəruri şərtlərdəndir. Təhlil cümlədə işlənən yeni sözün (və ya sözlərin) izahından başlanmalıdır, sonra digər söz, ifadə və frazeoloji birləşmənin məzmununu aydınlaşdırmaq lazımdır.

### Türklərin qədim dastanı

Günorta bir-iki saat istirahət etdik. Hamımız əyninə sarı köynək geymiş Murad babadan bir şey xahiş etmək istəyirdik. O, çox məlumatlı adam idi. İndi də ondan qədim türk dastanları haqqında yeni bir məlumat öyrənmək istəyimizi başa düşdü. O dedi:

- Türklərin qədim dastanlarından biri "Alp Ərtonqa"dır. Bizim borcumuz tariximizi dərindən öyrənməkdir. Bu dastan da tariximizi öyrənməkdə bizə kömək edir. Dastanda göstərilir ki, İrana Mənüçöhr, Turana (türk ölkəsinə) Alpın atası Peçenq başçılıq edir. İranın məqsədi Turanı almaqdır. Turanın məqsədi

isə düşməni əzməkdir.Türk olan Barmanla İran sərkərdəsi Qubad vuruşur. Türk qələbə çalır.

Kabil ölkəsinin şahı Zal, (sonra) onun oğlu Rüstəm İrana kömək edir. Keykavus İran şahı olur və oğlu Siyavuşla Rüstəmin arasını vurur. Siyavuşun məqsədi türklərə kömək etmək idi. O, türk qızı ilə evləndi və ondan Keyxosrov adlı oğlu oldu. Keyxosrov böyüdü, şah oldu və Tunqanı hiylə ilə öldürdü.

Əbülqasim Firdovsinin "Şahnamə"si XI əsrdə həmin dastan əsasında yazılıb.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Türklərin daha hansı dastanları haqqında məlumatıınz var?
2. Keyxosrov kim idi və Tunqanı necə öldürdü?
3. "Alp Ərtonqa" nın əhəmiyyəti nədir?
4. Əbülqasim Firdovsiyə dair bilginiz varmı?

**Tapşırıq №1.** Düzgün tələffüzü yazılışından fərqlənən sözləri seçib yazın və fonetik tərkiblərini müqayisə edin.

**Tapşırıq №2.** Mətni köçürün və ədəbi tələffüz qaydaları əsasında oxuyun.

**Tapşırıq №3** Leksik mənasını bilmədiyiniz sözləri ayırın və müəllimin təcrübəsi, yaxud izahlı lüğət əsasında məzmunlarını öyrənin.

## Məşğələ 15

## ANALOJI YOLLA CÜMLƏ QURMA VƏRDİŞLƏRİNİN YARADILMASI.

Hər bir **i**nsan zəif bildiyi qeyri-ana dilində fikir söyləyərkən öz ana dilinin cümlə quruluşuna əsaslanırsa, artıq analoqiya (bilmədiyi bir dildə danışarkən öz ana dilindən gizli istifadə) səhv istiqamət alır və o, müxtəlif səhvə yol verir. Çünki dillərin

qrammatik quruluşu müxtəlifdir. Odur ki, analogiyadan (gizli yolla cümlə qurmadan) mexaniki deyil, şüurlu surətdə istifadə edilməlidir.

Cəmiyyətin müxtəlif sahələrində: əyləncə mərkəzlərində, təhsil müəssisələrində, dükanlarda, eləcə də nəqliyyat vasitələrində bir-biri ilə ünsiyyət qurarkən daha çox diqqətli olmaq lazımdır. Öz dilinin qrammatik quruluş xüsusiyyətlərini əcnəbi dilə tətbiq etmək böyük ünsiyyət xətalarına səbəb olur.

Şifahi nitqin inkişafı əsasən dialoji nitq şəraitindəki ünsiyyətlə dinamik xarakter alır.

**Anamın kitabı**

**Rüstəm bəy** (durur ayağa) - Həzarat, il hesabı barəsində keçən zasedaniyada bir qədər raznoreçiye oldu. Bu da o barədə idi ki, smetanın bir para punktlarında bir qədər təfavüt görsəndi və özgə cür də ola bilməzdi. Səbəb bu ki, mədaxil oldu, məxaric oldu, onun bəzi yerlərini biz məhz priblizitelno təyin edirik...

**Aslan bəy** (durur ayaga, Gülbahar diqqət ilə baxır)- Heç belə deyil; bağışlayasınız. Zakon bu sluçayları tamamən, predusmatret eləyiblər. Əgər raznoreçiyə elə bir sluçayda oldu ki, onu mədaxil cərgəsində olan punktlar düz gətirmədi, o vədə smetni statyaları o qədər sokratit edirlər ki, il axırında hesab düz gəlir...

**Senzor** ( bir-bir kitabları alır əlinə, baxır )

- Xub, bu nədir? Bəli, kitab dər bəyani küsufi-küllü, yəni günün tamam tutulmağının duaları (polis məmuru yazır). Kitab dər bəyani-əhvalati-küsufi-cüzi, yəni günün yarımçıq tutulmağının əhvalatı... Bağışlayasınız, sizin sənətiniz nədir?

**Mirzə Məhəmmədəli** - Bən də xüsub və küsuf duası yazıram. Özüm də cəmiyyəti - xeyriyyədə elmi-ilahi müəllimiyəm...

***(Cəlil Məmmədquluzadə)***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Cəlil Məmmədquluzadə kimdir?
2. " Molla Nəsrəddin " jurnalı haqqında eşitmisinizmi?
3. Mətndə adları çəkilən qardaşların nitqlərində hansı nöqsanları müşahidə etdiniz?

**Tapşırıq №1** Mətni diqqətlə oxuyun. Oradakı sözləri canlı danışıqda işlənən və işlənməyənlər başlıqları altında iki qrupa bölün. Neologizmləri müəyyən edin.

**Tapşırıq №2** Azərbaycan dilində dialoq qurun. Nitqdə işlətdiyiniz cümlələri qrammatik quruluşu baxımından ana dilinizlə müqayisə edin, fikrinizi müəllimə şərh edin.

**Tapşırıq №3** Mənası çətin başa düşülən lüğəvi vahidləri seçin və onları lüğətdən istifadə etməklə izah edin .

"Ana dilinin saflığını qorumaq hamının borcudur" mövzusunda təqdimat hazırlayın.

## Məşğələ 16

## ANA DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ

Ana dilindən Azərbaycan dilinə tərcümə zamanı ana dilinin təsiri altına düşmək bir çox yanlışlıqlara səbəb ola bilər. Bunun üçün tələbələr öz ana dilində fikirləşsələr də,nəzərdə tutulan məzmunu ifadə etmək üçün Azərbaycan dilinin leksik və qrammatik imkanları mütləq nəzərə alınmalıdır. Bu cür zehni əməliyyat əsasında tələbələrdə Azərbaycan dilində fikirlərini ifadə etmək vərdişləri formalaşır.Qarşıya çıxan çətinliklər əsasən lüğət ehtiyatının (həm ana dilində, həm də Azərbaycan dilində ) zəifliyi,çoxmənalı sözlərin hərfən tərcüməsinin mümkün olması və dillərin sintaktik quruluşları baxımından müxtəlif olmasıdır.

Bu qüsurların tədricən aradan qaldırılması üçün bu növ tərcümələrdən məşğələlər zamanı ardıcıl və sistemli şəkildə faydalanmaq zəruridir.

## Alimin kəşfi

Bir dəfə dünyanın görkəmli fizika alimləri Kembric universitetinə toplaşmışdılar. Onlar öz kəşfləri haqqında danışmalı,gördükləri işlər barədə bir-birinə məlumat verməli idilər. Çoxları danışdı. Axırda sözü professor Deviyə verməli oldular.

-Mən sizə deməliyəm ki,mənim ən böyük kəşfim burada əyləşən şəxslərdən biridir-gənc alim M.Faradeydir! 1812-ci ildə onunla bir kənddə tanış oldum,gördüm ki,çox bacarıqlı uşaqdır.Mən Faradeyi hələ 13 yaşında ikən öz yanıma işə dəvət etməli oldum.17 yaşında ona müstəqil elmi iş verdim.İndi onun böyük kəşfləri ilə sizi tanış etmək istəyirəm...

İngilis fizikşünası M.Faradey elektrotexnika sahəsindəki kəşfləri ilə yanaşı, kimya sahəsində də az iş görməmişdir. Belə ki, ilk dəfə xloru mayeləşdirən məhz M. Faradey olmuşdur. Faradeydən soruşanda ki, siz belə böyük nəticələrə necə nail olmuşsunuz? O cavab vermişdi: "Mən ardıcıl və ciddi şəkildə işləyirəm, aldığım nəticələri ümumiləşdirərək qısa və dürüst şəkildə çap etdirirəm.Bütün sirr bundan ibarətdir."

"Fiziklərin padşahı" adlandırılan M.Faradey 66 yaşında beyin damarlarının iflici nəticəsində dünyasını dəyişmişdir.

**Sual və tapşırıqlar**
**Cavabalandırın:**

1. Fizika alimləri Kembric universitetinə nə üçün yığışmışdılar?
2. Sizcə ən maraqlı çıxışı kim etdi ?

3. Əgər professor Devi Faradeyi "kəşf" etməsəydi elm nə itirərdi ?

**Tapşırıq№1.**Aşağıdakı şeirin məzmununu Azərbaycan dilinə tərcümə edin.

Из песен остается на века
Скорее песня то, што коротка.

Порой навечно людям остается
Короткая, но мудрая строка.

В коротком слове мудрость к нам провьется,
Хотя век назад слетела с языка.

**Tapşırıq №2.** Milli ədəbiyyatınıza mənsub ixtiyari bədii əsərdən (şeir, nəsr, dram) parçaları dəftərinizə yazın və onu Azərbaycan dilinə tərcümə edin.

**Tapşırıq №3.** Üzərində işlədiyiniz mətnlərdən mənasını başa düşmədiyiniz sözlərin Azərbaycan dilində lüğətini tərtib edin və mənalarını öyrənin.

## Məşğələ 17

## DEFORMASİYA EDİLMİŞ CÜMLƏLƏRİN BƏRPASI HESABINA NİTQİN İNKİŞAFI

Mətnin deformasiya olunması (müxtəlif şəkildə dəyişikliyə uğraması) iki formada aparıla bilər:

1. Cümlədə sözlərin sırasını dəyişməklə (şeirlərin inversiyası istisna təşkil edir).

2. Abzasların yerini dəyişdirmək yolu ilə .

Birinci halda məqsəd tələbələrə Azərbaycan dilində cümlə qurmağı, ikinci halda isə mətndəki məntiqi baxımdan məzmun ardıcıllığını öyrətməkdir.

Bununla belə hər iki qrammatik əməliyyat elə həyata keçirilməlidir ki, mətnin məzmun və ideyasına xələl gəlməsin.

## Qızılgülün tikanı

Qədim zamanlarda Şirvan mahalında Sübhan adlı bir bağban vardı. O, gül-çiçəyi çox sevər, qızılgülə isə xüsusi məhəbbət bəsləyərdi. Ancaq qızılgül açılan kimi gecə kimsə gəlib onu dərib




aparardı. Bir gün oğrunu tutmaq üçün Sübhan kişi bağda keşik çəkməyi qərara alır. Gecə keçir, lakin oğrudan səs-səmir çıxmır. Səhərə yaxın Sübhan kişi təzəcə yuxuya gedəndə nəriltiyə diksinib gözünü açır və diqqətlə ətrafına baxır. Buynuzlu bir divin açılmış gülləri dərdiyini görür.

Ertəsi gün Sübhan kişi bu əhvalatı dünyagörmüş bir qocaya danışır. Qoca onu arxayın edib dərdinə çarə tapılacağını söyləyir.

Səhər Sübhan kişi bağa gələndə görür ki, kolların üstü qızılgüllə doludur.Yaxınlaşıb birini dərmək istəyərkən nə isə əlinə batır. Diqqət edib görür ki, qızılgülün budaqlarında tikan var. Başa düşür ki, bu,qocanın işidir. Təəssüf edir ki, tikanın ətirli güllə bir kolda bitməsi heç yaxşı olmadı. Deyirlər ki, o vaxtdan qızılgül tikanlı qalıb.

***(Hüseyn Abbaszadə)***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Sizcə, digər gül-çiçəklə müqayisədə insanların qızılgülə xüsusi məhəbbət bəsləməsinin səbəbi nədir?

2.“Qızıl gül”, yoxsa “qırmızı gül” ifadəsinin hansı doğrudur?
3. Mətndə hansı məqamlar diqqətinizi daha çox cəlb etdi?

**Tapşırıq №1.** Verilmiş sözlərdən və söz birləşmələrindən uyğun gələnini sualların yerində işlətməklə cümlələr düzəldib yazın.

Suallar: hansı? nə? nə etdi?
Sözlər: çalındı,zəng,axırıncı
Suallar: nə qədər? kim? harda? nə etdi?
Sözlər: auditoriya,bir neçə, qaldı,tələbə
Suallar: nə vaxt? necə? nə ilə? Nə etdilər?
Sözlər: qayıtdılar,dolu,bir azdan sonra,vedrə ilə

**Tapşırıq №2.** Verilmiş cümlələrdə sözlərin sırasını bərpa edib yazın.

Boşaldı həyət. Bitdi təntənə. Yığışdırıldı pilləkən üstündən xalı-xalçalar, gül-çiçəklər. Çəkmirdi Pərvanə xanımın gözlərini Şərəf kişi üzündən. Cavab əsas gözləyirdi intizarına. Sınmışdır ümumi davranışdan bu ki, duyurdu. Deyildi ancaq kifayət bu.

***(Vidadi Babanlı “Qəribə Eşq”dən parça)***

**Tapşırıq №3.** Özünüzdən yarımçıq və söz sırası pozulmuş dialoq qurun. Onu dəftərinizə köçürüb qüsurları aradan qaldırın.

## Məşğələ 18

## CÜMLƏNİN TAMAMLANMASI VƏ GENİŞLƏNDİRİLMƏSİ ÜZRƏ ÇALIŞMALAR.

Cümlə qurmaq vərdişlərinin inkişaf etdirilməsi aşağıdakı üsullar əsasında aparıldıqda daha keyfiyyətli nəticə alınır:

1. Şəkil əsasında cümlənin tamamlanması və genişləndirilməsi
2. Şəkillərə baxmaqla verilmiş sual əsasında cümlə qurmaq üzərində iş.

3. Sualların köməyi olmadan şəkillərə baxmaqla cümlələr düzəltmək.

4.Mətnin hər hansı hissəsində (abzasında) cümlənin tərkibindəki sözlərdən,ifadələrdən bir və ya ikisini çıxarıb onların yerinə nöqtələr qoymaq və nöqtələrin yerini uyğun sözlərlə doldurmaq tələbi ilə cümlələrin tamamlanması.

**Kağız haqqında nə bilirsən?**

Gənc dost! Məşhur "Braun" asma körpüsündən, "Zeyms yeraltı tunelin, dəmir boruların, uçduğumuz təyyarələrin, gəzdiyimiz müxtəlif... avtobusların ilk..., eləcə də bəzi qida növlərinin və s. daha nələrin insanların ... ilhamlanaraq yaratdığını bilirsinizmi? Belə təbii ... biri hesab olunan kağızın istehsalı tarixinə ... İlk kağız nümunəsini təqribən 2000 il bundan əvvəl Çin məhkəmə işçisi olan Tsay Lun adlı bir məmur icad etmişdir. O, icad etdiyi kağızın ilk nümunəsini ölkənin imperatoru Xo Diyə təqdim etmişdir. Tarixi sənədlərdə o da dəqiq qeyd olunur ki, imperator buna görə onun vəzifəsini yüksəldib, zadəgan rütbəsi vermişdir.

Çin dövləti uzun müddət kağız hazırlamağın sirrini dövlət sirri elan edib gizli saxlayırdı. Əslində, insanlar hələ eradan əvvəl 3500-cü illərdə üzərində yazı yazmaq mümkün olan müxtəlif əşyalardan (daş, ağac gövdəsi, gil lövhə) istifadə edirdilər.

Lakin bir müddətdən sonra mətbəənin meydana gəlməsi kağıza olan ehtiyacı birə-beş artırdı. Ancaq Tsay Lunin icad etdiyi üsulla kağız istehsal etmək çox vaxt aparırdı.Üstəlik ... xammal tapmaqda çətinlik yaradırdı.

XVIII əsrin əvvəllərində fransız alimi Renede Remo meşədə gəzərkən bir arı pətəyi gördü. Arılar yuvalarında olmadığı üçün diqqətlə pətəyə tamaşa etməyə başladı. Qəribə də olsa, pətək kağızdan düzəldilmişdi. Remo təəccübləndi. Görəsən, arılar bu pətəyi necə düzəltmişdi? Ya da arılar insanların bilmədiyi nəyi bilirdilər?

Əslində ... çox sadə idi. Qısa bir müşahidədən sonra Remo gördü ki, arılar nazik budaqları və çürümüş kötükləri gəmirir və ağızlarında mədə şirələri, selikləri ilə qarışdıraraq pətəklərini düzəltməkdə istifadə edirlər. Remo arıların həzm sistemini də tədqiq edərək öz kəşfini 1179-cu ildə Fransa Kral Akademiyasına təqdim etdi. İlk kağız dəzgahı isə 1798-ci ildə kəşf edildi. Beləliklə, insanların çoxəsrlik yazı mədəniyyəti, "pozusu" olmayan...qorunmaqdadır.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Sizcə,mətnin əsas ideyası nədir ?
2. Kağızın istehsalı insanlara nə verdi? Həyatda gördüyünüz faktlarla fikrinizi əsaslandırın.
3. Debat. Gündəlik həyatımızı kağızsız (yazısız) təsəvvür edə bilərikmi?

**Tapşırıq №1.** Təsəvvür edin ki, qarşınızda universitet şəkli vardır. Bu zaman müəllim həmin şəkillə əlaqədar belə bir cümlə yazır: "tələbələr həyətdə gəzişirlər". Təsəvvürünüzdə canlandırdığınız "universitet həyəti" şəklindəki təəssüratlarınız əsasında həmin cümləni genişləndirin.

**Tapşırıq №2.** Deyək ki,qarşınızda bir neçə insanın bağçada işləməsini canlandıran bir rəsm durur.Bu şəkillə bağlı müəllim belə bir sual verir: kimlər? harada? nə edirlər? Həmin suallara əsasən rəsmdə gördüklərinizi cümlə düzəltməklə ifadə edin.

**Tapşırıq №3.** Mətndə nöqtələrin yerinə qara hərflərlə verilmiş sözlərdən uyğun gələnini əlavə etməklə cümlələri tamamlayın.

***Kağızlarda, möcüzələrdən, hər şey, kifayət qədər, nəzər salaq, markalı, təbiətdən, modellərinin***

## Məşğələ 19

# CÜMLƏNİN YENİDƏN QURULMASI İŞİNƏ AİD MƏTN ÜZƏRİNDƏ TAPŞIRIQLAR

**Vasitəsiz nitq -** başqasının söylədiklərini heç bir dəyişikliyə yol vermədən, cümlənin qrammatik quruluşunun belə saxlanılması şərti ilə verilməsinə deyilir.

**Vasitəli nitq** – başqasının nitqinin yalnız məzmununun çatdırılmasına deyilir.

Oxunmuş mətnin məzmunu nağıl edilərkən əksər hallarda tələbələr şəxs və zamanları dəyişməklə özləri müstəqil cümlə qururlar. Belə dəyişmələr müəyyən tapşırıqlar əsasında aparıla bilər. Əgər mətndə vasitəsiz nitq vardırsa müəllimin tapşırığı ilə tələbələr onu öz sözləri ilə, özlərinin qurduqları müstəqil cümlələrlə (vasitəli nitq əsasında) ifadə edirlər.

Mətndəki iş və hadisə I şəxsin dili ilə verilibsə, müəllim onu III şəxsin adı ilə verməyi tapşırır.Yaxud həmin hadisə əgər keçmiş zamanda göstərilirsə, müəllim onu indiki və ya gələcək zamanla əvəz etməyi göstəriş verir.

### Təmənnasız yaxşılıq

Şotlandiyada Fleminq adlı kasıb bir kəndli yaşayırdı. Bir gün Fleminq yenə tarlada işləməyə çıxmışdı. Bu vaxt dəhşətli bir səs eşitdi. Tez səs gələn tərəfə getdi. Bir uşaq tarlanın yaxınlığındakı bataqlığa batmışdı. Uşaq bir tərəfdən bataqlıqdan çıxmağa çalışır,digər tərəfdən də xilas olmaq üçün kömək istəyirdi. Çox keçmədi ki, Fleminq uşağı bataqlıqdan xilas etdi ...

Ertəsi gün Fleminqin evinin qarşısında bir maşın dayandı. Maşından səliqəli geyinmiş varlı bir adam düşdü. Bu, dünən Fleminqin xilas etdiyi uşağın atası idi. Adam təşəkkür dolu bir təbəssümlə kəndliyə baxırdı. Sonra da, “ Siz mənim oğlumu xilas etdiniz. Bunun əvəzində sizə bir yaxşılıq etmək istəyirəm”, - dedi. Bu vaxt qapıda kəndlinin kiçik oğlu göründü.

- “Bu sizin oğlunuzdur ?” - deyə varlı adam soruşdu. “Bəli”, - deyə cavab verdi. Varlı adam davam etdi: “Gəlin, sizinlə bir şərt kəsək. Siz oğlunuzu mənə verin.Mən də ona dünyanın ən yaxşı məktəblərində oxumaq üçün kömək edim. Əgər o da atası kimi məğrurdursa, gələcəkdə dünyanın ən böyük adamı olacaq”. Kəndli bir söz demədi.

Aradan illər keçdi Fleminqin oğlu Londonda tibb fakültəsində məzun oldu. Çox keçmədi ki, o, pensilini kəşf edən Aleksandr Fleminq kimi tanındı.

Bir gün varlı adamın oğlu sətəlcəmə tutuldu və onu Aleksandr Fleminqin kəşf etdiyi pensilin xilas etdi.

Yəqin ki, siz də o varlı adamın və oğlunun kim olduğunu bilmək istəyirsiniz ? Elə isə tanış olun: ata Lord Randolf Çörçill, oğul Winston Çörçill…Məhz həmin oğlan - Winston Çörçill uzun müddət İngiltərənin baş naziri olmuşdur.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Fleminq oğlunun təhsil almasına yardım etmək təklifinə nə üçün razılıq verdi ?
2. Aleksandr Fleminq pensilini kəşf etməklə yalnız varlı adamın oğlunumu xilas etdi ?
3. Yaxşılıq et, balıq bilməsə də, Xaliq(yaradan) bilər” ifadəsini necə başa düşürsünüz ?

**Tapşırıq №1.** Mətni diqqətlə oxuyun. Vasitəsiz nitqi tapıb vasitəli nitqə çevirin. Nə dəyişiklik baş verdiyini müəyyənləşdirin və şərh edin.

**Tapşırıq №2.** Verilmiş sözlərdən istifadə etməklə geniş cümlələr düzəldib yazın.

***1. 15 sentyabr gəlmək. 2. Dərs başlamaq. 3. Auditoriya canlanmaq. 4. Həyət dolmaq. 5. Zəng vurulmaq. 6. Mühazirə dinləmək və s.***

**Tapşırıq №3.** Cümlələri məzmununa uyğun olaraq şəxsə və zamana görə dəyişdirib mətni dəftərinizə köçürün.

...Mən qabağa yeriyib dedim:

- Qasım əmi! Bu qayda hər dövlətdə var, uşaqların adlarını metrik dəftərinə salırlar ki, lazım olan vaxt hər birinin yaşı məlum olsun.

Elə bil Qasım əmiyə bir güllə dəydi, ayağa qalxıb hirslə əlini döşünə çırpıb dedi:

- Mən özüm mütrüb dəftəri. Hər kəsin sinnini bilmək istəyirsiniz, məndən soruşun!

- Bax bu uşaq Qorga Mələyin nəvəsidir, gün tutulan ili anadan olub.

- Bu uşaq ilan qırxan Səfdərin oğludur; çəyirtkə taxılları tərk eləyən ili doğulub... daha kimi soruşursunuz, deyim. Mütrüb dəftəri nəyə lazımdır?

**( Əbdürrəhim bəy Haqverdiyev**
**"Mütrüb dəftəri" hekayəsindən hissə)**

## Məşğələ 20

## DEFORMASİYA OLUNMUŞ MƏTNİN BƏRPASI ÜZƏRİNDƏ İŞ.

İkinci dilin öyrənilməsində bu üsulun böyük əhəmiyyəti vardır. Zəngin lüğət ehtiyatına malik olmaq bu metodda zəruri şərtlərdən sayılır.

Deformasiya olunmuş cümlələrdə sözlərin yenidən düzgün sıralanması vərdişlərinə yiyələnmək üçün bir çox ardıcıl çalışmalardan istifadə etmək olduqca faydalıdır.

**Eldar**

...Oxu bu naməni, əzizim Eldar!
Qoy mənim dərdimi dinləsin dağlar.
Bir tərlan... qəlbi xəstəyəm,
Bir... bülbüləm, daş qəfəsdəyəm.
Əzizim! Saldılar məni zindana,

Şəriət dillərdə oldu bəhanə
Gəl..., ... bu daş qəfəsi.
Ölməsin şairin həqiqət ...
Sən də qurtarmasan ... dardan
... umacağım pərvərdigardan

**Qoca**

Buyur! Misri ... deyərlər buna,
Sadiq yaşamışdır ...
Böyük ... qamış yadigar,
Budur, dəstəsində barmaq yeri var.
Al oğlum! Göz üstə ... sən bunu,
Yaşat ürəyində qoç Koroğlunu.
Sənə bata bilməz nə ..., nə ...,
Yalnız yoxsulların eşqi ilə yaşa!
Vur! Vuran əllərin görüm var olsun.
Qacarın başına dünya dar olsun!

***Səməd Vurğun ("Vaqif" dən parça )***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Səməd Vurğun haqqında nə bilirsiniz?
2. Koroğlu kim olub?
3. Misri qılınc dedikdə nə barədə düşünürsünüz?

**Tapşırıq №1.** Verilən sözlərdən uyğun gələnini nöqtələrin yerinə qoymaqla mətndəki cümlələri tamamlayın.

***xəyallı, şeyda, Koroğludan, yoxdur, qılınc, ana yurduna, xan, paşa, saxta, Vaqifi, parçala, səsi, dağıt.***

**Tapşırıq №2.** Verilmiş cümlələrdə sözlərin sırasını bərpa edib yazın.

… Uzanmışdı Vüqar arxası üstə. Başaltı özünə əllərini eləyib xəyala dalmışdı bayaqdan Atmacasına laqeyd qala Cövdətin bilmədi, gözlərini hisli tavandan yol çəkən endirib asta-asta süzdü sakit nəzərlərlə bir dəqiqə dostunu düşüncəli- düşüncəli dedi:

- Bu məsələ şəhərdə gələr vaxt tapar həllini öz, baxmazlar orda da kimi tüstüyə düşmən…

***( Vidadi Babanlı " Vicdan susanda" romanından bir parça )***

**Tapşırıq №3.** Sağ sütundakı sözlərdən uyğun gələnini sol sütundakı sözlərə əlavə edərək cümlələr düzəldib yazın.

| | |
|---|---|
| Məzəmmət təsirsiz | üstünə dönüb,yerinə qayıtdı |
| Şəfəq müəllimə dabanları | qalmadı |
| Stulunu yana çəkərək, | zərfi qətiyyətlə onun qabağına qoydu |
| Pərvanə xanım | bir qədər gendə əyləşdi. |

**Məşğələ 21**

## YARIMCIQ DİALOJİ NİTQİN BƏRPASI ƏSASINDA NİTQİN İNKİŞAFI

**Dialoq sözü** mənşəcə yunan dilinə mənsub olub, bir neçə nəfərin oz aralarında danışığı mənasını bıldirir. **Monoloqda** bir nəfər danışır, digərləri isə qulaq asırsa, dialoqda danışıq iştirak edənlər arasında baş verir.

**Dialoji nitqdə sual-cavab forması əsas rol oynayır.** Dialoji nitq prosesində mimika və jestlərdən olduqca aktiv formada istifadə edilir və bunlar fikrin daha canlı, təsirli və asan anlaşılmasını təmin edir.

**Dialoqda sual cavabların tərəflərini replika təşkil edir.** Yazılı nitqdə replikalar təzə sətirdən başlanır və əvvəlində tire

işarəsi qoyulur. **Dialoqda iştirak edən hər bir şəxsin danışığına replika deyilir.**

**Vaqif**
**( daxil olur və xana məktubu uzadaraq )**
Qacara yazdığım ..., alın.
... gozləyir, tez yola salın.

**İbrahim xan**
Vəzir.

**Vaqif**
Dinləyirəm.

**İbrahim xan**
Qarışır zaman
... bütün xaniman.

**Vaqif**
Çox dedim ... baxmadınız siz,
Dedim ki, ... qalmaz əvəzsiz.
Bu dünya boş deyil, öz qanunu var.
Elin qüdrətinə ...baxanlar,
Əlbəttə basılar ...

**İbrahim xan**
**(hiddətlə)**
Basılır ... Sən, sən ...
Xeyir söz çıxmayır yenə dilindən.

**Vaqif**
**( şeyxəcə işarə ilə )**
Çünki sözlərimdə doğruluq vardır,
... - yaltaqlar və oğrulardır.

Sizi ... ağır yuxular,
Hücuma hazırdır Məhəmməd Qacar.

**İbrahim xan**
**(Vaqifin yazdığı cavabı oxuyaraq)**

Çox gözəl ... iti bir bıçaq,
Qacarın ... parçalayacaq.
Mənim qeyrətimi çəkirsən, demək?

**Vaqif**

Elimiz qoçaqdır ... , əl çək.
Hələ yaranmamış həyata əvəz,
Həyatın ... düşünün barı.
Dünya naz götürüb yaşada bilməz
Onunla ... oynayanları.

***( Səməd Vurğun " Vaqifdən bir parça )***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Vaqifin dilindən deyilənləri qarşı tərəfin söylədikləri ilə müqayisə etsəniz hansı nəticəyə gələrsiniz?

2. Hansı fikir ibrətamizdir?

3. Ağa Məhəmməd xan Qacar haqqında nələri öyrənmisiniz? (Əvvəlki paraqrafları xatırlayın )

**Tapşırıq №1.** "Muzeydə", " Universitetdə", "Metroda" və s. başlıqları altında dialoji nitq qurun, dialoqun bir tərəfini yarımçıq saxlayın. Yarımçıq qalan replika yerini parta yoldaşınız tamamlasın, sonra müzakirəsini keçirin.

**Tapşırıq №2.** Mətndə nöqtələrin yerinə aşağıda verilən söz və ifadələrdən uyğun gələnini yazmaqla replikaları tamamlayın.

***gizlənpaç, cavabdır, qədrini, elçilər, zülümdən, ruhuma dar gəlir, hər sözün, sözümə, yatırmasın, lovğa, yalançı.***

**Tapşırıq №3**. İstədiyiniz dram əsərindən 2 səhifəlik dialoji nitq hissəsini götürün. Replikaların birini mənbədən fərqli özünüz uyğunlaşdırıb yazın.

## Məşğələ 22

## TƏRTİB EDİLMİŞ MƏTNDƏ CAVABI BURAXILMIŞ SUALLARA CAVABLARIN BƏRPASI.

Suallara cavab nitq inkişafı məşğələlərində ən geniş tətbiq edilən metodlardan sayılır. Müəllim dərsin məqsədi, məzmunu, aktuallığı ilə bağlı tələbələrdən müəyyən suallara cavab tələb edir ki, bu da onlarda müstəqil düşünmə və cümlə qurma vərdişlərinin formalaşmasında böyük rol oynayır. Yaxud tələbələrin bir-biri ilə debat üsulu şəklində məşğələlərdə iştirakı da onların nitq vərdişlərinin inkişafına təkan vermiş olur.

Suallara cavab, eyni zamanda, lüğət ehtiyatını zənginləşdirir, sözləri şüurlu surətdə, yerində və məqamında işlətməyi öyrədir.

### Napoleon və dəri ustası

Napoleonun qoşunları çar rusiyası ilə müharibə zamanı düşmən ərazisindəki kiçik bir şəhərdə döyüşürdü. İmperator öz döyüşçülərindən ayrı düşür. Bir dəstə rus əsgəri onu görür və balaca şəhərin dolanbac küçələrində izləməyə başlayır. Həyatını xilas etməyə çalışan Napoleon dar döngələrdən birində yerləşən balaca xəz dükanına girir. Dükanın sahibini görüb qışqırır:

- Mənə kömək edin! Harada gizlənə bilərəm?

- Tez bura, dəri yığınının altına girin, - dükan sahibi deyir. Napoleon gizlənəndən sonra daha etibarlı olmaq üçün bir neçə dəri də atır.

Elə bu an rus əsgərləri içəri girir və qışqırırlar:

- Haradadır? Bura girdiyini gördük!

Dükançının etirazlarına baxmayaraq, onlar qəzəbli halda bütün dükanı axtarırlar. Qılınclarını dəfələrlə dərilərə batırırlar, amma imperatoru tapmırlar. Onlar çıxıb gedirlər. Bir azdan Napoleon dəri yığınının altından sağ-salamat çıxır. Elə bu anda onun qvardiyaçıları dükanda peyda olur. Dükan sahibi cəld ona yaxınlaşıb soruşur:

-Suala görə üzr istəyirəm, sən dahisən, amma yenə soruşum... Hər növbəti anın həyatında sonuncu ola biləcəyini anlaya-anlaya bir dəri yığının altında oturanda nə hiss edirdiniz?

Napoleon qeyzlə qışqırır:

-Belə bir şeyi məndən - imperator Napoleondan soruşmağa necə cəsarət etdin?

Qvardiyaçılar, bu həyasızı tutun,gözlərini bağlayın və güllələyin! Yaylım atəşi üçün şəxsən özüm əmr verəcəyəm !

Qvardiyaçılar yazıq dəri ustasını tutub küçəyə çıxarır və gözləri bağlı halda divara dirəyirlər. Usta görmürdü, amma qvardiyaçıların bir sıraya düzüldüyünü, atəş üçün silahlarını hazırladıqlarını soyuq havada mundirlərinin xışıltısını eşidirdi. O, soyuq küləyin paltarını oynatdığını, soyuğun iliyinə işlədiyini hiss edirdi. Dizləri əsirdi...O, Napoleonun öskürəyini və asta sözlərini eşitdi.

-Hazırlaşın..atəş!

Həyatının bitdiyi anda təsvir edilməz bir hiss onu bürüdü. Üzündən göz yaşları axdı.Araya uzun pauza çökdü. Dəri ustası yaxınlaşan addımları eşitdi,gözündən sarığını açdılar. Qəfil günəş işığı gözlərini qamaşdırsa da, Napoleonun diqqətlə onun üzünə baxdığını gördü. Bu gözlər sanki onun varlığının hər guşəsini görürdü.

Sonra Napoleon qısaca cavab verdi :

-İndi bildin?

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Sizcə, dəri ustasının sualına Napoleon düzgünmü cavab verdi?

2. Debat: Napoleon dəri ustasına nəyi başa salmaq istəyirdi? Yaxşılıq əvəzinə etdiyi hərəkət düzgündürmü ?

3. Napoleon haranın imperatoru olub?

**Tapşırıq №1.** Auditoriya ilə bağlı verilən suallara cavab verin.

Sizin auditoriyanız neçənci mərtəbədə yerləşir ?

……

Auditoriyanızda neçə tələbə var?

…….

Qrupunuzda neçə nəfər əlaçı tələbə oxuyur?

…….

Qrup iclasınız həftədə neçə dəfə keçirilir?

……

Bu dönəm hansı fənlərdən imtahan verəcəksiniz?

……

Müəllimlərinizdən razısınızmı?

…….

**Tapşırıq №2.** Yuxarıdakı mətni dialoji nitq şəklinə salıb, dəftərinizə yazın.

**Tapşırıq №3.** Mətni diqqətlə oxuyun. Sualların cavabını mənbədən fərqli uyğunlaşdırıb özünüz dəftərinizə yazın.

**Xosrov**

...Hardansan cavan?

**Fərhad**

Dost diyarından

**Xosrov**

O hansı diyardır?

**Fərhad**

Orda qəmi alıb,canı satırlar.

**Xosrov**

Canı satmaq heç ədəb deyil.

**Fərhad**
Aşiqlərə bu əcəb deyil.
**Xosrov**
Yaralasa gözünün birini əgər?
**Fərhad**
O birini də verərəm gedər.
**Xosrov**
Qədəm qoycan otağına
**Fərhad**
Baş qoyaram ayağına...

## Məşğələ23

## DİNLƏNİLMİŞ MƏTNƏ ƏVVƏLKİ ADINA UYĞUN YENİ AD VERMƏK

Oxunmuş mətnə ad vermək əsasən iki üsulla mümkündür :

A) Birincisi, mətnin məzmununa uyğun plan hazırlamaq.

B) İkincisi, məzmunla bağlı öyrənilənləri sual cavab (debat) şəklində möhkəmləndirmək.

Verilən çalışmalar mətnin məzmununu əhatə etməlidir. Yalnız bu yolla müstəqil fikir söyləmək və düzgün cümlə qurmaq vərdişlərini inkişaf etdirmək olar.

### Azərbaycan təbiəti

Azərbaycan təbiəti çox rəngarəngdir. Yayda yurdun bir tərəfində qar yağanda, şaxta düşəndə o biri tərəfində isti olur.

Azərbaycan təbiət etibarilə gözəlliklər diyarıdır. Azərbaycanın ərazisindən axan ən iri çaylar Kür, Araz, Samur, Alazan, Həkəri, Girdman təbiətin gözəlliyini daha da artırır.

Azərbaycanda elə bitkilər var ki, onlardan dünyanın heç bir yerində yoxdur. Burada 12 mindən çox heyvan növü vardır. Onlar yurdun sərvətidir. Bu sərvəti qoruyub saxlamaq hamının borcudur.

Təbiət gözəlliyi nəsillər üçündür, əbədiyyət üçündür. Yaşıl bir budağı kəsmək gələcək nəslə hörmətsizlikdir.

Təbiət bizim müştərək "evimiz", ümumi süfrəmizdir.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Azərbaycan təbiəti haqqında daha nələri bilirsiniz?
2. Təbiətin gözəlliyi dedikdə nəyi nəzərdə tutursunuz?
3. Azərbaycanın ərazisindən axan ən iri çaylar hansılardır?

**Tapşırıq №1.** Mətnə aid plan hazırlayın.

Öyrəndiklərinizin əsasında mətnə yeni ad verin.

**Tapşırıq №2.** Şeiri əzbərləyin, sonra nəsrə çevirib dəftərinizə yazın.

**Təbiət ilhama çağırır məni**

Yenə də yamyaşıl geyinir dağlar,
Göy kimi durulur qaynar bulaqlar,
Əriyir güneylər döşündəki qar,
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni!

Görürəm dan yeri yenə sökülür,
Göydən yer üzünə nurlar tökülür.
Zəmilər, tarlalar üzümə gülür,
Saralır gözümdə sünbülün dəni,
Bu nemət ilhama çağırır məni!

Muğana su gəlir, Milə su gəlir,
Axışıb öz eli, ulusu gəlir…
Torpağa insanın arzusu gəlir…
Bağrıma basıram ana Vətəni
Bu ülfət ilhama çağırır məni!

***(Səməd Vurğun "Muğan" poemasından parça)***

**Tapşırıq №3.** Hər kəs öz vətəni, ölkəsi haqqında Azərbaycan dilində təqdimat hazırlayıb müəllimə təqdim etsin.

### Məşğələ24

## RABITƏLİ NİTQ VƏRDİŞLƏRİNİ FORMALAŞDIRMA ÜZƏRİNDƏ İŞ

Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi "şifahi nitqin inkişafı" fənninin tədrisindən əsas məqsəd əcnəbi tələbələrdə Azərbaycan dilində öz fikrini düzgün, aydın, ardıcıl və rabitəli (məzmunun məntiqi ardıcıllığı) ifadə edə bilmək vərdişlərini formalaşdırmaqdır.

Rabitəli nitq vərdişləri oxu dərsləri ilə əlaqədar aşağdaki məşğələlər vasitəsiilə inkişaf etdirilir:

1. Müəllimin ifadəli oxusu və izahı.
2. Tələbələrin ədəbi mətnləri oxuması və məzmununu nağıl etməsi.
3. Əzbər öyrənmək və yazmaq.
4. Şəkillər üzrə iş.
5. Fikrini ifadə, inşa, esse və təqdimat şəklində bildirmək.

### "Səbir" qutusu

Onu hamı sevirdi. Qətiyyətli idi. Heç vaxt tələsik qərar qəbul etməzdi. Tələsik qərarların insanı gec-tez çətin vəziyyətdə qoyduğunu bilirdi. Ondan bu vərdişi necə qazandığını soruşanlara isə uşaqlığında baş verən bir hadisəni xatırladırdı...

Dediyinə görə o, çox çılğın bir uşaq idi. Tez özündən çıxır və təbii ki, bu vəziyyətdə qəbul etdiyi qərarlar bir qayda olaraq səhv olurdu. Bir gün atası onu yanına çağırdı, əlindəki balaca qutunu ona uzadaraq, oğlum, səndən bir xahişim olacaq. Son vaxtlar çox əsəbi görünürsən. Halbuki səni özündən çıxaran şeylərin çoxu kiçik və bəsit şeylərdir. Sənə bir təklifim olacaq. Bu qutunu al və səni özündən çixaran bir şey olanda o andakı hisslərini yazıb bu

qutuya at. Bir ay sonra qutunu aç və yazdığını oxu. Onda bir vaxt böyütdüyün məsələlərin nə qədər əhəmiyyətsiz olduğunu görəcəksən" -dedi.

O atasının dediyi kimi də etdi və hər özündən çıxanda hisslərini yazıb qutuya atdı. Ay başa çatmamış artıq qutu ağzına qədər dolu idi. Kağızların bəzilərini oxuyanda gülməkdən özünü güclə saxlayırdı. Bunlar o qədər xırda şeylər idi ki, indi özünü o vaxt cilovlaya bildiyi üçün şükür edirdi. Əslində, gənc dostlar, bizim də bir qutumuz ola bilər. Məktəb vaxtı bu qutuya incikliklərimizi, umu-küsülərimizi yazıb ata bilərik. Bir az sonra bizi hövsələdən çixaran bu şeylərin bəsitliyinə özümüz də şahid olarıq.İnanın ki, bir necə il sonra bu qutuya atmağa bir şey də qalmaz...

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Mətnin hansı abzası "hirsli başda ağıl olmaz" ifadəsi ilə səslənir.

2. Atanın övladına müraciəti (tövsiyəsi) sizi qane edirmi?

3. Mətndən özünüz üçün hansı ibrəti götürdünüz?

**Tapşırıq №1.** Mətnə aid cümləlləri ardıcıllığa görə nömrələyin.

◯ - Bir gün atası onu yanına çağırdı.
◯ - Heç vaxt tələsik qərar qəbul etməzdi.
◯ - Sənə bir təklifim olacaq.
◯ - O,atasının dediyi kimi də etdi və...
◯ - Dediyinə görə o,çox çılğın bir uşaq idi.

**Tapşırıq № 2.** İzahlı lüğətdən istifadə etməklə „çılğın", „bəsit", „hövsələ" sözlərinin lüğəvi mənasını araşdırın. Sonra özünüzdən həmin sözlərin də iştirak etdiyi cümlələr qurun.

**Tapşırıq № 3.** "Əlavə oxu üçün mətnlər" bölməsindən ixtiyari bir mətni seçin. Diqqətlə oxuduqdan sonra məzmununu rabitəli nitq şəklində dəftərinizə yazın.

## Məşğələ 25

## TƏLƏFFÜZ QAYDALARI HAQQINDA

Dilin bu və ya digər təzahür növlərinə məxsus orfoepiya normalarının toplusuna **tələffüz deyilir**. Tələffüz orfoepiya anlayışından daha genişdir. Tələffüzə orfoepiyaya məxsus normalarla yanaşı, heca, vurğu və intonasiya da daxildir. Tələffüzün iki növü vardır: 1. Ədəbi tələffüz; 2. Loru tələffüz.

**Ədəbi tələffüz** orfoepik norma və qaydalarla tənzimlənən **tələffüzə deyilir**. **Loru tələffüz** isə canlı danışıq dilində, dialekt və şivələrdə istifadə edilən **qeyri-ədəbi tələffüzdür.**

### Saitlərin tələffüzünə dair bəzi qeydlər:

**1. a, i, u** saitləri Azərbaycan dilinə başqa dillərdən (ərəb, fars dillərindən) keçmiş sözlərdə bəzən uzun tələffüz edilir. Sait səsin uzun tələffüzünü bildirmək üçün qoşa nöqtədən istifadə edilir. Səsin tələffüzünü yazıda hərfdən fərqləndirmək üçün göstərilən [ ] fonetik transkripsiyadan istifadə edilir. [ə:la], [e:lan], [mö:təbər], [a:lim], [a:min], [bi:vəfa], [xəzi:nə], [ni:zə], [bi:huş], [mu:nis], [mu:siqi] və s.

**2. o** saitindən sonra bəzən **v** samiti düşür və **o** saiti uzun tələffüz olunur. Məsəıən: dovşan[do:şan], dovğa[do:ğa]. Eləcədə **ö** səsində tələffüz zamanı eyni fonetik hadisə baş verir. Məsələn: növbə[nö:bə], tövbə[tö:bə]və s.

**3. ö** ilə yazılan bir sıra sözlər **e** və **ö** ilə deyilir. Məsələn: dövlət[devlət], dövr[devr], [zövq], [gö:hər]və s.

**4.**İlk hecasındakı saiti **ü** ilə yazılan sözlər **ü,** bəzəndə **i** ilə deyilir. Məsələn: [Fizuli], [biruzə] və s.

## Bəzi saitlərin tələffüz qaydaları haqqında

1.Yazıda sonu q və k ilə bitən iki hecalı sözlərə saitlə başlanan şəkilçi və ya söz artırıldıqda q-ğ,;k-y əvəzlənməsi baş verir. Tələffüzdə isə sonu q ilə bitənlər [k`] və [x`] səsləri ilə tələffüz edilir. Məsələn:

Aşıq[x`], qaşıq[x`], qonaq[x`], natiq[k`], nitq[k`], aşiq[k`] və s.

Sonu k ilə bitənlər [x`] –yumşaq y ilə tələffüz edilir. Məsələn: ürək[x`], ipək[x`], tütək[x`] və s .

2. Söz ortasında qoşa q samitinin birincisi kar [ k`] kimi tələffüz olunur. Məsələn: doqquz [dokquz ], toqqa[ tokqa ], hoqqa [ hokqa ] və s.

3. Söz ortasında qoşa k samitinin ikincisi g kimi tələffüz edilir. Məslən: səkkiz[səkgiz], məkkə[məkgə], mürəkkəb[mürəkgəb] və s.

## Sən gündə gəlirsən

Necə olursa, Molla birisi ilə savaşır, tutub aparırlar hakimin yanına. Sən demə bir neçə gün ondan qabaq da bir məsələ üçün mollanı həmən hakimin yanına aparıblarmış. Hakim mollanı görcək deyir:

-Molla,heç sənə ayıb deyilmi? Bununla ikinci dəfədir ki, sən bu divanxanaya gəlirsən?

Molla soruşur :

-Bu divanxanaya gələndə nə olar ki ? ...

Hakim deyir:

-Necə yəni nə olar? Sən bilmirsən ki, buraya düz adam gəlməz?

Molla deyir:

-Balam? Mən ömrümdə vur-tut ikicə dəfə buraya gəlmişəm.Sən elə gündə buradasan ki.

***"Molla Nəsrəddin" lətifələrindən***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Molla Nəsrəddin kim olub?
2. Mətndə Molla Nəsrəddinin hansı keyfiyyətini müşahidə etdiniz?

**Tapşırıq№ 1.** Mətni ədəbi tələffüz qaydasında oxuyun. Uzun saitli sözləri ayırıb yazın və qarşısından nə cür tələffüz olunduğunu yazılı şəkildə göstərin.

**Tapşırıq №2.** Verilmiş sözlərdən hansının yazılışı düzgün tələffüzündən fərqlənir. Bu fərq nədədir?

***Musiqi, mötəbər, etibar, alim, teatr, həftə, möcüzə, hətta, əlbəttə, abituriyent, həftə, kərpic, qazanc və s.***

**Tapşırıq №3.** Sonu q ilə bitən on söz yazın. Yazdığınız sözlərə samitlə başlanan şəkilçi və söz artırıb oxuyun. Həmin sözlərdə "q" samitini tələffüzünü yazılı şəkildə göstərin.

## Məşğələ 26

## QOŞASAITLI SÖZLƏR VƏ ONLARIN TƏLƏFFÜZÜ

Dilimizə daxil olan alınma sözlərin (əsasən ərəb-fars mənşəli sözlərdə) əksəriyyətində iki sait yanaşı işlənir. Məsələn: saat, səadət, ailə, maaş və s. Bu cür sözlərə **qoşasaitli sözlər** deyilir. Belə sözlər iki yerə bölünür:

1. Eynicinsli qoşasaitli sözlər.
2. Müxtəlifcinsli qoşasaitli sözlər.

Qoşasaitli sözlərdə yanaşı işlənən saitlər bir uzun sait kəmiyyətində (yəni [a:]; [ə]) tələffüz olunur. Məsələn: inşaat[inşa:t]; təəccüb [tə:cüb]; təbii [təbi:i] ; bədii [bədi:i] və s.

Müxtəlifcinsli qoşasaitli sözlərdə eynicinsli qoşasaitli sözlərdən fərqli olaraq səs düşümü ilə yanaşı, səsartımı fonetik hadisəsi də baş verir.

## Az danışmağın gözəlliyi

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda
Artıq içiləndə dərd verir su da,
İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə  dünya bəzənsin.
Az sözün inci tək mənası solmaz,
Çox sözün kərpic tək qiyməti olmaz.
Əsli təmiz olan saf mirvarilər,
Suya və torpağa min bəzək vurar.
Mədənlə dolsada hər bir xəzinə,
Hər kiçik zərrəsi dərmandır yenə.
Ürəyi oxşayan bir dəstə çiçək,
Yüz xırman otundan yaxşıdır, gerçək!
Yüz ulduz yansa da göylərdə, inan,
Bir Günəşə baş əymək xoşdur onlardan.
Göydə parlasada nə qədər ulduz,
Günəşdir nur verən aləmə yalnız.

***(Nizami Gəncəvi)***

**Sual və tapşırıqlar**
**Cavablandırın:**

**1.**Şair "...Hər sözü az demək daha xoş olar" misrası ilə nə demək istəyir?

**2.** "Çox sözün kərpic tək qiyməti olmaz" fikrini necə izah edərdiniz?

**3.** "Günəşdir nur verən aləmə yalnız" misrası ilə nəyə işarə olunur?

**Tapşırıq№ 1.** Qara hərflərlə verilmiş qoşasaitli sözləri əvvəl yazıldığı kimi, sonra isə düzgün tələffüz şəklinə uyğun oxuyun.

Həmin sözlərin yazılışı ilə düzgün tələffüzü arasındakı fərqi öyrəndiyiniz qrammatik qayda əsasında yazılı şəkildə göstərin.

***Maaş, ailə, dairə, müavin, müəllim, müşayiət, camaat və s.***

**Tapşırıq№ 2.** Nailə, dairə, dialoq, müalicə, laureat, məişət, şərait və s. sözlərini cümlələrdə işlətməklə tələffüz edin. Yazılışı ilə düzgün tələffüzü arasındakı fərqi izah edin.

**Tapşırıq№ 3.** Şeiri oxuyun. Oradakı uzun saitli sözləri köçürün və hər sözün qarşısında tələffüz şəklini göstərin.

## Məşğələ 27

## QOŞASAMİTLİ SÖZLƏR VƏ ONLARIN TƏLƏFFÜZÜ

Söz daxilində yanaşı və qoşa samitlərin bir-birinə təsiri nəticəsində müəyyən səslərin düşməsi və ya digəri ilə əvəzlənməsi, fonetik şəraitə uyğun olaraq kar samitlərin cingiltiləşməsi və cingiltili samitlərin karlaşmasına səbəb olur. Əvvəlki paraqraflarda göstərdiyimiz kimi eynicinsli kar samitlərdən ikincisi karlaşır ([səkgiz], [mutəkgə], [mütəşəkgil] və s.); eynicinsli cingiltili samitlərdən isə birincisi karlaşır. Məsələn, [tapbılti], [sakqız], [gupbultu]) və s.

Qeyd: qoşa ss, dd, zz ,ll, cc və s. samitləri istisna təşkil edir, yəni bunlar tələffüz zamanı dəyişmir. Məsələn: təəssüf, təəccüb, izzət, telli, addım və s.

### Bu torpaqda izim qala

Bu torpaqda izim qala,
Naxış olam kaş daşına.
Oğul kimi arxalanam
Dönəm xalqın yaddaşına,

Bir hay verəm harayına,
Bu tayından o tayına.
Yolla dönəm-sarayına
Sinəm üstdən daş daşına.

Mən bələdəm dağ-dağ ona,
Dözəmmərəm dağ dağına.
Bir arxadı dağ,dağına
Yaraşıqlı daş,daşına.

Yaşar könlüm min həvəsdə
Sarsılmaram son nəfəsdə.
Qara daşı qəbrim üstdə
Qoy çevrilsin başdaşına.

*( Məmməd Araz )*

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Şeirin adının mənasını necə başa düşürsünüz ?

2.“Mən bələdəm dağ-dağ ona
Dözəmmərəm dağ dağına” misraları ilə şair nəyə işarə vurur?

3.“Bir arxadı dağ, dağına” misrasının mənası ilə “insan insana arxa və dayaq olmalıdır” fikri bir-biri ilə necə səsləşir? Fikrinizi şeirdə verilən nümunələrlə əsaslandırın.

**Tapşırıq№ 1.** Tərkibində qoşa qq samiti işlənən 10 söz yazın. Həmin sözlərin yazılışı ilə deyilişi arasındakı fərqi yazılı şəkildə göstərin.

**Tapşırıq№ 2.** Sözləri oxuyun və hər birinin qarşısından tələffüz şəklini yazın.

***ədəbiyyat, mahiyyət, natiq, məntiq, qurşaq, məqsəd, coğrafiya, fizika, riyaziyyat, nəzəriyyə, əlbəttə, hətta, həftə və s.***

**Tapşırıq№ 3.** Şeiri diqqətlə oxuyun. Düzgün tələffüzü yazılışından fərqlənən sözləri seçib yazın. Yazılış və tələffüz fərqinin səbəbini müəyyənləşdirin.

**Söz sonundakı samitin kar və ya cingiltili olmasını müəyyən etmək üçün sözə saitlə başlanan şəkilçi və ya söz artırılır.**

**Tapşırıq №1**. Verilmiş nümunələri oxuyun “ b” samitinin söz sonunda nə zaman karlaşdığını müəyyən edin.

***oxuyub, klub, alıb, gətirib, satıb, tapıb, çatıb, qatıb, bilib, görüb və s.***

**Tapşırıq №2**. Sonu q ilə bitən 10 söz yazın. Yazdığınız sözlərə samitlə başlanan şəkilçi və söz artırıb oxuyun. Həmin sözlərdəki q samitinin tələffüzünü yazılı şəkildə göstərin.

**Tapşırıq №3**. Yoldaşınızın ifasında verilmiş sözləri dinləyin. Hansı sözdə g samitinin k kimi deyildiyini müəyyən edin.

***pələng, tüfəng, nəhəng, ahəng, qəşəng, gecə, gündüz, genetik, geniş, əhəng və s.***

## Məşğələ 28.

## VURĞU

İki və daha artıq hecalı sözlərdə hecalardan birinin digərinə nisbətən qüvvətli tələffüzünə ***vurğu deyilir***. Azərbaycan dilində vurğunun üç növü vardır:

a) Heca vurğusu;
b) Avazlı (həyəcanlı) vurğu;
c) Məntiqi vurğu.

**Heca vurğusu** -sözün mənaca daha dəqiq təsirli ifadəsinə xidmət edir. Vurğunun yeri səhv tələffüz olunduqda sözün mənası da dəyişir. Azərbaycan dilində adətən vurğu sözün axırıncı hecasının üzərinə düşür. Alınma sözlərdə isə vurğu əsasən birinci heca üzərinə düşür.

Vurğu tələffüzlə bağlı hadisə olduğu üçün nitqin ifadəli oxusunda xüsusi rol oynayır.

**Həyəcanlı vurğu** – sözlərdə bəzi səs və ya səs tərkibinin həyəcanlı, avazlı ***tələffüzünə deyilir***.

**Məntiqi vurğu**–cümlədə, misrada bir sözün, yaxud ifadənin digərlərinə nisbətən yüksək tonla tələffüzünə deyilir.

…Həyətə çox həyəcanlı və qaçaraq düşdülər. Burada əl–ələ tutuşdular. Sanki nəsə olacağından yeni maneə törənəcəyindən ehtiyatlanırdılar.

Alaqapı səmtində addımları yavaşıdı. Üzlər, gözlər güldü. Tamaşa yüngülcə tövşəyərək, kəsik-kəsik pıçıldadı:

– Çox-çox minətdaram sənə. Məni pis adamların əlindən aldın. Bu yaxşılığını heç vaxt unutmayacam. Gecə-gündüz duaçın olacam!

Ürəyin içindən qopub gələn bu səmimi təşəkkür Əfsunu məst elədi. Umacaqlı baxışlarını tamaşadan ayırmadı. Tamaşa onu "şövqi-təbii" duydu. Əfsunu utana-utana öpdü. Ürək gizlinlərini ahəstəcə açıqladı:

–Mən səni əvvəllər xoşlamırdım, acığım gəlirdi. Sırtıq, abırsız oğlan hesab eləyirdim. Sən gözümə görünəndə hirs beynimə vururdu. …Oy, bağışla məni, necə yanılmışam! Sənə qarşı kobud hərəkətlərimin əvəzində kömək durdun. Kimsəsiz bir qızı o cürə dardan qurtardın…

Əfsun sakitcə dayanıb, zarafatla soruşdu:

–Məktəb çantasını daha başıma çırpmayacaqsan ki?! Tamaşa bekaraca qızardı:

–Yox, yox! Nə danışırsan?!...

***(Vidadi Babanlı "Zəmanə adamı"romanından parça)***

**Tapşırıq №1**. Mətni oxuyun. Vurğunun hansı heca üzərinə düşdüyünü göstərin. Həmin sözləri üç qrupa ayırın. Birinci qrupa vurğusu 1-ci hecada, ikinci qrupa vurğusu 2-ci hecada, üçüncü qrupa isə vurğusu 3-cü hecada tələffüz olunan sözləri göstərin.

**Tapşırıq №2**. Oxuyun, sözlərdə vurğunun hansı hecanın üzərinə düşdüyünü vurğu işarəsi (⌒) ilə göstərin.

**Yaxşılar (şeirindən parçalar)**

Amandı qoruyun bir–birinizi.
Qoymayın, soyuya Arazı Kürdən.
Kim atdı, kim satdı birliyimizi –
Papağı gildəndi,
Qafası küldən…

Yoxsa əl tutanın yıxanın qədər,
Qorxma, yaxşıların biri min adam!
Gəzib igidlərlə qədəmbəqədəm,
Yaxşılar ordusu yaradacağam.

Ziyasız olanlar Ziyanı dandı,
Yox üzuqarası "qara kütlənin".
Bir az gec inandım,
Yaxşı inandım:
Dilləri pis kəsmir ağlı kütlərin!
Amandı qoruyun bir–birinizi!

***(Məmməd Araz)***

**Qeyd.** ***Məntiqi vurğu hər bir nitq parçasında mövcud olan mərkəzin (mühüm olan sözün) üzərinə düşür. Məntiqi vurğulu sözün oxuda fərqləndirilməsi söz sənətkarının fikrinin çatdırılımasında ciddi rol oynayır.***

**Tapşırıq №3.** Mətnin məzmunundan, ifadə etdiyi mənadan asılı olaraq məntiqi vurğulu sözləri müəyyənləşdirin.

**Doğru cavab**

Günlərin birində Əlişir Nəvainin yanına bir sövdəgər gəlib, ondan oğluna şairlik sənətini öyrətməyi xahiş etdi.

–Bəs oğlunuzun hansı sənətə marağı var? – deyə Əlişir sövdəgərdən soruşdu.

–Oğlum da mənim kimi sövdəgər olmaq istəyir, ancaq mən istəyirəm ki, o, şair olsun.

–Əslində sövdəgərlik sənət deyil, ancaq oğlunuz bunu istəyirsə, qoyun sövdəgər olsun. Şairlik isə fəzilətdir, o, anadan gəlmə olur, onu öyrənməklə olmaz.

***(Əlişir Nəvai)***

*** "Sövdəgər", "fəzilət" sözlərinin lüğəvi mənasını kitabın sonundakı izahlı lüğətə əsasən müəyyənləşdirin.**

## Məşğələ 29.

## HECA

Heca da vurğu kimi tələffüzlə əlaqədar olan hadisə sayılır. Tələffüz zamanı sözlərin asanlıqla bölünən hissələrinə ***heca deyilir.*** Sözdəki hecanın sayı həmin sözdə olan saitin sayına görə müəyyən edilir. Yəni bir sözdə neçə sait varsa, bir o qədər də heca vardır. Söz sonunun sait və ya samit səslə bitməsi baxımından hecanın iki növü yaranır:

1.Açıq heca;

2.Qapalı heca;

**Açıq heca**–sonu saitlə bitən ***hecaya deyilir***. Məsələn, qap**ı**, quz**u**, bac**ı** və s.

**Qapalı heca**–sonu samitlə bitən hecaya deyilir. Məsələn, qoyu**n**, dəmi**r**, bayra**q** və s.

Oxu dərslərində nitqin ifadəliliyini artıran vasitələrdən biri də hecadır. Nitqin emosionallığı və cəlbedici alınmasında hecanın əhəmiyyəti olduqca çoxdur. Sözdə hecaların fonetik intonasiya və ardıcıl tərzdə səsləndirilməsi nitqə məzmunca yeni rəng verir.

## Sözün tarixi

**Qarabağ Azərbaycanın ən qədim tarixi məskənlərindən biridir**. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan "Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. "Qara" və "bağ" sözləri Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. Dünyanın hər yerində bu söz birləşməsinin Azərbaycanın konkret ərazisinə aid edilməsi də danılmaz həqiqətdir. Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" sözü ilk mənbələrdə 1300 il bundan əvvəl işlənmişdir. Qarabağ əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir.

"Qarabağ" sözünün Azərbaycanın konkret bir vilayətinin, bir bölgəsinin adı kimi formalaşması tarixi onun etimologiyasının daha elmi şəkildə izahına imkan verir. Çünki Azərbaycan dilində, həmçinin başqa türk dillərində "qara"nın rəngdən başqa "sıx", "qalın", "böyük", "tünd" və başqa mənaları da vardır.

Bu baxımdan "Qarabağ" termini "qara bağ", yəni "böyük bağ", "sıx bağ", "qalın bağ","şəfalı bağ" və s. mənalar kəsb edir. Beləliklə, Qarabağın özü kimi "Qarabağ" sözü də Azərbaycan xalqına məxsusdur. "Qara" sözü ilə bağlı başqa yer adlarımız da vardır.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.İndiyə qədər Qarabağ haqqında və onun tarixi ilə bağlı hansı bilgilərə sahibsiniz?

2.Qarabağ münaqişəsi barədə nə bilirsiniz?

3.Qarabağın Azərbaycanın ayrılmaz, ən qədim tarixi torpaqlarından olması barədə daha hansı mənbələrdən bilgi almısınız?

**Tapşırıq №1**. Mətni diqqətlə oxuyun. Əvvəl iki hecalı sözləri, sonra üç hecalı sözləri seçib dəftərinizə yazın.

**Tapşırıq №2**. Mətndəki sözlərə nəzər salın. Onları iki qrupa ayırın. Birinci qrupa açıq hecalı sözləri, ikinci qrupa isə qapalı hecalı sözləri əlavə edin.

**Tapşırıq №3**. "Etimologiya", "toponim", anlayışı, "vilayət" sözlərinin leksik mənalarını lüğətin köməyi ilə izah edin.

## Məşğələ 30.

## İNTONASİYA, ONUN TƏRKİB HİSSƏLƏRİ (komponenti)

Danışarkən məqsəddən asılı olaraq bəzən səsimizi yüksəldir, bəzən zəiflədir və ya arada fasilə veririk. Danışıqdakı bu hadisəyə ***intonasiya deyilir. İntonasiya məqsədin tələbindən doğur.***

İntonasiya şifahi nitqlə bağlıdır. Mədəni nitqin təsirli, gözəl və cazibədar olmasını təmin edən ən mühüm amillərdən birincisi intonasiya sayılır. Başqa sözlə desək, intonasiya şifahi nitqin əsas keyfiyyətini təşkil edir. Əgər intonasiya şifahi nitqin əsasını təşkil edirsə, intonasiyanın keyfiyyət göstəriciləri isə onun tərkib hissələri (komponenti) olan vurğu, heca, fasilə, ahəng, tembr, temp hesab edilir.

Bunların hamısı mədəni nitqin axıcı, rəvan və səlisliyini təmin edən əlamətlərdəndir.

### İbn Sinanın görkəmli davamçısı Bəhmənyar

Qədim Şəms təqviminin on birinci ayı (21 yanvardan 19 fevrala qədərki müddəti əhatə edir) bəhmən adlanır. Həmin ayda doğulan oğlan uşağına bəzən Bəhmən, yaxud Bəhmənyar adını qoyurlar.

Bəhmənyar adını Azərbaycanda XI əsrdə Əbu Əli İbn Sinanın şagirdi və davamçısı Bəhmənyar şöhrətləndirmişdir. Etiqadına görə atəşpərəst olan müdrik «Bəhmənyarın yaratdığı əsərlər arasında "İdrak", "Musiqi haqqında" kitab və çoxsaylı risalələr vardır.

Bəhmənyar İbn Sinaya hələ uşaq yaşlarından şagird olması barədə özü belə danışır: "Bir dəfə İbn Sinanın o biri şagirdləri ilə birlikdə mən fəxrlə dərsə gəlmişdik. Elə oldu ki, müzakirədə lazımınca iştirak edə bilmədik. Müəllimlərimiz dedi:

–Görünür, sizin istirahət gününüz faydasız keçib.

Mən də yoldaşlarım kimi cavab verdim ki, istirahət günü gəzməyə getmişik və buna görə də dərsimizi yaxşı öyrənə bilməmişik. Bu cavabdan sonra müəllim ah çəkərək, gözü yaşarmış halda söylədi: "Kəndirbaz işi ilə gündəlik məşğul olduğundan öz kamilliyi ilə hər şeydən baş çıxaran müdrikləri belə heyrətə sala bilir. Niyə sizin aranızda bir ağıllı və müdrik uşaq çıxmadı ki, dərs oxumağı avaraçılıqdan üstün tutsun?...."

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Bəs siz necə, bu cür hadisələrin baş verməməsi üçün nəyə üstünlük verərdiniz?
2. Dünya şöhrətli azərbaycanlı alimlərdən daha kimləri tanıyırsınız?
3. Müəllimin söylədiklərindən nəyi ibrət götürdünüz?

**Tapşırıq №1**. Verilmiş atalar sözlərindən hansı mətnin ideya məzmununu ifadə edir?

1.Doğru yolla gedən yorulmaz.

2.Bilik tükənməz xəzinədir, o xəzinənin açarı isə soruşub öyrənməkdir.

3.Bilmədiyini bilǝndən soruş.

**Tapşırıq №2**. Mətni intonasiyanın tələblərinə uyğun oxuyun. Vurğunun yerini və fasilələri düzgün müəyyənləşdirin.

**Qeyd**. Misradaxili bölgü fasilələrə əsasən yaranır. Əgər tələb olunan yerdə fasilə edilməzsə, ahəng pozular, nəticədə nitq öz təsirini itirmiş olar. **Fasilə** nitqi nizama salır, onun ahəngdarlığını təmin edir.

**Tapşırıq №3**.Fasilələrin yerini müəyyənləşdirərək şeiri ucadan oxuyun.

**Nə diş bilsin, nə dodaq**

Eldən gizli sözüm yox,
Özgəsində gözüm yox,
Sənsiz canda dözüm yox,
Diş də bilsin, dodaq da.

Durub dayanmaq nədir?
Sevgini danmaq nədir?
Qoy görsün yanmaq nədir.
Nur da bilsin, çıraq da.

Arı tək çalışandan
Dadmışam balı şanda.
Qoy yanaq alışanda
Köz də bilsin, ocaq da.

Gülən üzüm ol mənim,
Görən gözüm ol mənim.
Doğrum, düzüm ol mənim,
Haqq da bilsin, nahaq da

***(Zəlimxan Yaqub)***

**Tapşırıq №4**. Mətni oxuyun. Durğu işarələrinin tələbini və mətnin mənasını diqqət mərkəzində saxlamaqla səsin hansı məqamlarda yüksəlib alçaldığını müəyyənləşdirin.

**Bir gün bir il tək keçər**

Bir vaxtlar Əlişir Nəvai Astrabadda hakim idi. Onun ədalətli hakimliyi dövründə Astrabad abad idi. Bir gün hava tutqunlaşdı Əlişir Nəvai yanında olan vilayət böyüklərinə baxıb:

–Bu gün hava yaman dəyişir, - dedi. Vilayət böyüklərindən biri:

–Şəhərimizin yaxşı cəhətlərindən biri də budur ki, bir gündə dörd fəslin havasını görmək olur, - deyə cavab verdi.

Əlişir:

–Düzdür, - dedi, - Bu şəhərdə bir gün bir il tək keçir.

## Məşğələ 31.

## LÜĞƏT ÜZƏRİNDƏ İŞ

Sözün mənaca düzgün dərk edilməsi Azərbaycan dilində nitq vərdişlərinə yiyələnməyin əsas şərtlərindən biri və ən başlıcasıdır.

Sözün mənasını dərk etmədən bu vərdişlərə sahib olmaq mümkün deyildir. Oxunmuş mətnin, əlavə oxunun, ümumiyyətlə, ətraf mühitin dərkinin əsasında söz ehtiyatının zəngin olması durur. Yalnız zəngin söz ehtiyatına yiyələnməklə azərbaycanca danışmaq, bu dillə ünsiyyət saxlamaq imkanı əldə etmək mümkündür.

Bunun praktik nəticəsinə yiyələnmək üçün isə mətn üzərində lüğətə aid çoxlu çalışmalar işləmək tələb olunur.

### Arximed

Roma gəmiləri Siciliyanın Şiraküz şəhərinə yaxınlaşırdı. Sahilə doğru əsən külək gəminin yelkənlərini qabartmışdı. Ox, yay və qılıncla silahlanmış əsgərlər, gəmilərin göyərtisinə toplaşmışdılar. Sərkərdələrin əmri ilə gəmilərdə döyüş şeypuru çalındı. Ancaq maraqlı burası idi ki, sahildə bir nəfər də Şiraküzlü əsgər gözə dəymirdi. Əllərinə balaca güzgü götürmüş minlərcə qadın sahildəki təpələrin döşünə yığışmışdı. Ağsaçlı bir qoca onlara nə isə göstəriş verirdi.

Öndəki gəmi sahilə çatmağa az qalanda qadınlar əllərindəki güzgüdən onun yelkənlərinə işıq saldılar. İşıqdan gözü qamaşan əsgərlər bir anlığa heç nə görmədilər. Öndəki gəminin yelkənləri qaralıb tüstüləndi, sonra alışıb yandı. Gəmidə yanğın baş verdi. İkinci gəminin də taleyi belə oldu. O biri gəmilər geri qayıtdı.

Roma gəmilərini güzgüdə əks olunan günəş işığı ilə yandıran ağsaçlı qoca Arximed idi! O, öz dövrünün ən məşhur fizika və riyaziyyat alimi sayılırdı.

***(“Göyərçin” jurnalından)***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Gəmidə yanğın baş verməsinin səbəbi nə idi?
2.Arximed haqqında daha nələri bilirsiniz?
3.Roma gəmilərini yandıran ağsaçlı qoca kim idi?

**Tapşırıq №1**. Lüğətin köməyi ilə “sərkərdə”, “şeypur”, “yelkən” sözlərinin mənalarını izah edin.

**Tapşırıq №2.** Mətni diqqətlə oxuyun. Mənasını başa düşmədiyiniz sözlərin əlifbaya uyğun ardıcıllıqla lüğətini tərtib edin və mənalarını kitabın sonundakı lüğətə əsasən müəyyənləşdirin.

**Tapşırıq №3**. Şeiri oxuduqdan sonra misralardakı sözlərdən ibarət lüğət düzəldin. Əvvəl öz dilinizə uyğun mənalarını izah edin. Sonra isə Azərbaycan dilində ifadə olunduğu lüğəti mənalarını şərh edin.

## Sözün tərifi

Dünya yaranan gündən qələmin ilkin sözü –
Varlıq səhifəsində sözün özüdür, özü.
Açılanda varlığın sirli pərdəsi əzəl,
Söz oldu bu cahanda cilvələnən ilk gözəl
Ürək sözə dil açdı, dedi ki, “Ver mənə can”.

Yoxsa, yolunu tapardı bu cansız bədənə can?!
Yer üzünə incini sözlə saçıbdır qələm,
Kainatın gözünü sözlə açıbdır qələm .
Dünyaya sözdü şərəf, gör ki, nədir qiyməti,
Danışmaqla, yazmaqla itməz qədir-qiyməti.

***(Nizami Gəncəvi, "Sirlər Xəzinəsin"dən)***

**Məşğələ 32**

## LÜĞƏT EHTİYATININ ZƏNGİNLƏŞDİRİLMƏSİNDƏ BƏDİİ QİRAƏTİN ROLU

"Şifahi nitqin inkişafı" fənninin tədrisinin əsas məqsədi əcnəbi (eləcə də azərbaycanlı) tələbələrdə müəyyən oxu, yazı vərdişlərini formalaşdırmaqla bərabər, onların şifahi nitqini inkişaf etdirməkdir.

Bu əsas vəzifənin həyata keçirilməsində isə tələbələrdə müəyyən həcmdə lüğət ehtiyatı yaratmaq mühüm rol oynayır. Bu işdə bədii qiraətin, eləcə də mətbuatın intensiv izlənilməsinin böyük əhəmiyyəti vardır.

Lüğət ehtiyatını zənginləşdirmək işinin düzgün və səmərəli təşkili üçün, hər şeydən əvvəl, həmin vaxta qədər öyrənilmiş sözlər nəzərə alınmalı və yeni sözlərin izahı zamanı bunlardan istifadə edilməlidir.

## Bakının birinci gerbi nə vaxt yaranıb?



**Birinci Pyotrun** hakimiyyəti dövrlərində Rusiyanın ayrı-ayrı regionlarında məskən salmış hərbi hissələri ərzaqla təmin etmək əsas məsələlərdən biri idi. Bu məsələ ilə əlaqədar ordu hissələrinin düşdüyü şəhərlər üçün xüsusi **gerblər** yaradılmışdır. **Məhz həmin illərdə də Bakı şəhərinin ilk gerbi yaradıldı.** Bu gerb 4 hissədən ibarət bir lövhə idi.

Gerbin sol hissəsində bir pələng rəsmi təsvir edilmişdir. Bu, vaxtı ilə Binə kəndindən Zirəyədək uzanan Tuğay meşələrində vəhşi heyvanların mövcudluğuna; yuxarı sağ tərəfdəki hissədə təsvir edilmiş torpaqdan çıxan üç qaz şırnaqları bu torpaqların odlu, yanar olduğuna; aşağıda sağ tərəfdəki hissədə lövbər təsvir olunmuşdur. Bu, Bakı əhlinin dənizçiliklə məşğul olduğuna işarə idi. Aşağıdakı sol hissədə isə yüklü bir dəvənin şəkli diqqəti cəlb edirdi. Dəvənin yükü üstündə çiçəklənmiş zəfəran soğanı da təsvirdən aydın seçilirdi. Bu da dəvənin yeganə nəqliyyat vasitəsi olduğunu və Bakıdan daşınan yükün, əsasən, zəfəran olduğunu bildirirdi. Bakının ikinci gerbi isə XIX əsrin 80-ci illərindən sonra Bakıda Dumanın fəaliyyəti zamanı yaradılmışdır. Üçüncü gerb isə bizim günlərdə yaradılmışdır ki, bu da lövhə üzərində beş dəniz ləpəsi üstündə üç alovdan ibarətdir.

**Sual və tapşiriqlar**
**Cavablandırın:**
1.Mənsub olduğunuz dövlətin gerbi necədir?
2.Bakı haqqında nələri bilirsiniz?
3.Sizin gerbiniz tarixən neçə dəfə yaranıb?

**Tapşırıq №1.** Lüğətdən istifadə edərək "gerb", "region", "şırnaq", "Duma" sözlərinin mənalarını araşdırın. Duma sözünün müasir anlamda sinonimini tapın.

**Tapşırıq №2.** Hal-hazırda istifadə etdiyiniz milli gerbinizi Azərbaycanın gerbi ilə müqayisəli şəkildə yazıda təsvir edin. Sonra mənası çətin başa düşülən sözlərin lüğətini düzəldib leksik mənalarını şərh edin.

**Tapşırıq №3.** 1-ci tapşırıqdakı sözlər istisna olmaqla mətnin digər sözlərdən ibarət lüğətini əlifba sırası ilə qurun və onların sinonimlərini tapıb qarşısında yazın.

## Məşğələ 33.

## FİKRİ İFADƏ VƏRDİŞ VƏ BACARIQLARININ FORMALAŞMASI

Məlumdur ki, sözlər öz-özlüyündə hələ dil deyildir, dil üçün tikinti materialıdır. Sözlər bir-biri ilə məna və qrammatik cəhətdən əlaqələnərək cümlə şəklinə düşür və yalnız bu halda fikri ifadə vasitəsinə çevrilir.

Fikri ifadə vərdişləri və bacarıqlarının formalaşması üçün bir sıra üsul və metodlardan istifadə edilir ki, bunlardan ən başlıcaları aşağıdakılardır:

1. Hadisə, əşya və s. haqqında sual-cavab üsulu.
2. Oxu dərslərində yeni sözlərin izahlı üsulu.
3. Debat (birlikdə iştirak və mühakimə üsulu).

Yalnız bu üsullardan istifadə etməklə fikrini sərbəst ifadə etmək və başqasının danışığını düzgün başa düşmək vərdişlərinə yiyələnmək məqbul sayılır.

## Şərqdə ilk qız məktəbi



**Hacı Zeynalabdin Tağıyev rus çarı III Aleksandrın zamanında** müsəlman qızları üçün Bakıda məktəb açmaqdan ötrü yazdığı icazənaməyə rədd cavabı alır. Lakin çarın rədd cavabı H.Z.Tağıyevi ruhdan salmır. Az sonra II Nikolay taxta çıxandan sonra Tağıyev bir senatorun vasitəsilə çarın xanımına çox bahalı bir hədiyyə göndərir və Bakıda qız məktəbi açmağa izn istəyir.

1896-cı ildə onun istəyinə müsbət cavab verilir. Müsəlman qız məktəbi indiki Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina idi. 1898-1900-cu illərdə məktəbin binası məşhur memar İ.V.Qoslavskinin layihəsi əsasında tikilmişdi. Məktəbdə dərslər 1901-ci il sentyabrın 7-də başlanmışdır. Məktəbə 58 qız qəbul olunmuşdu ki, bunlardan 35-i kasıb övladları idi. Məktəb açılandan öncə 4 illik, sonra 6 illik seminariyaya çevrildi. Geyimləri və bütün əlavə xərcləri məktəb özü ödəyirdi. Məktəbin ilk müdirəsi H.Zərdabinin xanımı Hənifə Məlikova idi. Hənifə xanım məktəbdə oxuyan qızlara mənəvi ana olmaq missiyasını fədakarlıqla yerinə yetirmişdi.

Az müddətdə məktəb istedadlı müsəlman qızlarının beşiyinə çevrildi. Məktəbin qurucusu H.Z.Tağıyevdən soruşurlar ki, niyə oğlanlar üçün deyil, məhz qızlar üçün məktəb açmaq qərarına gəldiniz. O zaman müdrik milyonçu cavab verir: "Kişi təhsilli olarsa o, dünyagörüşlü insan olacaq. Qadınlar nə qədər təhsilli olarsa, bir o qədər elmli, savadlı gəncliyin yetişməsi deməkdir".
Sonralar bu məktəbi bitirənlər vətənimizin ən məşhur insanları oldular.

**Sual və tapşiriqlar**

**Cavablandırın:**

1.Nə üçün xeyriyyəçi H.Z.Tağıyev ilk növbədə qızlar üçün məktəb açmağı düşünmüşdür?

2.Sizin ilk "qızlar məktəbi"niz haqqında nə bilirsiniz?

3.Ölkənizdə hazırda fəaliyyət göstərən belə bir təhsil müəssisəsi varmı?

**Tapşırıq №1.** Mətni hissələrə bölün və böldüyünüz hissəyə ad verin. Müzakirəsini keçirin.

**Tapşırıq №2.** Mətn əsasında sual-cavab şəklində dialoji nitq düzəldin. Debat üsulu ilə mətnin oxusunu qurun.

**Tapşırıq №3.** Lüğətdən istifadə edərək "senator", "akademiya", "layihə", "missiya" sözlərinin mənalarını araşdırın.

**Məşğələ 34.**

## NİTQ TƏCRÜBƏSİ VASİTƏSİLƏ FİKRİ İFADƏ VƏRDİŞLƏRİNİN ZƏNGİNLƏŞDİRİLMƏSİ

Fikri ifadə vərdişləri müxtəlif üsullarla yaradılır:

1. Mətnlərin rollar üzrə oxudulması.

Bu üsul tələbələri söhbət etmək, danışmaq vərdişlərinə yaxınlaşdırır. Doğrudur, bu zaman fikir danışanın öz sözləri və cümlələri ilə ifadə edilmir. Mətndəki obrazların nitqi ilə həyata keçirilir. Lakin şifahi nitqin əsas vasitələrindən olan intonasiya,

heca vurğusu, məntiqi vurğu, həyəcanlı vurğu, fasilə, mimika, jest və s. istifadə etmə bacarığı formalaşır.

2. Dialoqlu mətnlər üzrə iş aparılması. Dialoji nitq, ümumiyyətlə, fikrin ifadəsinə doğru atılmış başlıca addım hesab edilir. Çünki dialoq şəraitində, həm müəyyən şəxs, iş, hadisə haqqında informasiya əldə edilir, həm də elə predmetə öz münasibətini bildirmək, onun haqqında fikir söyləmək vərdiş və bacarıqları formalaşır.

**“Nalından od çıxan atlı”**

Qarapiri bəy Qacar Şah İsmayılın ən bacarıqlı sərkərdələrindən biri idi. Hünərinə, çeviklik və qətiyyətinə görə, “Tozqoparan” ləqəbini qazanmışdı.

Şeyx Heydərin üç oğlu vardı – Sultanəli, İbrahim və İsmayıl özü. Qarapiri bəyin bütün həyatı bu üç qardaşın yanında keçib.Əvvəlcə o, onları himayə və tərbiyə etmiş, sonra isə onların qulluğunda durmuşdur.

Tarixi mənbələrdə göstərildiyinə görə, İsmayılın və İraq Sultanı Muradın qoşunları min  beş yüz üçüncü ilin yayında Həmədan yaxınlığında qarşılaşırlar. Qarapiri bəy min beş yüz süvari ilə ehtiyatda qalır. Sultan Muradın ön cinahında qərar tutan Qum hakimi İslamış bəy qızılbaşların hücumunu dəf edərək, İsmayıla məktub vasitəsilə xəbər göndərir ki, könüllü təslim olmasan, sonuncu əsgərinədək qıracağam. Şah İsmayılın da, döyüşün də taleyi təhlükə altına düşür.

Məktub ilk öncə Qarapiri bəyin əlinə keçir. O, məktubu oxuyaraq, belə bir cavab göndərir:

–Əgər cəsarətin varsa, gəl. Kim-kimin axırına çıxacağını döyüş göstərəcək.

Döyüş başlanır. Qarapiri bəy gizləndiyi yerdən çıxaraq döyüşə qoşulur. Üzünü əsgərlərinə tutaraq deyir:

–Qılıncımız onların topu, atlarımızın ayaqlarından qopan toz isə atəşlərindən çıxan tüstü olacaq.

Bu hücumdan sonra düşkün bir mənəvi duruma gətirilmiş İslamış bəyin qoşunu tamamilə darmadağın olunur, qoşunu isə əsir düşür.

Beləliklə, Şah İsmayıl İranı və Bağdad daxil olmaqla bütün İraqı öz hakimiyyəti altına alır.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Siz bu mətndən Şah İsmayıl Xətai barədə nə öyrəndiniz?

2.Qarapiri bəy haqqında öyrəndiklərinizin içərisində daha çox nəyi bəyənirsiniz?

3.Qarapiri bəyin: “Qılıncımız onların topu, atlarımızın ayaqlarından qopan toz isə atəşlərindən çıxan tüstü olacaq” fikrini necə başa düşdünüz?

**Tapşırıq №1**. Nöqtələrin yerinə mətndən müvafiq obrazların adını yazın.

1. ... onları himayə etmiş, sonra isə onların qulluğunda durmuşdur.
2. Məktub ilk öncə ... əlinə keçir.
3. ... könüllü təslim olmasan, sonuncu əsgərinədək hamınızı qıracam.
4. Bu hücumdan sonra düşkün bir mənəvi duruma gətirilmiş … qoşunu dağılır.

**Tapşırıq №2.** “Səbəb-nəticə” cədvəlini doldurun

| Səbəb | Nəticə |
|---|---|
| | İsmayılın və İraq Sultanı Muradın qoşunları 1503-cü ilin yayında Həmədan yaxınlığında qarşılaşırlar |
| Qarapiri bəyin bütün həyatı bu üç qardaşın yanında keçib. | |
| | Əgər cəsarətin varsa, gəl kim-kimin axıra çıxacağını döyüş göstərəcək. |

**Tapşırıq №3.** Lüğətdən "süvari", "şeyx", "qızılbaş" sözlərinin mənalarını araşdırın. Sütun sözünü həqiqi mənada işlədin.

*İgidlik və qəhrəmanlıq barədə milli düşüncələriniz əsasında esse yazın. Sonra onu Azərbaycan dilinə tərcümə edin.

## Məşğələ 35.

## MÜƏLLİMİN İFADƏLİ OXUSU VƏ İZAHI

Müəllimin nitqinin məzmunlu, ifadəli və cazibədar olması şifahi nitqin inkişafında böyük təlim əhəmiyyətinə malikdir. Müəllim ifadəli oxuya əvvəlcədən hazır olmalıdır. O, əvvəlcə mətni evdə oxumalı, hansı abzasın daha yüksək tonla və ya ahəstə tələffüzünü, məntiqi vurğudan harda istifadə edəcəyini, intonasiyanın tələblərini qabaqcadan müəyyən etməlidir.

Mətn o vaxt axıcı və rəvan olur ki, orada ifadəliliyin bütün tələbləri ödənilmiş olsun. Bədii ifadə və təsvir vasitələrindən, sinonim və omonimlərdən, təkrirlərdən və s. yerli-yerində istifadə edilsin.

### Hz.Məhəmməd Peyğəmbərimiz (s.ə.s)

İslam dininin yaradıcısı olan Hz.Məhəmməd (s.ə.s) Məkkədə yoxsul ailədə doğulub. Gənc yaşında Xədicə adlı qadınla evlənib və ticarətlə məşğul olub. Daim ticarət işləri ilə əlaqədar uzaq ölkələrə səfərə çıxıb. Öncə bir sıra dini əfsanələr ilə tanış olmuş və bir-biri ilə daim çəkişən ərəb xalqlarının taleyi barədə uzun-uzadı düşüncələrdən sonra yeni bir din yaratmaq fikrinə düşüb. Əvvəl kiçik bir dəstə ilə bütpərəst məkkəlilərlə mübarizəyə başlayıb. Lakin sonra mübarizədə məğlub olub qonşu Mədinə şəhərinə köçüb. Məntiqi təfəkkürü, ağlı, mənəvi gücü, həmişə tərəfdarlarının qeyri-adi cəsarəti ilə qısa bir müddətdə bütün Ərəbistanı yeni bir din-İslam dini bayrağı altında birləşdirib. Təbii

ki, bu hadisə Ərəb xalqlarının mənafeyinə uyğun idi. Doğrudan da, bir neçə əsr ərzində ərəb xalqları fəlsəfə, tarix, ədəbiyyat, coğrafiya sahəsində görkəmli əsərlər yaradıb, mədəniyyətləri ilə ən parlaq nümunələrdən biri kimi dünya mədəniyyətini zənginləşdirdilər.

Ucsuz-bucaqsız imperiyadan daşınan vergilərlə ərəblər varlı həyat sürməyə başladılar. Ancaq məğlub edilən xalqlar üçün İslam dininin faydası çox az oldu. Çünki xalqlar hələ ərəb dilini bilmədikləri üçün bu mədəniyyətdən bəhrələnə bilməyib onun fanatizm tərəfi ilə üz-üzə qaldılar.

Hz.Məhəmmədə görə dünyada hər şey Allahın iradəsi ilə müəyyən olunur. İnsanın borcu taleyə itaət edib onun hökmünə boyun əyməkdir.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1. Sizcə, yeni din (İslam dini) hansı ehtiyacdan yaranmışdır?
2. İslam dininin yaranması ərəblərin həyatında yüksəlişə, yoxsa tənəzzülə səbəb oldu?
3. İslam dinini qəbul etmiş digər xalqlar nə üçün ərəb mədəniyyətindən lazımınca istifadə edə bilmədilər?

**Tapşırıq №1.**Mətni diqqətlə oxuyun, ifadəliliyə verilən tələbləri oxuduğunuz hissələrdəki nümunələrə əsasən müəyyən edin.

**Tapşırıq №2.**Mətnə yeni epizodlar əlavə edin. Aranızda hissələri konkret adlara ayırıb təhkim edin. Nələrə diqqət etdiklərinizi və etməli olduqlarınızı mətnin oxusu zamanı yazılı şəkildə şərh edin.

**Tapşırıq №3.**Lüğətdən istifadə etməklə "peyğəmbər", "din", "fanatizm" sözlərinin mənalarını izah edin. "Fanatik" və "fanatizm" sözlərinin fərqini araşdırın.

## Məşğələ 36.

## MƏTNİN OXUSUNA VERİLƏN TƏLƏBLƏR

İfadəli oxunun əsas keyfiyyəti onun aydın olmasından və tələffüz vasitələrindən məqamında və yerinə görə istifadə olunmasına əsaslanır.

Oxunun aydınlığı tələsməməyi, ayrı-ayrı sözlərlə deyil, cümləni təşkil edən mənalı hissələrlə tələffüzü tələb edir. Burada aparıcı vasitə sayılan intonasiyanın rolu olduqca böyük və vacibdir. Cümlədə fikrin tamamlanması məqsədin tələbinə uyğun intonasiya ilə bitməlidir. Eyni zamanda, ifadəli oxunun və nitqin düzgünlüyü, aydınlığı məntiqi vurğudan düzgün və yerində istifadə olunmasına çox bağlıdır.

İntonasiya və məntiqi vurğu mətnin aydın dərk edilməsini təmin edən başlıca vasitələrdəndir. Məntiqi vurğulu söz adətən xəbərin yanında (ondan əvvəl) işlənir.

Oxunun düzgünlüyü Azərbaycan ədəbi dilinin tələffüz normalarının gözlənilməsi prinsipinə əsaslanır.

**Xəstəlik** beş gün çəkdi. Yorğan döşəyə çaxılıb qalmağı **xoşlamayan** Bəhlul ayağa durmadı. Ciddi həkim nəzarətində **müalicə** olundu. Durna daha onun həndəvərinə hərlənmədi. Yalandan da olsa, səhhəti ilə maraqlanmadı. Səhər, ya axşam təsadüfən qarşılaşanda, üz-üzə gəlib başlarını aşağı salıb kirmişcə yan ötdülər. Bir-birinə heç gözucu da baxmadılar. Elə bilərdin, köhnədən küsülü qonşulardı.

Bəhlulun qulluğunda **etibarlı** sürücüsü dururdu. Çay-çörəyi, lazımlı xörəyi haradasa bişirtdirib gətirir; hər tapşırığını **canla-başla** yerinə yetirirdi.

**Lənətli** məsələnin **sülhlə, öyüd-nəsihətlə** yat-küt olmayacağına, gedib kar qulaqlara da çatacağına Bəhlul, axır ki, inandı. Dava-dalaşın, döyüş-söyüşün də xeyri yox idi. Yalnız bir çıxış yolu vardı: abırı abırsızlardan qorumaq! Nigah rəsmən ləğv olunana, məhkəmənin qərarı ilə əmlak bölgüsü icraata verilənə

qədər buradan baş götürüb getmək!... Lakin hara getsin? **Müvəqqəti** olaraq kimə sığınsın?...

*(Vidadi Babanlı "Zəmanə adamı" romanından parça)*

## Tapşırıqlar

**Tapşırıq №1**. Mətni intonasiyanın tələblərinə uyğun oxuyun. İşarələnmiş sözlərin yazılışı ilə düzgün tələffüzü arasındakı fərqi yazılı göstərin.

**Tapşırıq №2**. Məntiqi vurğulu sözləri seçib yazın. Həmin sözlərin yerini dəyişin. Nə baş verdiyini izah edin.

## Borçalıda qalan izlər (şeirindən parçalar)

Dağa arxalandı, düzə can atdı,
Şəlalə səsini qayadan aldı.
Hər kim bir sehirli aləm yaratdı
Gücünü xalq adlı mayadan aldı.

Güvəndi gücünə, istedadına,
Vətəndən, torpaqdan mayalı Vurğun!
Bir gün Borçalını saldı yadına
Qədəmi hər yerdə sayalı Vurğun!

Xalqının hər sevinci-şərəfi, şanı,
Xalqın hər kədəri onun yasıydı.
Qəlbi tək sevirdi Azərbaycanı
Borçalı qəlbinin bir parçasıydı!

***(Zəlimxan Yaqub)***

**Tapşırıq №3. Mətni müxtəlif tempdə-ağır (aramla), orta sürətlə oxuyun. Mətnə hansı tempin daha çox uyğun gəldiyini müəyyənləşdirin**.

**Tapşırıq №4**.Misralardakı məntiqi vurğulu sözləri müəyyənləşdirin. Hansı qaydaları əsas götürdüyünüzü izah edin.

## Məşğələ 37

## DİNLƏNİLMİŞ MƏTNİN MƏZMUNUNUN ŞƏRHİ

Bədii mətni (əsəri) oxuyanın-ifaçının qarşısında həmişə bir vəzifə olur: dinləyicilərə təsir etmək. Bu, oxunan mətnin məğzini, ideya-məzmun dəyərini dinləyicilərə çatdırmaqla mümkündür. Bu vəzifənin həyata keçirilməsi üçün ilk dərslərdən etibarən səslərdən düzgün istifadə etməyi, aydın və səlis oxumağı bacarmaq lazımdır.

Başa düşmək lazımdır ki, oxudan əvvəl dərin nəfəs almaq və mətni oxuyarkən məntiqi cəhədən bitkin bir hissəni oxuyub başa çatana qədər onu bir qaydada saxlamaq lazımdır.

Məzmunun şərhində ən vacib məsələlərdən biri də əsərin (mətnin) süjeti və onun inkişaf mərhələləri (ekspozisiya-bədii zəmin, girişi, zavyazka-düyün nöqtəsi; kulminasiya-hadisənin ən yüksək inkişafı, təpə nöqtəsi, razvyazka-düyünün açılması və final-sonluq), həmçinin kompazisiyası (bədii əsərin quruluşu, süjetin inkişaf mərhələlərinin sistemli əlaqələnməsi) haqqında məlumat verməkdir.

Məzmunu süjet və kompazisiyasız təsəvvür etmək mümkün deyildir. Çünki məzmun özü süjet üzərində qurulur. Məzmunun məntiqi ardıcılıqla şərhi məhz süjetin inkişaf mərhələlərinə əsaslanır.

### Xosrovla Şirinin söhbəti

O ay sifətlini Xosrov görərkən,
Etdi öz qəlbini o sərvə çəmən.
Gördü ki, bir huri qəsrə girərkən,
Behişt qapısını bağlayıb bərk-bərk.

Xosrovu sarsıtdı o birdən-birə,
Az qaldı kürsüdən şah düşsün yerə.
Cəld durub toxtaqlıq verdi özünə,
Əlini öpərək oturdu yenə,
Üzr üçün Şirinə sonra dil açdı,
Sorğularla ona şəkərlər saçdı:
"Həmişə təzə ol, ey sərvi-azad",
Başın göy, üzün al, qəlbin olsun şad.
Dünya sübh üzündən gülüş öyrəndi.
Fələklərə düşən sənin kölgəndi.
Könül təzələndi bu xoş görüşdən,
Məni utandırdın hörmətinlə sən,
Yolumu bəzədin mənziltək,
Döşədin torpağa xalı, xəz ipək.
O gövhər, aypara sırğalarından,
Şəbdizin nalına sən ləl salmısan.
Yoluma bu qədər gövhər tökmüsən,
Üzüm lələ dönüb xəcalətimdən.
Üzünlə ki, şadam-bu mənə bəsdir,
Bu gövhər, bu daş-qaş, məncə əbəsdir.
Südlə bal kimi sən qarışdın mənə,
Sözüm ola bilməz xidmətlərinə.
Qapını üzümə bağladın neçin?
Mən yanıldım, yoxsa belədir yəqin?
Alçaltmısan məni, gözəl, yer kimi.
Demirəm ki, səndən mən artığam, yox,
Belə fikirlərdən uzağam çox-çox.
Qonağınam, qonaq üzünə belə.
Qapını bağlamaq olarmı, söylə?
Qonaqla oturan comərd kimsələr,
Qonağa daha çox hörmət göstərər.

***(Nizami Gəncəvi "Xosrov və Şirin"dən bir parça)***

## Tapşırıqlar

**Tapşırıq №1.** Mətni nəsrə çevirib məzmununu danışın. İkinci fasilələrin yerini müəyyən etməklə, misraları ucadan oxuyun.

**Tapşırıq №2.** Misraları mətndəki ardıcıllığa uyğun nömrələyin. Şeiri şərti olaraq hissələrə ayırın.

 Xosrovu o sarsıtdı birdən-birə,
 Etdi öz qəlbini o sərvə çəmən.
 O ay sifətlini Xosrov görərkən,
 Gördü ki, bir huri qəsrə girərək,
 Az qaldı kürsüdən şah düşsün yerə.

**Tapşırıq №3.** Mətnin məzmunu ilə ətraflı tanış olun. Tələffüz və tənəffüs qaydalarına əməl etməklə ucadan oxuyun. Səsin tonunu və gücünü özünüz üçün müəyyənləşdirin. Mətnin məzmununa əsasən nitqin tempini və melodiyasını dəyişin.

### Boynu da yükdən azad edin

Mövlanə Sani çox zalım adam idi. O, bir müddət vəzirlik də etdi. Mövlanə Sani həmişə başına böyük əmmamə qoyardı. Bir gün Sultan Hüseynin ona qəzəbi tutdu. Əmr etdi ki, Mövlanənin başındakı əmmaməsini götürüb atsınlar. Əlişir Nəvai padşaha dedi:

–Baş yükünü yüngüllətdiniz, sultanım. İndi boynun da yükünü yüngülləşdirin.

## Məşğələ 38.

## PLAN ÜZƏRİNDƏ İŞ

**Oxunmuş mətn üzərində işin əsas mərhələsini plan tərtibi təşkil edir**. Plan tərtibinin aşağıdakı müsbət cəhətləri təlim üçün olduqca faydalıdır:

1.Plan tərtibi, hər şeydən əvvəl, əsərin məzmununun başa düşülməsinə kömək edir.

2.Əsərin (mətnin) məzmununun tam və ardıcıl şəkildə (istər yazılı, istər şifahi) ifadə edilməsinə şərait yaradır.
3.Əsərin müxtəlif hissələri arasında əlaqənin anlaşılmasına (dərk edilməsinə) imkan yaradır.
4.Əsərin (mətnin) məzmununun süjet və kompazisiyasının müəyyənləşdirilməsi işində xüsusi əhəmiyyətə malikdir.
5.Planın hər bir maddəsinə düşünülmüş başlıqlar vermək üzərində fikirləşməklə qısa, aydın və ifadəli nitq vərdişlərinə yiyələnmək mümkündür.

## Əmək və əmək adamları haqqında dostluq məktubu

Otağın qapısı astadan döyüldü. Anaxanım başını qaldırıb dedi:

–Buyurun!

Qapı açıldı. Anaxanımın yaxın dostu və iş yoldaşı Nərgiz gülə-gülə içəri girərək:

–Anaxanım, gözün aydın! Yenə sənə məktub gəlib, –dedi.

Anaxanım maraqla soruşdu:

–Kimdəndir?

–Göyçəkdən, bizim doğma bacımızdan. Anaxanım zərfi açıb, məktubu ucadan oxumağa başladı.

"Əziz bacım Anaxanım! Səni və bütün iş yoldaşlarını Yeni il münasibətilə təbrik edirəm..."

Göyçək məktubunda Bakıdakı neftayıran zavodda gördüyü işlərdən, keçən ili yüksək əmək nailiyyətləri ilə başa vurduğundan bəhs edirdi.

Məktubu oxuyub qurtarandan sonra Anaxanım Nərgizə dedi:

–Gəl, birlikdə ona cavab yazaq Nərgiz həvəslə razılaşdı. Qələm, kağız gətirdi.

Rəfiqələr məktubun əvvəlində Göyçəyə Yeni il təbriki yazdılar. Ona cansağlığı arzu etdiklərini bildirdilər. Sonra gördükləri işlərdən yazdılar: "Hörmətli Göyçək bacı! Biz yenə də eyni briqadada işləyirik. İllik planı hələ iki ay əvvəl yerinə

yetirmişik. İlin axırınadək plandan əlavə 5000 metr parça toxumağı öhdəmizə götürmüşdük. Bu vədimizi də zəfərlə yerinə yetirdik...”

Rəfiqələr məktubu zərfə qoydular, üstünü yazıb yola saldılar.

**Plan**

1. Göyçəkdən gələn məktub.
2. Rəfiqələrin qərarı.
3. Onların cavab məktubu.

## Tapşırıqlar

**Tapşırıq №1.** Öz dostlarınıza məktub yazın. Məktubda dərsdə qazandığınız müvəffəqiyyətlərdən və universitetin ictimai həyatında gördüyünüz işlərdən bəhs edin.

**Tapşırıq №2.** Mətni plan üzrə hissələrə bölün. Hər hissəni ayrılıqda, sonra isə bütövlükdə oxuyub nağıl edin.

**Tapşırıq №3.** Kitabın “əlavə oxu üçün mətnlər” hissəsindən ixtiyari bir mövzunu götürüb mətni oxuyun və eyni zamanda, onu hissələrə bölüb, hər bir hissəyə ad verin.

## Məşğələ 39.

## MƏTNİN MƏZMUNUNA YAXIN MƏLUMAT VERMƏ

Hər hansı mətnin məzmununa yaxın, ona bənzər məlumat vermək üçün aşağıdakı üsullardan faydalanmaq məqbul sayılır:

1.Mətni ardıcıllıqla, ən kiçik epizodlarına kimi öyrənib danışmaq.

2.Öyrənilən hadisəyə oxşar süjet qurmaq. Burada obrazları, məkan adlarını (toponimləri) saxlamaq da olar.

3.Mətni formaca (həcmini böyüdüb-kiçiltmək, nəzmdirsə nəsrə, nəsrdirsə nəzmə çevirmək və s.) dəyişmək şərt olsa da, mahiyyəti olduğu kimi saxlamaq.

4. Məzmuna yaxın məlumat vermə (nağıl etmə) zamanı mətndən müəyyən hissələri əzbər öyrənmək və danışıqda istifadə etmək.

Məlumat vermənin (nağıl etmənin) bu növünə o vaxt ehtiyac yaranır ki, Azərbaycan dilində müstəqil cümlələr qurmaqda, lazım olan söz və ifadələrdən məqamında və yerində istifadə etmək işində hələ də müəyyən çətinliklər mövcuddur. Buna görə də danışarkən mətndəki hazır cümlələrdən, söz və ifadələrdən istifadə etməklə rabitəli nitq vərdişlərinə yiyələnmə imkanı əldə edilir.

### Ağıllı uşağın hekayəti

Qayğı bilməz bir uşaq bir gün başda tay-tuşu
Çıxdı evdən yanında özü yaşda tay-tuşu.
Düşər-düşməz getdiyi yola izi oğlanın,
Qaçan zaman burxuldu birdən dizi oğlanın.
Ayağından bir yolluq əli sanki üzüldü
Ödü-bağrı yarıldı, beli sanki üzüldü.
Tay-tuşları bu haldan gör nə hala düşdülər.
Yaxın dostu dedi ki: "Necə ataq biz bunu?
Atsaq dərin quyuya səssiz-səmirsiz onu.
Özümüzü gündüztək oda yaxa bilərik.
Atasının üzünə necə baxa bilərik?"
Ağıllıydı, hər şeyi düşünəndi birisi,
Düşündü ki, qalsa da, indi naçar uşaqlar,
Vaxt gələr ki, bu sirri bir gün açar uşaqlar.
Qənimiyəm, bilirlər, məni qana salarlar,
Günah qalar üstümdə şər-böhtana salarlar.
Xəbər verdi əlüstü atasına uşağın,
Əncam çəkdi atası xatasına uşağın.
Öz oğlunun gözüylə baxan kimdir aləmə,
Ən qüdrətli, yenilməz bir hakimdir aləmə.
Kim olubdur sirrinə bir aşina fələyin,
Ayağını qoyubdur, düz başına fələyin,

Bilir göyün sirrini azdan, çoxdan Nizami,
Ərş evinə yüksəlib odur çoxdan Nizami.

*(Nizami Gəncəvi "Sirlər Xəzinəsi"ndən )*

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Hekayədən özünüz üçün nəyi ibrət götürdünüz?

2.Həmin anda öz dostunuza qarşı necə mövqe tutardınız?

3.Hekayəyə yeni ad verəsi olsaydınız aşağıdakılardan hansını seçərdiniz? Fikrinizi mətndən oxuduğunuz nümunələrlə əsaslandırın

A) Sadiq dost

B) Namərd yoldaşlar

C) Gələcəyi düşünən oğlan.

**Tapşırıq №1**. Mətni nəsrə çevirib oxuyun, sonra məzmununu yazın.

**Tapşırıq №2**. Mətnin məzmununu saxlamaq şərtilə formanı dəyişin. Hissələrə bölüb hər hissəyə ad verin. Öz həyatınızdan hekayənin məzmunu ilə səsləşən bir hadisə əsasında süjet qurun.

**Tapşırıq №3**. Mənasını başa düşmədiyiniz sözlərin lüğətini əlifba ardıcıllığı ilə qurun və leksik mənalarını müəyyənləşdirin.

## Məşğələ 40.

## QISA NAĞIL ETMƏ

Oxunmuş mətnin qısa nağıl edilməsində başlıca amil ardıcıllığı izləmək şərtilə mətnin əsas məzmununu ifadə etməkdən ibarətdir. Bu təlim əməliyyatı zamanı bir sıra prinsiplərdən istifadə olunur ki, bunların içərisində aşağıda göstərilənlər təcrübə zamanı məqbul hesab edilmişdir:

1.Məzmunu diqqətlə nəzərdən keçirmək və başlıca hadisələri ayırmaq.

2.Mahiyyəti ifadə edən epizodları öz sözləri və cümlələri ilə (vasitəli nitq şəklində) danışmaq.

3.Mətni hissələrə bölüb hər hissəni ayrıca oxuyub nağıl etmək.

Oxunmuş mətnin məzmununu qısa nağıl etmək məntiqi təfəkkürün inkişaf etdirilməsi ilə yanaşı, fikri qısa və aydın ifadə vərdişlərinin yaranması üçün də olduqca faydalıdır.

Bu təlim işi müəyyən hazırlıq işləri aparıldıqdan sonra həyata keçirilir. Mətnin məzmunca təhlili prosesində bölünmüş ayrı-ayrı hissələrə müvafiq suallar verməklə **(“mətndə ən çox diqqətini cəlb edən epizod hansıdır?” “Onun yerində sən olsaydın nəyə üstünlük verərdin?” və s.)** aydınlaşdırılır. Əsərin (mətnin) ideya-məzmununa uyğun hissə xüsusi olaraq şərh edilir ki, bu da qısa nağıl etməni xeyli asanlaşdırır.

Məzmuna yaxın nağıl etmə ilə qısa nağıl etmənin oxşar və fərqli cəhətlərinin şərhi də bu təlimin vacib üsullarından biri sayılır.

## Cavab

Bir gün yunan filosofu Anaksimen bağda şagirdi ilə söhbət edirdi. Bu zaman şagirdi ondan soruşdu:

–Ustad, deyin görüm, niyə sizi çox zaman cavabsız suallar və qayğılar narahat edir. Siz uzun illər yaşayıb, çox təcrübə əldə edib, böyük alimlərdən dərs almışsınız. Bəs necə olur ki, sizin üçün də bu qədər çox cavabsız suallar mövcuddur?

Dərin fikrə gedən filosof əlindəki əsa ilə yerə iki dairə çəkir, biri kiçik, biri böyük. Sonra şagirdinə deyir:

–Bu kiçik dairə sənin biliyindir, bu böyük dairə isə mənim. Amma qalan hər şey bu dairənin kənarında-məchulluqdadır. Kiçik dairə bu məchulluqla az təmasdadır. Sənin biliyinin dairəsi nə qədər genişdirsə, onun sərhədi məchulluqla bir o qədər böyük olur. Bundan sonra da sən nə qədər çox yeniliklər öyrənsən, səni daha çox məsələlərin, müşküllərin həlli yolları düşündürəcək. Bil ki, oxumadıqlarını ayağının altına qoysan başın göylərə dəyər.

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Yunan filosoflarından daha kimlərin haqqında məlumatınız var?

2.Filosof Anaksimen şagirdinə nəyi başa salmaq istəyirdi?

3.“Beşikdən qəbir evinə qədər öyrənmək” ifadəsini necə başa düşürsünüz?

**Tapşırıq №1.** Mətnin məzmununu qısa nağıl edin. Buna necə nail olduğunuzu, hansı tələblərə əməl etdiyinizi yazılı izah edin.

**Tapşırıq №2.** Mətni hissələrə bölərək öyrənin.

Hər hissəyə uyğun suallar hazırlayın və həmin suallar əsasında əsas məzmunu seçin.

*Debat. “Mən onu bilirəm ki, heç nə bilmirəm” fikrinə münasibət bildirin.

**Tapşırıq №3.** İzahlı lüğətdən istifadə edərək. “məchulluq”, “təmas”, “bilik dairəsi” sözlərinin mənalarını araşdırın. Həmin sözlərin hansı elm sahələrində daha çox işləndiyini müəyyənləşdirin. “Dairə” sözü çoxmənalı, yoxsa omonimdir?

**Məşğələ 41.**

## MƏTNİN OBRAZINI DƏYİŞMƏKLƏ NAĞIL ETMƏ

Mətnin məzmununun müxtəlif metod və üsullarla nağıl edilməsi haqqında əvvəlki paraqraflardan müəyyən biliklər əldə etdik. Təbii ki, bu priyom və istiqamətlərin öyrənilməsi və təlim prosesində bunlardan təcrübi şəkildə istifadəsinin vahid məqsədi düzgün danışmaq, məzmunu aydın dərk etmək və s. kimi nitq vərdişlərini formalaşdırmaqdır.

Belə üsullardan biri də mətnin obrazının dəyişdirilməsi yolu ilə nağıl etmədir. Bu metodun bir çox əhəmiyyəti vardır:

1. Mətnin qrammatik formasının dəyişdirilməsi yollarının öyrənilməsi.
2. Mətnin ideyasının müəyyən edilməsinin asanlaşdırılması.

3.Mətnin əsas ideyasını təşkil edən hadisəyə münasibət bildirilməsinə yaxından kömək göstərilməsi.

Əgər hadisəni danışan şəxs birinci şəxsin təkidirsə, o zaman onu üçüncü şəxsin təki ilə əvəz etmək olar. Əgər məlumatı söyləyən birinci şəxsin cəmidirsə, o halda onu üçüncü şəxsin cəmi ilə dəyişmək mümkündür.

Bu təlim prosesində öyrənilməsi ən vacib olan məsələlərdən biri də ***dialoqlu mətnlərin və təmsillərin məzmununun öz sözləri ilə nağıl edilməsidir***. Əslində bu, vasitəsiz nitqin vasitəli nitqə çevrilməsi üsuludur. Burada yenə də“***hissələrə bölmə və hər hissəyə müvafiq sualların hazırlanması” üsulu əsas götürülür***.

Suallara verilən cavablar əlaqələndirilərək sistemə salındıqda bütövlükdə təmsilin və ya dialoqun məzmunu formalaşmış olur.

### Xosrovun Fərhadla deyişməsi

Xosrov əvvəl sordu: “Hardansan, cavan?”
Fərhad cavab verdi: “Dost diyarından”.
Dedi: “O diyarda hansı sənət var? ”
Dedi: “Qəmi alıb, canı satırlar”
Dedi: “Canı satmaq heç ədəb deyil”
Dedi: “Aşiqlərdə bu əcəb deyil”
Dedi: “Ürəkdəndir bu çəkdiyin qəm?”
Dedi: “Ürək nədir, candan aşiqəm”
Dedi: “Əzizdirmi eşqi Şirinin?”
Dedi: “Onu candan bilirəm şirin”
Dedi: “Aytək onu gecə görürsən?”
Dedi: “Yuxum gəlsə, yatırammı mən?”
Dedi: “Qəlbin onu unudar haçan?”
Dedi: “Torpaqlarda yatdığım zaman”.
Dedi: “Qədəm qoysan sən otağına?”
Dedi: “Baş qoyaram mən ayağına”.
Dedi: “Yaralasa gözünü əgər?”
Dedi: “O birin də verərəm gedər”.
Dedi: “Daş da olsa, bil, dəmir yeyər”.

Dedi: “Əlin ona yetişməz axır?”
Dedi: “Ayı gendən görmək yaxşıdır”.
Dedi: “Varlığını istəsə birdən?”
Dedi: “Yalvararaq tez verərəm mən”.
Dedi: “Keç, -söyləsə başından haman”.
Dedi: “Başı verib çıxaram borcdan”.
Dedi: “Dostluğu et özündən kənar.”
Dedi: “Belə bir iş görərmi dostlar?”
Dedi: “Arxayın ol bu xəyal xamdır”
Dedi: “Arxayınlıq mənə haramdır”
Dedi: “Gəl əl götür, səbrə ver qərar”.
Dedi: “Heç can üçün səbir etmək olar?”
Dedi: “Səbir etməyin faydası çoxdur”.
Dedi: “Qəlb səbir edər, qəlbim ki, yoxdur”
Dedi: “Hansı qəmdir qorxudan səni?”
Dedi: “Ancaq hicran qorxudur məni”
Dedi: “İstəyirsən dünyada həmdəm?”
Dedi: “Özümü də heç istəmirəm”.
Şah cavab tapmadı Fərhada artıq,
Gördü məsləhətdir bitsin danışıq.
Həzərata dedi: “Ta bu günəcən
Belə hazır cavab görməmişəm mən.
Madam ki, qızıldan qaçdı, çəkindi,
Daşla sınayırıq biz onu indi”.

## Tapşırıqlar:

**Tapşırıq №1.** Mətni nəsrə çevirib oxuyun və məzmununu öz sözlərinizlə nağıl edin.

**Tapşırıq №2.** Mətni söhbətin formasını dəyişdirməklə öz cümlələriniz, söz və ifadələrinizlə danışın. Mətnin məzmununun neçənci şəxslərin dili ilə verildiyini və əgər dəyişdirəsi olsanız neçənci şəxsin təki, yaxud cəmi ilə əvəz etməyin mümkünlüyünü yazılı şərh edin.

**Tapşırıq №3.** Mətnin başlıca ideya-məzmununu ifadə edən cümlələri, söz və ifadələri seçin, mənası çətin anlaşılan sözlərin lüğətini tərtib edin. "Diyar" sözünün və "qədəm qoymaq", "baş qoymaq" ifadələrinin mənalarını araşdırın.

**Məşğələ 42.**

## DİALOQ NİTQİNDƏ İNTONASİYANIN ROLU

Dialoq nitqində intonasiya mühüm rol oynayır. Dialoji nitq şəraitində həmsöhbətlərin (müsahibin) bir-birini başa düşməsində, söylədikləri fikrin düzgün dərk edilməsi və aydın ifadəsində intonasiyanın xüsusi rolu vardır.

Dialoqdakı aparıcı intonasiya yarımçıq cümlə intonasiyasıdır. Yarımçıq cümlənin geniş miqyasda işlədilməsi dialoqun təbiəti ilə əlaqədardır. Belə ki, dialoqda çox zaman həm danışan, həm də dinləyən üçün məlumat geniş və ətraflı olmur. Belə hallarda yarımçıq cümlə ünsiyyətdə əsas rol oynayır, həmsöhbətləri təmin edə bilir.

***Cümlə üzvlərindən bir və ya bir neçəsi buraxılan, lakin mətnə görə buraxılan üzvləri asanlıqla bərpa edilən cümlələrə yarımçıq cümlə deyilir.***

Yarımçıq cümlələr dialoq nitqinin məhsuludur, bu nitqdə yaranır və yaşayır. Adi cümlədə olduğu kimi, yarımçıq cümlə intonasiyası da dialoji nitqin məqsəd və tələbinə uyğun olaraq rəngarəngdir.

...Müstəntiq susdu. Mənə belə gəldi ki, professorun tutarlı cavabından çaşdı. Birdən kəskin həmləyə keçdi:

–Tələbələriniz sizi tamahda, rüşvətxorluqda günahlandırırlar. Qiymət yazmaq üçün böyük məbləğdə pul umduğunuzu yazıblar, - dedi.

Professor laqeydliklə əlini yellədi:

–Əsassız iftiradı, - dedi.

Müstəntiq hazır saxladığı şikayət ərizələrini ona uzatdı.

–Budur şikayətlər....Tanış ola bilərsiniz! – deyib gülümsədi. Professor heç bir təlaş keçirmədi. Kağızları sakit aldı, eynəyini təmkinlə cibindən çıxarıb gözünə taxdı. Diqqətini kağızlara yönəltdi.

Müstəntiq fürsət ikən mənə sarı təkrar boylandı. Him-cimlə üzləşməyə hazır olmağı anlatdı.

Professor kağızları həyəcansız geri qaytardı.

–Bunlar uydurmadı. Diktə ilə yazdırılıb! – dedi. Eynəyini gözündən götürüb qəddini qürurla dükəltdi.

Onun laqeydliyi müstəntiqin xoşuna gəlmədi, sir-sifəti qırçaşdı. Dilxor mızıltı ilə soruşdu:

–Əfsun zamanlı adında tələbəniz də olub, onu necə, xatırlayırsınızmı?

Adım çəkiləndə məni soyuq tər basdı. Bədənimdə vicvicə gəzdi.

Professorun mən haqda nə deyəcəyini təşvişlə gözlədim. O, xeyli duruxduqdan sonra:

–Bəli, xatırlayıram, - dedi. Müstəntiq təcili sual verdi:

–Nə cür tələbə olub? Professor dilini sürüdü:

–Oxumağı pis deyildi, çulunu sudan çıxarırdı, - dedi.

Söz qəlbimə dəydi, ondan ayrı cavab umurdum. Axı mən əlaçıydım. Müstəntiq "dindirmə vərəqəsi"ndə qeydlər edib, sualını dəqiqləşdirdi:

–Zamanlının xətrini çox istəyibsiniz. İstedadlı tələbəniz olub, elədir, - soruşdu.

Profssor istehza ilə:

–O istedadlı tələbə yox, istedadlı kələkbazdı. Xətrini də heç vaxt istəməmişəm, - dedi.

Yandım, cızdağım çıxdı. Müstəntiq mənə ötəri nəzər yetirib, lağlağı ilə xəbər aldı:

–Zamanlının kələkbazlıq istedadını siz nədə görürsünüz? Professor asta-asta sadaladı:

–Sırtıqlığında, üzlülüyündə, qılığa girmək səriştəsində və bir də qıyısız dilində!....

***(Vidadi Babanlı "Zəmanə adamı" romanından parça)***

## Tapşırıqlar

**Tapşırıq №1**. Nitqin formasını (quruluşunu) müəyyən edin. Müsahiblərin (həmsöhbətlərin) söhbətlərinin məzmununu danışın.

**Tapşırıq №2**.Mətni oxuyun və oxu prosesində necə tənəffüs etdiyinizə diqqət yetirin. Cümlələrdəki fasilələrin yerini müəyyən edin.

**Tapşırıq №3**."Əlavə oxu üçün mətnlər"dən hər hansı əsərdən bir parça dialoq seçib dəftərinizə yazın. Sonra mətni rollar üzrə oxuyun, intonasiyanın tələblərinə əməl edin.

## Məşğələ 43.

## REPLİKA HAQQINDA, ONUN BAŞLICA NÖVLƏRİ

Həyatı əks etdirmə üsulu baxımından ədəbi növün üçüncüsü olan dramatik növün janrları (dram, komediya, faciə) formaca nəzm və nəsrlə olmasından asılı olmayaraq dialoq şəklində qurulur. Bu, dramatik növün təbiətindən irəli gəlir.

Dramatik əsərlərin oxusunun iki növü vardır:

a) əsərin bir şəxs tərəfindən oxunması;

b) əsərin rollar üzrə oxunması.

Dramatik əsərlərin tədrisində izahlı oxuya da geniş yer verilir. Bu məqamda müəllimin (və ya ifaçının) şərhi ilə "ifadəli oxu"nun əlamətləri vəhdətdə götürülür.

Bu cür əsərlərdə həyat hadisələri və onlara münasibət dialoqa əsasən həyata keçirilir.

Dialoqda iştirak edən şəxslərin hər birinin danışığı ***replika adlanır.***

Replikanın müxtəlif növləri mövcuddur ki, hər növ replikanın isə öz funksiyası vardır.

A) **Qoşulma replika**–elə ikinci replikalara deyilir ki, onlar müsahibin sözlərini (əvvəlki replikanı) sintaktik cəhətdən davam etdirir və onunla birlikdə dialoq vahidi əmələ gətirir.

B) **Təkrar replika**–elə ikinci replikalara deyilir ki, onların quruluşunda birinci replikaya aid olan söz, ifadə və cümlə təkrar edilir və beləliklə, hər iki replika bir dialoq vahidi yaradır.

C) **Sual-cavab replikası**–bu növ replikalarda dil xüsusiyyətlərinə görə replikaların əlaqəsi və cavab replikasının quruluşu sualın quruluşu ilə əlaqədar olub ondan asılıdır.

**Can nənə, bir nağıl de!**

–Ay nənə, bir nağıl de.
–Ömrüm-günüm, yat daha.
Hamısını indi desəm, nağıl qalmaz sabaha.
–Can nənə, de birini də....
–Ağrın alım, sözə bax....
Evimizdə səndən savay, gör heç varmı bir oyaq?
Gecə keçib, ev soyuyub,
hənir gəlmir ocaqdan;
Taxt üstündə məstan pişik, odur, yatır bayaqdan.
Ört üstünü, dərdin mənə, bax, eşikdə yel əsir...
–Qar yağırmı?
–Elə yağır! ... Sazaq qılınctək kəsir...
Belə yağsa, qar sübhəcən yolu-izi örtəcək;
Kirpiklərin lap qovuşub, cırtdan bala, yat görək.
Nənə yığır düyünçəyə iynəsini, sapını,
Külək hərdən taqqıldadır pəncərəni, qapını.
Körpə çəkir təzə, güllü yorğanını üzünə,
Gözlərini yumur ... amma yuxu getmir gözünə.
–Ay nənə, o kimdir elə pəncərəni bərk vurur?
–Heç kim deyil, yat ay bala, yeldir qarı sovurur.
Bir gizilti duyur uşaq vücudunda bu ara,
Həsrət qonan gözlərini zilləyərək divara
Çarpayının baş ucunda öz əlilə asdığı
Şəklə baxır, fikrə gedir, qucaqlayır yastığı...
–Bəs, ay nənə, atam indi haradadır görəsən?
–Bıy, başıma nələr, oğul, yatmayıbsan hələ sən?

–Axı, nənə, heç demirsən atam haçan gələcək?
İndi onu səngərdə bəs üşütmürmü qar, külək?
–Ömrüm günüm, körpə quzum, qurban olum adına,
Niyə köks ötürürsən o düşəndə yadına?
Atan yazır: "Hələ xoşdur bu tərəfdə havalar,"
Deyir: oğlum darıxmasın, görüşərik bu bahar...
Bağçalarda çiçək açır güleyşə nar, yasəmən,
Qaranquşla bir zamanda qayıdaram kəndə mən...
Heç darıxma, dərdin alım, atan gələr, o zaman
Sənə çoxlu nağıl deyər əsgərlikdən, davadan.
Di yat indi, gecə keçir...
–Onda , nənə, ay nənə,
Qoy kəsməyək ağ toğlunu, qalsın atam gələnə...
–Yaxşı, bala, qoy bağlarda çiçək açsın nar, ərik,
Sağlıq olsun, ağ toğlunu atan üçün kəsərik
Mən eyvana xalı sallam, anan evi bəzəyər,
El qaydası süfrə açar, qonum-qonşumuz gələr.

***(Əhməd Cəmil)***

## Tapşırıqlar

**Tapşırıq №1**. Şeiri nəsrə çevirin. Baharın, qışın təsvirinə dair əlavələr edərək ifadə yazın.

**Tapşırıq №2**. Mətni diqqətlə oxuyun. Replika haqqında öyrəndiyiniz biliklərə əsaslanaraq replikaları növlərinə uyğun qruplaşdırıb yazılı izah edin.

**Tapşırıq №3**. Mətni hissələrə və rollara bölün, sonra rollar üzrə oxuyub ideyasını müəyyənləşdirin.

## Məşğələ 44.

## ADİ ÜNSİYYƏT NİTQİ

Hər bir dil mənsub olduğu cəmiyyətin şüurunda lüğət olaraq mövcuddur. Həmin lüğətdəki söz və ifadələrdən hər kəs öz məqsədinə uyğun istifadə edir. Demək, söz özlüyündə deyil, cümlədə digər sözlərlə məna və qrammatik əlaqəyə girərək hər hansı fikrin ifadəsinə xidmət edərkən nitqə çevrilir. Beləliklə, ***nitq danışığın cəminə deyilir***.

***Ünsiyyət prosesi olan nitqin müxtəlif növləri vardır: Bədahətən (hazırlanmamış) söylənilən nitq, əvvəlcədən planlaşdırılan (düşünülmüş) nitq və s.***

Ünsiyyətin dərəcəsindən və məqsədindən asılı olaraq ***nitqin rəngarəng növləri mövcuddur ki, bunlardan biri də adi ünsiyyət nitqidir***.

Adi nitq loru (kobud) danışıq deyil. Bu, gündəlik həyat tərzi ilə əlaqədar işlənilən danışıqdır. Məktəbdə, nəqliyyatda, teatrda və s.

İnsanların görüşərkən, bir-biri ilə hal-əhval tutduğu, müəyyən iş, hadisə şəxs haqqında məlumat verib-aldığı ***nitqə adi ünsiyyət nitqi, yaxud sadə nitq deyilir.***

### Nöqtənin qüdrəti

**Əlişir Nəvai** öz qəzəllərinin üzünü zəmanəsinin ən savadlı xəttatına köçürtdürürdü. Necə oldusa, bir gün həmin xəttat xəstələndi, bundan xəbər tutan və özünü məşhur xəttat hesab edən bir nəfər Əlişirin yanına gəlib:

–Mövlanə, razı olsaydınız qəzəllərinizin üzünü mən köçürərdim, - dedi.

Şair xəttatın dediklərinə razı olub, qəzəllərinin üzünü köçürtmək üçün ona verdi. Bir gün böyük bir şeir məclisində Əlişirin qulağına - Məlikül – şüəranın özü səhv edirsə, başqalarından nə gözləmək olar” sözləri gəldi.

Söhbətin nədən getdiyini o saat anlayan şair təzəcə üzünü köçürtdürdüyü qəzəlini alıb baxsa, nə görsə yaxşıdır. Əli sınmış xəttat "göz" sözündəki nöqtəni qoymadığından "kor" kimi oxunub. Şeirin də mənası dəyişib, tərsinə olub.

Əlişir Nəvai şeir əhlinə baxıb:

–Gözümü kor edənlər kor olsun, - dedi və xəttatı qovdu.

## Tapşırıqlar

**Tapşırıq №1**. Verilmiş sözlərdən uyğun gələnini sualların yerində işlətməklə cümlələri tamamlayıb yazın.

**Əlişir Nəvainin xoşlamadığı adam**

1.(Nə vaxt?) Sultan Hüseyn vəzirlərinin dedi-qodularına inanıb (kimi?) zindana saldırdı.

2.(Nə vaxt?) məlum oldu ki, Əlişirin günahı yoxmuş.

3.(Kim?) əmr etdi ki, onu azad etsinlər.

4.Əlişir isə (hardan?) çıxmaq istəmədi.

5.O, (kimin?) nəyə görə həbs etdirib, nəyə görə azad etdirdiyinə çox təəccübləndiyini bildirib, zindanda qalmağı üstün tutdu.

6.(Kimi? hardan?) çıxartmaq üçün çox çalışsalar da, bunun xeyri olmadı. (Nə zaman? kimin?) məsləhəti ilə Əlişirin yanına bir nəfər axmaq saldılar. Bundan sonra (kim? hardan?) çıxdı.

**Sözlər**: Şair, zindandan, günlərin bir günü, padşah, çox az bir vaxtda, padşahın, şairi, zindandan, ağıllı bir adamın, axırda, Əlişiri.

**Tapşırıq №2**. Birinci mətnə plan tərtib edin və ifadə yazın.

**Tapşırıq №3**. Mətnin məzmunundan, ifadə etdiyi mənadan çıxış edərək məntiqi vurğulu sözləri müəyyən edin.

## Suallar, cavablar

Ömür bir sualdır, ömür bir cavab,
"Niyələr", başlanğıc, "çünkilər" axır.
"Niyə" bu dünyaya gəlib bu cavan?...

Bu su hardan gəlib, haraya axır?

İnsan yox, kölgələr çıxır qarşıma,
Kölgələr dil açıb söz deyə bilmir.
“Niyələr” qılınctək enir başıma,
“Çünkilər” qalxanlıq eyləyə bilmir.

“Niyələr” bir qaya, bir uçurum daşı,
Qopdu öz yerindən qayıtmaz daha,
“Çünkilər” söz gəzir, dili dolaşır,
O da qayıtmazdı, dönməzdi daha...

***(M.Araz)***

## Məşğələ 45

## ÇIXIŞ VƏ ONA VERİLƏN TƏLƏBLƏR

Şifahi nitq elə bir başlıca vasitədir ki, bununla bir tərəfdən dil vərdişləri aşılanır, digər tərəfdən də əldə edilmiş bacarıq və vərdişlər möhkəmləndirilir.

Şifahi nitqin həm inkişaf səviyyəsi baxımından, həm potensial formalaşma dərəcəsi cəhətdən, ən keyfiyyətli və mükəmməl növlərindən biri, bəlkə də birincisi çıxışdır.

***Bu xüsusiyyətlərini nəzərə alaraq çıxışı elə mədəni nitqin özü də adlandırmaq olar. Çıxışa verilən tələblər əslində mədəni nitqin özünə verilən tələblərdir***:

1. Nitq ədəbi dil normalarına uyğun olmalı (Düzgün, dəqiq və ifadəli).

2. İntonasiyanın tələblərinə müvafiq olaraq əl,qol (jest) və üz əzələlərinin mənalı hərəkətlərindən (mimika) düzgün və yerli-yerində istifadə edilməli.

3. Auditoriyanın xarakteri və səviyyəsi nəzərə alınmalı.

4. Çıxışçı öz çıxışına əvvəlcədən hazırlaşmalı və nəticə çıxarmalı.

Formasından (yazılı və şifahi) asılı olmayaraq ***çıxış məzmun ünvanına və semantik mahiyyətinə görə məsuliyyətli nitq sayılır.***

## Atatürkün bir xatirəsi



Mustafa Kamal Paşa malikanənin həyatində gəzərkən əlində əsa yaşlı bir qadının ora yaxınlaşdığını görür, cangüdənlərindən xəlvətcə malikananənin qapısında qoca qadına yaxınlaşır:

–Mərhaba, ana.

Qadın onun üzünə çəpəki baxaraq yüngül bir səslə:

–Mərhaba! – dedi.

Paşa sakitcə soruşdu:

–Hardan gəlib, hara gedirsən?

Qadın bir anlıq duruxub, xəfifcə dedi:

–Niyə soruşdun ki, ... sən buraların sahibisən, yoxsa gözətçisisən?

Paşa dodaqaltı gülümsədi:

–Nə sahibiyəm, nə də gözətçisiyəm, ana! Bu torpaqlar türk millətinin malıdır. Buranın gözətçisi də türk millətinin özüdür. İndi hardan gəlib, hara getdiyini söyləyə bilərsənmi?

Qadın başını astaca yellədi:

–Təbii, söyləyəcəm. Mən Sinsanın kəndindənəm, bəy! Bizim muxtar (qəsəbə nümayəndəsi) mənə bilet aldı, qatara mindirdi, Ankaraya gəldim.

–Muxtar nə üçün Ankaraya göndərdi səni?

–Qazi Paşamızı görməm üçün başını bir az ağrıtdım da... Mənim iki oğlum düşmənlə döyüşdə şəhid oldu. Məmləkəti düşməndən qurtaran adamı bir dəfə görmədən ölməyim, - deyə həmişə dua etdim. Onu görmədən ölsəm, gözlərim açıq gedəcək...

–Sənin Qazi Paşadan başqa bir istəyin varmı?

Qadının birdən üzü sərtləşdi:

–Tövbə, bəy, tövbə ... Buralara bir dəfə üzünü görmək, ona sağ ol, Paşam, demək üçün gəldim. Sən əfəndi bir adama bənzəyirsən, mənə bir kömək et ki, Qazi Paşamı tapım.

Atatürkün gözləri doldu. Yaşlı qadının əlindən tutub, - Anacan, deyir, sən göydə axtardığını, yerdə tapdın. Səni buralara qədər gətirən Qazi Paşa, yəni Atatürk indi qarşında dayanıb.

Qoca qadın bu sözləri eşidincə əlindəki əsanı yerə atıb Atatürkün əllərinə sarıldı.

Kədərli bir mənzərə idi. İkisi də ağlayırdı...

Görüşdükdən sonra qadın torbasından, kiçik bir bağlama çıxartdı. Bağlamada kənd pendiri idi. Atatürkə uzadıb:

–Tək inəyimin südündən öz əllərimlə düzəldib bunu sənə hədiyyə gətirmişəm. Sevərsən, yenə düzəldib gətirərəm.

Paşa dərhal bağlamanı açıb pendirin dadına baxır. Çox bəyəndiyini söyləyir. Sonra birlikdə malikanəyə gedirlər. Oradakılara bir əmr verir: "Bu anamızı iki gün qonaq edin. Sonra kəndinə aparın. Gedərkən də özünə üç inək verin, mənim hədiyyəm olsun".

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Mustafa Kamal (Atatürk) haqqında nə bilirsiniz? Onun hansı xidmətləri olmuşdur?

2.Siz görüş səhnəsinin davamını necə yekunlaşdıra bilərdiniz?

3.Atatürklə bağlı xatirənin sonunu necə qiymətləndirirsiniz?

**Tapşırıq №1.** Mətnin ideyasını müəyyən edin. Mətnin məzmununa əlavə epizodlar daxil edib, təxəyyülünüzə (düşüncə tərzinizə) uyğun yeni süjet fikirləşin.

**Tapşırıq №2.** Mustafa Kamal (Atatürk) Paşa haqqında araşdırma aparıb yazılı çıxış hazırlayın. Oxuduğunuz mətnin qısa məzmununu da (3-4 cümlə ilə) çıxışınızda əks etdirin.

**Tapşırıq №3.** Mətndən tanış olmayan sözləri ayırıb lüğətini tərtib edin və leksik mənalarını lüğətin köməyi ilə öyrənin.

## Məşğələ 46

## PLANLAŞDIRILMIŞ (ƏVVƏLCƏDƏN DÜŞÜNÜLMÜŞ) NİTQ

Nitq məzmunca, formaca müxtəlif olduğu kimi, hazırlanma məqsədinə görə də rəngarəngdir. Belə nitq növlərindən biri əvvəlcədən düşünülmüş nitqdir. Bu cür nitqin mövzusu, auditoriyası, məqsədi qabaqcadan bəlli olur. Natiq hər şeyə özünü hazır vəziyyətə gətirir. Yubileylərdə yubilyarın şəninə edilən çıxışlar, konkret əlamətdar gün və tarixi hadisə ilə bağlı və s. söylənən nitqlər buna misal ola bilər.

Əvvəlcədən düşünülmüş nitqlərdə auditoriyanın xarakteri ilə yanaşı dinləyicilərin yaşı və anlaq səviyyələri də nəzərə alınır.

### Knyazın öldürülməsi

Knyaz (Sisiyanov) çar ordusunda general idi və o zaman Həsənqulu xanın hökmranlığı altında olan şəhərimizi mühasirəyə almışdı. Həsənqulu xan şəhərin darvazasını açdı, knyazı da içəri buraxıb bəyan etdi ki, o ağ çara təslim olur. Knyaz bir neçə zabitinin müşayiəti altında qalaya daxil oldu.

Darvazanın arxasındakı meydanda böyük ziyafət düzəldilmişdi. Tonqallar yanır, bütöv öküzlər şişdə qızardılırdı.

Arxayınlaşmış knyaz yorğun başını Həsənqulu xanın sinəsinə qoymuşdu. O zaman mənim ulu babam İbrahim xan Şirvanşir böyük sivri xəncərini çıxardıb hökmdara verdi. Həsənqulu xan xəncəri götürdü və knyazın başını kəsdi.

... Çar isə qərara gəldi ki, bu qətlin intiqamını alsın. Çoxlu əsgər yolladı. Lakin Həsənqulu xan gününü Allaha dua etməklə keçirdir, yaxınlaşan sabahkı gün haqqında düşünürdü. Çar əsgərləri qala divarını aşanda Həsənqulu xan yeraltı yolla dəniz sahilinə çıxır, oradan da İrana qaçır. Bu yeraltı yol indi dağılmışdır. Lakin yeraltı girişə ayaq basmazdan qabaq o, giriş qapısına tək bircə cümlə yazıb qoymuşdur: "Sabahı düşünən adam heç vaxt igid ola bilməz".

***(Qurban Səid)***

**Sual və tapşiriqlar**

**Cavablandırın:**

1.Mətndəki hansı epizoddan sonra sizdə hadisələrə maraq daha da artdı?

2. "Ağ çar" dedikdə kim nəzərdə tutulurdu?

3."Sabahı düşünən adam heç vaxt igid ola bilməz" ifadəsi hansı məqsədlə işlənib?

**Tapşırıq №1.** Mətni hissələrə bölün və başlıqlar verin. Mətni yazıçının dilində əlavə epizodlarla yenidən işləyin.

**Tapşırıq №2**. Mətni oxuyun. Durğu işarələrinin tələbini və mətnin mənasını diqqət mərkəzində saxlamaqla səsin hansı məqamlarda yüksəlib alçaldığını müəyyənləşdirin.

**Sual - cavab**

**1.İnsanın sualı**

... Öz yerində ağlın, hüşun varıydı,
Nə savaşın, nə vuruşun varıydı.
Sağlam ruhun, tox duruşun varıydı
Dünya, səni bu günlərə kim saldı?

**2.Dünyanın cavabı**

Niyə mənə bu sualı verirsən?
Səpdiyindi, bəhrəsini görürsən.
Cilddən-cildə, dondan- dona girirsən,
Sən qoymusan məni yaman günlərə ...

***(Zəlimxan Yaqub)***

**Tapşırıq №3.** Lüğətdən istifadə edərək **"knyaz", "çar"** və **"darvaza"** sözlərinin mənalarını araşdırın.

## Məşğələ 47.

## BƏDAHƏTƏN (MÜƏYYƏN EDİLMƏMİŞ) NİTQ

Məqsəddən asılı olaraq hazırlanan nitq olduğu kimi, müəyyən edilməmiş, yəni bədahətən söylənən nitq növü də mövcuddur.

Əvvəlcədən düşünülən nitqdən fərqli olaraq, bədahətən nitq heç bir nitq situasiyasına uyğun gəlmir. Bu, gözlənilməz, planlaşdırılmadan söyləndiyi üçün yalnız həyəcanlı nitq situasiyası yarada bilir.

Müəyyən edilmiş nitqdə məqsədə uyğunluq özü konkret nitq şəraiti yaradır. Bədahətən söylənən nitq isə təbiətən gözlənilməz olduğu üçün qeyri-müəyyənlik şəraitində mövcud olur.

Lakin nə isə bir münasibətlə çıxış edənə yerdən qəflətən verilən sualı bədahətən  söylənən nitqə aid etmək olmaz. Çünki çıxışçı konkret məqsəd üçün çıxışa hazırlaşdığına görə hər ehtimalı da əvvəlcədən düşünür. Planlaşdırılmamış nitqdə isə nitq komponentinin heç bir ünsürü, elementi bəlli olmur.

### "Koroğlu" operası necə yarandı?

Bir dəfə Ü.Hacıbəyli dilucu dedi: "Elə bir əsər yaratmalıyıq ki, onunla xalqımızın varlığına qəhrəmanlıq ruhu aşılamaq mümkün olsun".

Biz sakit-sakit sükuta daldıq… Nəhəyət, mən ona sual verdim:

–Nə etmək istəyirsən?

–“Koroğlu” dastanı əsasında bir opera yazmaq xəyalındayam. Sən bilirsən ki, Koroğlunun qəhrəmanlıq siması müxtəlif variantlar içində itib getmişdir…

Üzeyir bu sözlərdən sonra mənə bir daha müraciət etdi:

–Demək ki, biz bunu qərara aldıq! –dedikdə, mən də əlimdəki çay stəkanını yerə qoyub: “Bəli, qərarlaşdıq”, - deyə cavab verdim.

Bir neçə gündən sonra opera teatrının müdiriyyəti məni çağırıb, “Koroğlu” operasının librettosunu yazmaq üçün müqavilənamə bağladı… Əsər parça-parça yazıldı. Beləliklə, libretto yazılıb qurtardığı zaman, demək olar ki, musiqi də tamam hazır oldu.

Aramızda mübahisəyə səbəb olan səhnələrdən biri də “Çənlibel” səhnəsi idi. Mən Koroğlu kimi bir qəhrəmanın birdən-birə tez inanan və sadəürəkli bir adam kimi göstərilməsinə razı ola bilmirdim… Keçəl Həmzəni (mehtərliyə) qəbul etməsini yersiz hesab edirdim. Lakin Qıratı oğurlamaq üçün də başqa bir yol yox idi.

Üzeyir bir çox əsərlərdə göstərilən qəhrəmanların sadəürəkli olmalarından misallar gətirib dodaqaltı gülümsəyərək dedi:

–Qəhrəmanlarda tez inanmaq və sadəürəklilik, təbii bir xarakterdir, eyni zamanda bu hadisə əsərin gedişi ilə üzvi surətdə bağlı olduğundan başqa cür göstərməyimiz mümkün deyil.

***(M.S.Ordubadinin xatirəsi)***
***“Ü.Hacıbəyli haqqında seçilmiş xatirələr”***

**Sual və tapşiriqlar**

1. Üzeyir Hacıbəyli haqqında daha nələri bilirsiniz?
2. Koroğlu kimdir?
3. “Koroğlu” operasını yazmaqda Ü.Hacıbəylinin məqsədi nə idi?

**Tapşırıq №1**. Plan tərtib edin və mətnə yaxın ifadə yazın.

**Tapşırıq №2**. Həyatınızda, yaxud dostlarınızın həyatında bədahətən nitq həyəcanı yaşanıbmı? Əgər olubsa, süjet hazırlayın.

**Tapşırıq №3**. Fasilələrin yerini müəyyənləşdirin və onlara əməl etməklə misraları ucadan oxuyun.

**Vədəsiz çiçək**

Bəlkə də dönməzdim bu həvəsimdən
Qanunlar, adətlər, hədlər olmasa.
Oğlumun, qızımın ata səsindən
Araya çəkilən sədlər olmasa.

Yağdır ünvanıma sözün var nə ki,
Bir ömrün ikinci baharı yoxdur.
Neyləyim məhəbbət evinin də iki
Əldən ələ keçən açarı yoxdur.

Sən indi vədəsiz, qar altdan çıxan
Məsum bir çiçəyə bənzərsən, gülüm!
Dərməsəm, qorxuram soldura tufan,
Əlimdə solarsan, dərərsəm, gülüm…

**(*Məmməd Araz*)**

**Məşğələ 48.**

## NITQ ETİKETLƏRİ HAQQINDA ÜMÜMI MƏLUMAT

Xalqın milli mentalitetinə, təfəkkür və etnoqrafiyasına uyğun müəyyən nitq etiketləri və bu etiketləri tənzimləyən qaydalar vardır. Bu qaydalara, normalara gündəlik ünsiyyətdə əməl etmək hər bir savadlı şəxs üçün vacib və mühüm şərtlərdəndir.

İnsanların öz doğmaları, yaxınları, dostları, həmyerliləri və b. ilə intensiv ünsiyyəti zamanı böyük əksəriyyət tərəfindən anlaşılan ifadələr işlətmələri bir sıra nitq etiketlərinin (yarlıqlarının) formalaşmasına səbəb olmuşdur. Mənşəyinə görə ***fransız sözü olan etiket*** (etiquette) ilkin mənasında mal taylarına bağlanan taxta parçası-birka mənasını verirdi. Sonralar isə xüsusi saray mərasimlərini belə adlandırmağa başladılar. “Etiket” sözü də məhz bu mənada xüsusilə fransız mərasimlərinin Vyana sarayında qəbul edilməsindən sonra geniş yayılaraq, alman, polyak, rus və başqa dillərdə eyni anlamda istifadə olundu. Bu ifadədən hazırda biznes fəaliyyəti ilə məşğul olan insanlar tərəfindən “malın tarix və keyfiyyətinin göstəricisi” anlamında da istifadə olunur.

Dilçilik ədəbiyyatında “etiket” dedikdə nitq davranışının qaydaları, ünsiyyətin nitq formulları sistemi başa düşülür. Nitq etiketləri milli səciyyəyə malikdir. Hər bir xalq öz milli adət-ənənələrinə uyğun davranış qaydaları sistemini yaratmışdır. Bu keyfiyyət nitq etiketlərinin ayrı-ayrı ünsürlərində, onun işlənmə mövqeyində və məqamında da öz əksini tapır.

**Sual və tapşiriqlar**

1. Nitq etiketi nədir və onun ikinci adı necə adlanır?
2. Nitq etiketlərinin yaranmasında hansı meyarlar əsas götürülür?
3. Nitq etiketlərinin əhəmiyyəti nədir?

## “ Zəmanə adamı” ndan parça

... Arakəsmənin tininə dirsəklənib, şirin dilini işə saldı:

- Acizanə üzr istəyirəm, xanım, icazə verin, bir dəqiqəliyə vaxtınızı alım.

Qadın məşğuliyyətindən ayrılmadı. Ona müraciət edənə başını qaldırıb, heç gözucu da baxmadı. Rəsmiyyətlə:

- Buyurun, eşidirəm, - dedi.

Əfsun yalvarışlı təkidlə:

- Əliboş qaytarmayın məni. Sizə zəhmət də olsa, axtarın o kitabı, vacibdən-vacib lazımdı... Çox xahiş eləyirəm.

Qadın soyuq dilləndi:

-O kitabın adını birinci dəfədi eşidirəm, çətin ki, bizdə olsun...

Əfsun fağırladı:

-Dönə-dönə üzr istəyirəm. O kitabı tapıb oxumasam, ordan müəyyən qeydlər götürməsəm...

***(Vidadi Babanlı )***

**Tapşırıq №1**. Nitq etiketlərini mətndən seçib dəftərinizə yazın.

**Tapşırıq №2**. Parta yoldaşınızla dialoq qurun. Dialoqda danışıq etiketlərindən istifadə edin.

**Tapşırıq №3**. Milli etnoqrafiyanıza uyğun nitq etiketlərindən istifadə etməklə öz dilinizdə mətn tərtib edin. Sonra mətni Azərbaycan dilinə çevirin.

## Məşğələ 49.

## MÜRACİƏT ETİKETLƏRİ

Unutmamalıyıq ki, ürəyə yol tapmaq birinci növbədə dindirməkdən-müraciətdən başlanır. Müraciətin özünəməxsus məqamları vardır: şəxsiyyətin yaşı, cinsi, vəzifəsi, mövqeyi, nitq aktının baş verdiyi məkan (ev, tədris ocağı, idarə, müəssisə, küçə, iclas, dərs prosesi və s.) müraciət edənlə müraciət olunan arasındakı münasibət (qohumluq, dostluq, rəsmi-münasibət və s.) nəzərə alınmalıdır.

Danışanda əl-qol atmaq, çiyinlərini tez-tez çəkmək, qaş-göz oynatmaq, əlini bığına, qaşlarına, dodaqlarına sürtmək, həmsöhbətinin diqqətini cəlb etmək üçün onun çiyninə, böyrünə toxunmaq mədəni danışığın təsir gücünü azaldır. Şad və ya bəd xəbəri sahibinə çox ehtiyatla, həssaslıqla, nəzakətli tərzdə çatdırmaq lazımdır.

Müsahib yaşca böyük olduqda və ya ortada tanışlıq olmayanda

ona ***"Siz" deyə müraciət olunur.*** Bu, milli səciyyə daşıyır və çox qədim adətdir. Hələ Mahmud Kaşğari XI əsrdə "Divanu-lüğət-it-türk"də göstərirdi ki, türklər özlərindən yaşca böyüklərə ***"siz"***, kiçiklərə isə ***"sən"*** deyə müraciət edirlər.

Həmin norma bütün müraciət formalarında gözlənilir: bağışlayın, buyurun, əyləşin, lütfən sözünüzə davam edin və s.

Müraciət etiketləri rəsmi və qeyri-rəsmi olmaqla iki cürdür:

***1.Rəsmi müraciət etiketləri:*** cənab, xanım, vətəndaş, yoldaş. Bunlardan ikisi (vətəndaş, yoldaş) fəal nitq mövqeyindən çıxmaq üzrədir. "Yoldaş" sözü demək olar ki, işlədilmir.

***2.Qeyri-rəsmi müraciət etiketləri***-işlənmə mövqeyinə və məqamına görə birinciyə nisbətən genişdir. Oğlum! Qızım! Qardaşoğlu! Bacıoğlu! A bala! Qardaş! Əmi! Dayı! Əzizim! Dərdin alım! Başına dönüm! Qadan alım! Qadası!

**Sual və tapşiriqlar**

1. Müraciət etiketi məzmunca neçə cür olur?
2. Hansı məqam və şəraitdə "Siz" deyə müraciət olunur?
3. Rəsmi müraciət etiketlərindən nə zaman istifadə olunur?

**" Zəmanə adamı" ndan parça**

- Dürüstdü, yoldaş müstəntiq, -dedim. Bərk cırnadı. Qəzəblə çımxırdı:
- Mən sənin kimilərlə yoldaş ola bilmərəm. "Vətəndaş müstəntiq" – deyə müraciət elə!
- Əlimi döşümə qoyub, baş əydim. Çarəm nə idi?
- Baş üstə, vətəndaş müstəntiq... Sizə necə lazımdırsa, o
- cürə ifadə verəcəm,- dedim.

**(*Vidadi Babanlı* )**

Üzümü xoş görüb xoşbəxt deyirsən
Ağrı içimdədi, yara içimdə.
Dərdimi soruşma, a dərdin alım,
Gəl axtar içimdə ara içimdə....

***(Nəriman Həsənzadə )***

**Tapşırıq №1**. Mətnlərdə işlənən nitq etiketlərini seçib yazın.

**Tapşırıq №2**. Qeyri-rəsmi müraciət etiketinə aid nümunələr işlətməklə dialoq qurun.

**Tapşırıq №3**. Rəsmi müraciət etiketinə aid nümunələr işlətməklə dialoq qurun.

## Məşğələ 50.

## GÖRÜŞMƏ ETİKETLƏRİ

Ailə üzvlərinin, dostların, qohum-əqrəbaların, işdə kollektiv üzvlərinin və s. ilk rastlaşdıqları, qarşılaşdıqları zaman ünsiyyətə giriş və hazırlıq məqsədi daşıyan söz və ifadələrin işlədilməsinə ***deyilir.***

Rastlaşmanın məkan və mövqeyi müxtəlif olduğu üçün görüşmə etiketləri də rəngarəng olur:

a) Toyda, digər xeyir işlərdə, şənliklərdə işlənənlər:

Həmişə toylarda! Həmişə şadlıqlarda!

b) Yas mərasimlərində işlənənlər: Şadlıqlarda görüşək! Xeyirlikdə görüşək!

c) İstirahət məkanlarında qarşılaşarkən işlənənlər: Həmişə istirahətdə! Həmişə dincəlməkdə!

d) Gözəllik məkanında işlənənlər: Həmişə gözəllikdə!

Bəzi görüşmə etiketləri isə məkanından və mövqeyindən asılı olmayaraq, ilk qarşılaşıma zamanı işlədilir. Salam! Xoş gördük! Gün aydın! Xoş gəlmisiniz! Salam-əleyküm!

e) Zaman-vaxt uyğunluğuna görə işlənənlər: Sabahınız xeyir! Axşamınız xeyir! Aqibətiniz xeyir! Hər vaxtınız xeyir!

**Sual və tapşiriqlar**

1. Görüşmə etiketi hansı məqam və şəraitdə işlənir?
2. Görüşmə etiketinin növləri hansılardır?

3. İlk qarşılaşdığınızda görüşmə etiketinin hansı növündən istifadə etməlisiniz?

**“ Zəmanə adamı” ndan parça**

..Gözaltısını küçənin münasib yerində-gediş-gəliş seyrəkliyində xapa-xapdan yaxaladı:

- Axşamınız xeyir!

Qadın hürkdü, yana çəkildi. Əfsun ədəbli davrandı:

-Bağışlayın, hərəkətim bir az kobud alındı. Sizi qorxutdum... Çox-çox üzr istəyirəm.

Qadın addımlarını xeyli yavaşıtdı. Başını bekaraca qanırıb həlim təbəssümlə dilləndi:

- Hə, indi tanıdım... işləriniz necədi?

Əfsun sevindi. Qadının dillənməsi kefini açdı:

-İşlərim əladı! Hər şey qaydasındadı...

**Tapşırıq №1**. Mətndəki nitq etiketlərini seçin və onları işlənmə mövqeyi baxımından izah edin .

**Tapşırıq №2**. Görüşmə etiketinin işləndiyi mətn tərtib edin.

**Tapşırıq №3**. Milli dilinizdə görüşmə etiketinin işləndiyi mətn tərtib edin. Sonra mətni Azərbaycan dilinə tərcümə edin.

## Məşğələ 51.

## AYRILMA ETİKETLƏRİ

Doğmaların, dostların, yaxınların bir-birindən ayrılma ərəfəsində işlətdikləri ifadə-formullara ***deyilir.***

Münasibətin dərəcəsindən asılı olaraq etiketlər də məzmunca fərqlənir. Qardaş və bacıların, dostların, sevgililərin, ata-ananın və s. işlətdikləri etiketlər qohumluq münasibətinə görə tənzimlənir: Xudahafiz! Əlvida! Sağ olun! Allah amanında! Gecəniz xeyirə qalsın! Xeyirə qənşər (qabaq, doğru) gedin! Uğur olsun! Yaxşı yol! Görüşənə qədər! Sabahadək! Görüşərik! Zəngləşərik! və s.

***Təbrik etiketləri:*** Toy şənliklərində, ad günləri və yubiley təd-

birlərində doğmaların, yaxınların, dostların və qohum-əqrəbanın bir-birlərinə olan doğma münasibətlərini, istək və arzularını ifadə etmək üçün istifadə olunan söz-formullara ***deyilir.*** Həmin duyğular bu sözlərlə, tərkiblərlə ifadə olunur:

Təbrik edirəm! Öpürəm səni! Gözünüz aydın! Mübarəkdir! Mübarək olsun!

Bəzən bu cür hiss-həyəcanlar başqa məqsədlər üçün ifadə olunur. Belə ki, yaxınlar arasında ev, maşın və digər dəyərli əşyalar alan olduqda eyni münasibət ifadə olunur. Sadəcə olaraq bu hisslər başqa ifadə-formullar vasitəsilə bildirilir:

Xeyirli olsun! Xeyrini görəsiniz! Sağlıqla işlədəsiniz! Şad günlər üçün! Sağlıqla! və s.

## Sual və tapşırıqlar

1. Ayrılma etiketi nəyə deyilir?
2. "Sağ olun", "hələlik", "görüşənədək", "xudahafiz" etiketləri hansı məqamlarda işlənir?
3. Müsahibinizdən ayrıldığınızda ilk olaraq hansı ifadəni işlədirsiniz?

## "Əlvida demirəm, görüşəcəyik..." şeirindən parça

...İndi ağlayırıq biz için-için,
Sonu gələcəkmi bu qəmli köçün?
Hələlik deyirəm, təsəlli üçün,
Əlvida demirəm, görüşəcəyik...

...Bu qəmin əlində sola bilmərik,
Bir başqa sevgidə yana bilmərik.
Mən sənsiz, sən mənsiz, qala bilmərik,
Əlvida demirəm görüşəcəyik.

***(Nüsrət Kəsəmənli)***

**Tapşırıq №1**. Ayrılma etiketlərindən istifadə etməklə mətn tərtib edin .

**Tapşırıq №2**. "Əlavə oxu üçün mətnlər" bölməsindən ayrılma etiketlərinə aid nümunələrin işləndiyi mətnlər seçin və onların işlənmə məqamlarını izah edin.

**Tapşırıq №3**. Yuxarıdakı şeir parçasında işlənmiş nitq etiketlərini və onların növünü müəyyən edin.

## Məşğələ 52.

## ALQIŞ VƏ QARĞIŞLAR ETİKETİN BIR NÖVÜ KİMİ

***Alqışlar və qarğışlar da nitq etiketləri təsnifinə daxil edilir.*** Bunların məzmunu daha çox milli xarakter daşıyır. Xalqımızın milli, maddi-mənəvi abidəsi sayılan, yazılı ədəbiyyatımızın ilk nümunəsi olan "Kitabi-Dədə Qorqud" dastanında bu etiketlərin geniş istifadəsinə təsadüf edilir.

Məsələn; ***"Salur Qazanın evi yağmalandığı boyu bəyan edər"*** boyunda Qazan xanın çobana dediyi sözlərə (qarğışa) nəzər salaq: ***"Ağzın qurusun, çoban! Dilin çürüsün, çoban! Qadir sənin alnuna qada yazsun, çoban".***

Yaxud:

Dəli Domrulun qadınının ərinə dediyi sözlərə diqqət edək:

***"...Soyuq-soyuq suların***
***İçər olsan, qanım olsun...***
***Mənim canım sənin canına***
***Qurban olsun"***

Müasir ünsiyyət prosesində ən çox işlənən qarğış və alqış etiketləri aşağıdakı ifadə-formullarla söylənilir:

a)Alqışlar: ***Allah sizə kömək olsun! Yastığınız yüngül olsun! Allah rəhmət eləsin! Görüm nə eləyim-necə eləyim deməyəsiniz! Allah üstünüzdə olsun! Və s.***

b)Qarğışlar: ***Allah öldürsün! Allah evini yıxsın! Gözün tökülsün! Səni görüm şikəst olasan! və s.***

Bir qisim nitq etiketləri uzun müddət-minilliklər boyu

dəyişmir. Bəziləri isə ictimai quruluşun dəyişməsi ilə əlaqədar ya birdəfəlik işlənmir, yaxud da fəal işlənmə tezliyi zəifləyir, az-az istifadə edilir. Məsələn, son illərə qədər fəal işlənən "yoldaş", "vətəndaş" sözləri, demək olar ki, hazırda qeyri-fəaldır. Elələri də vardır ki, "konkret" siyasi-tarixi şəraitlə bağlı olaraq, həmin dövrdə aktiv olur. Siyasi-tarixi şərait dəyişdikdə isə işlənmir. Bəy! Sözü belə etiketlərdən sayılır.

"Xanım" sözü vaxtilə ancaq varlı ailələrin qadınlarına məxsus müraciət forması kimi işlədilirdisə, indi bu söz daha geniş məna qazanmışdır. Hazırda "xanım" hörmət və nəzakət əlaməti olaraq bütün qadın adlarına əlavə edilir.

Nitq etiketlərindən yerli-yerində istifadə olunması ünsiyyətin normal gedişinə, anlaşmaya kömək edir, ünsiyyəti maksimuma çatdırır və səmimi münasibət yaradır.

**Sual və tapşırıqlar**

1. Alqış və qarğışlar hansı şərait və məqamlarda işlənir?
2. "Yastığın yüngül olsun" , "başın sağ olsun", "Allah yardımçın olsun" ifadələri qarğış, yoxsa alqış etiketidir?
3. "İşin avand olsun" ifadəsini necə şərh edərdiniz?

**Tapşırıq №1**. Alqış və qarğışlardan geniş istifadə edilmiş bədii əsər tapın. Auditoriyada həmin əsəri oxuyaraq nitq etiketlərini seçin və mənalarını müəyyənləşdirin.

**Tapşırıq №2**. Həyat və məişətdə istifadə olunan alqış və qarğış etiketlərindən istifadə etməklə dialoq qurun.

**Tapşırıq №3**. Milli alqış və qarğış etiketləriniz işlənən mətn tərtib edin. Sonra mətni Azərbaycan dilinə çevirin.

## Məşğələ 53

## NİTQ ETİKETLƏRİNDƏN DÜZGÜN VƏ MƏQAMINDA İSTİFADƏNİN ANLAŞMANIN VƏ ÜNSİYYƏTİN KEYFİYYƏTİNƏ TƏSİRİ

Nitq ünsiyyətin canlı yayımıdır, onun təcrübi vasitəsidir. Nitq etiketləri isə bu yayımın "texniki avadanlığı" funksiyasını yerinə

yetirir. Texniki avadanlıq saz olduqda texnika aktiv fəaliyyət göstərdiyi kimi, nitq etiketləri (yarlıqları) münasib söz və ifadələrdən ibarət olarsa, məqamında, yerində işlənərsə anlaşma asan, ünsiyyət qənaətbəxş alınar:

Nitq mədəniyyətinin mədəni keyfiyyətləri məhz nitq etiketləri vasitəsi ilə təzahür edir.

Nitq etiketlərindən öz vaxtında, məkanında və məqamında istifadə ünsiyyətin səviyyəsini yüksəldir, qarşılıqlı anlaşmanı maksimuma çatdırır.

## Bayquşların söhbəti

Bir gün Nuşirəvan şah qoşunu ilə ova çıxmışdı. O, vəzirlə birlikdə at qova-qova öz dəstəsindən uzaq düşdü. Onlar at çapır, ov axtarırdılar.

Şahla vəzir xaraba bir kəndə yetişdilər. Xarabalıqda iki bayquş oturub söhbət edirdi. Şah bayquşların nə danışdıqlarını vəzirdən soruşdu. Vəzir quşların dilini bilirdi. O dedi:

-Bax, bu bayquş öz qızını o birinin oğluna ərə vermişdir. Həmin bayquş qızın əvəzində ona neçə xaraba kənd verəcəyini soruşur. O biri bayquş isə ona cavab verir ki, heç fikir edib, qəm-qüssə çəkmə. Nə qədər ki, ölkəni bu padşah idarə edir, onun sayəsində mən sənə yüz min xaraba kənd verməyə hazıram.

Bayquşların bu söhbəti Nuşirəvana çox təsir etdi. O, başına döyüb ağladı. Şahın naləsi göylərə yüksəldi. O başa düşdü ki, çox zülm edib, evlər yıxmışdır. Ölkəni viran qoymuşdur.

Nuşirəvan tez atını döndərib oradan uzaqlaşdı. O, ovdan qayıtdıqdan sonra zülmünü azaltdı, yoxsullardan daha vergi almadı, ədalətli olmağa çalışdı.

***(Nizami Gəncəvi "Sirlər xəzinəsi"ndən)***

**Sual və tapşırıqlar**

**Cavablandırın:**

1.Bayquşların söhbətinin nəticəsində nə dəyişiklik baş verdi?

2. Özünüz üçün nəyi ibrət götürdünüz?
3. Hansı epizod sizin üçün daha maraqlıdır?

**Tapşırıq №1.** Mətni dialoji nitq şəklinə salın. Repliklərın əvvəlinə uyğun nitq etiketi artırın. Əldə etdiyiniz biliklər əsasında əlavə etdiyiniz nitq etiketlərini yazılı izah edin.

**Tapşırıq №2.** Hekayəni süjeti yenidən işləyərək genişləndirməklə tamamlayın.

## Növbətçi qız

Payız gəlmişdi. Havalar soyumuşdu. Hər gün duman olurdu. Tez-tez yağış yağırdı. Bu gün də tezdən yağış yağmışdı. Sinif yoldaşımız Paşa palçıqlı ayaqqabıları ilə sinfə girmək istəyirdi. Qoluna qırmızı lent bağlamış Nüşabə onu saxladı:

-Paşa, get, ayaqqabılarını təmizlə,sonra sinfə gir...

**Tapşırıq №3.** "Dostlarla görüş", "Ekskursiyada", "Universitetdə" başlıqları altında dialoq qurun. Qurduğunuz dialoqlarda müvafiq nitq etiketlərindən istifadə edin. Sonra istifadə etdiyiniz nitq etiketlərindən yazılışı düzgün tələffüzündən fərqlənənləri yazılı göstərin.

# ƏLAVƏ OXU ÜÇÜN MƏTNLƏR

## Ana və poçtalyon

Dörd ay vardı ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.
Sorurdu: "Balam hanı?" hər cəbhədən gələndən
Ondan xəbər gəlməyir, xəbər gəlir öləndən
"Yerəmi batdı oğlum, göyəmi çıxdı oğlum?
Bəlkə, mən yanılmışam, əzəldən yoxdu oğlum?"
El bilir, uşaqlıqdan o, naxələf olmayıb,

Ürəyimə damıb ki, oğlum tələf olmayıb.
Buludlu səma idi onun dalğın baxışı
Gözlərindən yağırdı bir ilk bahar yağışı,
Qəlbindəki ilk yara təzəydi, builkiydi,
Onu bu hala salan nöbarıydı, ilkiydi,
Qalxırdı yatağından dan yeri sökülәndə…
Hər qapı açılanda, hər qapı döyüləndə
Dikilirdi ananın gözləri bir nöqtəyə,
Sevinirdi:- "Oğlumdan bəlkə məktub var!"- deyə
Dörd ay vardı ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.

Tanımayan tapılmaz məhlədə poçtalyonu
Hamı istərdi onu, hamı sevərdi onu,
Onu tanıyırdılar adamlar addımından
Bir bayramdır çantası dolu gəldiyi zaman
Anaya şad xəbərlər gətirmişdi vaxtilə,
İndi kağız almayan ana gələrək dilə
Söylədi poçtalyona bir neçə acı kəlmə:
-Məktub olmasa, bir də sən bu həyətə gəlmə!
Poçtalyon söz demədi, dilsiz dayanıb durdu,
Elə bil dağ başında onu ildırım vurdu. …
Deyirdi öz-özünə: - Ananın haqqı vardır
Geniş dünya oğulsuz onun qəlbinə dardır…
Günlər keçdi…poçtalyon bu həyətə gəlmədi,
Ana gözüylə onu çox aradı, görmədi,
Bütün həyətdəkilər öyrənmişdilər ona,
Hamı dedi: "Görəsən, nə oldu poçtalyona?"
Ana düşündü: "Bəlkə qəlbini qırdım onun,
Bəlkə, bir macəra var başında poçtalyonun
Bəlkə, onun da oğlu qanlı döyüşlərdədir
Kim bilir, bəlkə, o da mənimlə bir dərddədir…
Xəstədir, baxan yoxdur, bəlkə də, poçtalyona,
Evlərini bilsəydim, bir baş çəkərdim ona.
Oğlumun ətri gəlir onun hər gəlişindən

Ümid, təsəlli yağır mehriban gülüşündən.
Dərdli ananın artdı indi birə on dərdi
Bir dogma oğul dərdi, bir də poçtalyon dərdi…
Bir gün küçə qapısı açıldı çox sürətlə,
Qonşular çıxdı evdən təəccüblə, heyrətlə,
Gördülər ki, poçtalyon əlində məktub gəlir,
Elə bil caynağında qartal ov tutub gəlir,
Aldılar bir qırpımda poçtalyonu dövrəyə
Məktub kimdəndir? Söylə, niyə dinmirsən, niyə?
Zilləyib gözlərini ananın gözlərinə
Poçtalyon qanad taxdı öz ürək sözlərinə:
-Bundan neçə gün əvvəl məndən küsən, inciyən,
“Məktub olmasa, bir də bu evə gəlmə” – deyən
Mərhəmətli, möhtərəm anaydır bu kağız!
Hamı bir səslə dedi: “Gözlərin aydın, ay qız!”
Ana gözləri yaşlı, ətir saçdı dilindən,
Tez öpdü poçtalyonun məktub verən əlindən.

***(Süleyman Rüstəm)***

**“İNSAN” (fəlsəfi romantik pyesindən parça)**
**(ikinci şəkil)**

Böyük Şahbazın otağı. Sol tərəfdə piano. Çoxlu kitablar görünür. Əhvalat 1941 – ci ildə baş verir.

**Şahbaz**

Nə deyir, nə deyir ağlın qüdrəti?
Qalib gələcəkmi cahanda kamal?
Sən ey mənaların saf ülviyyəti!
Nədir düşüncəmi yaxan bu sual?
Qalib gələcəkmi cahanda kamal?

Toplar, təyyarələr gəlmiş baş-başa,
Al qana qərq olmuş bütün kainat.

Bu ki həqiqətdir… deyil tamaşa
Bəlkə də məhv olur müqqəddəs həyat?
Atını dördnala sürdükcə zaval,
Qalib gələcəkmi cahanda kamal?

Dağılın başımdan qara şübhələr,
İdraka sığmayır bu düşüncələr!
Sən ey başladığım dumanlı əsər,
Söylə, nələr deyir bizə istiqbal?
Qalib gələcəkmi cahanda kamal?

***(Səməd Vurğun)***

## OYNAMA "YANIQ KƏRƏMİ"-YƏ

Yanıb külə dönmüş naz havasıdı,
Gülünü qar döymüş yaz havasıdı.
Göyləri ağladan yas havasıdı,
"Yanıq Kərəmi"yə oynama, nolar!

Əslinin köksündə çaxan şimşəkdi,
Odu içimizə axan şimşəkdi.
Kərəmi yandırıb – yaxan şimşəkdi,
"Yanıq Kərəmi"yə oynama, nolar!

Bu yanan Kərəmin manqalıdı, qan,
Bu yanan Kərəmin tonqalıdı, qan.
Kərəm bu tonqala can qaladı, can,
"Yanıq Kərəmi"yə oynama, nolar?

Göylər ovuc- ovuc söz daşı tökür,
Elə bil soyunub daş-qaşı tökür.
Simlər puçur-puçur göz yaşı tökür!
"Yanıq Kərəmi"yə oynama, nolar!

Zaman həm ağladır, həm də oynadır,
Zilə köklənəni bəmdə oynadır.
Demə ki, adamı qəm də oynadır,
"Yanıq Kərəmi"yə oynama, nolar!

***(İslam Sadıq)***

## MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ

### Molla tayfası

Bir gün bir nəfər molla, necə olursa, məscid həyətində dəstəmaz alanda çarhovuza düşür. Çarhovuz dərin imiş, molla da üzmək bilmirmiş. Molla batır, çıxır, qışqırır. Camaat yığılır. Hər nə qədər qışqırırlarsa: "molla, əlini ver, çəkib çıxardaq", Molla heç kəsə əlini vermir. Özü də batır, çıxır, az qalır boğulsun. Camaat qalır məəttəl. Bu dəmdə Molla Nəsrəddin yetişir. İşi belə görcək, çarhovuzun kənarına gəlib deyir:

- Molla, molla, tut əlimdən çıxardım səni.
- Molla Nəsrəddin bu sözü deyib əlini uzadır, molla onun əlindən tutub çıxır. Adamlar qalır məəttəl ki, bu necə işdir. Bir nəfər molladan xəbər alır:
- Niyə bu qədər adam hər nə qədər qışqırdısa, əlini vermədin, Molla Nəsrəddin "tut" deyən kimi o saat əlini uzatdın?
- Molla dinmir. Molla Nəsrəddin onun əvəzinə cavab verib deyir:
- Camaat, təəccüb eləməyin. Siz ona deyirdiniz ki: "Molla, ver əlini çıxardaq". O da əlini sizə vermirdi. Amma mən dedim: "Molla, al, tut əlimdən". O da əlini verdi. Məsələ burasındadır ki, bu molla tayfası "ver" sözünə öyrəşməyib, "al" sözünə öyrəşib.

### O bizim eşşəyin quyruğudur

Bir məclisdə özünü alim göstərən dərvişlərdən biri ilə Mollanın mübahisəsi düşür. Molla Nəsrəddin gündə bir fırıldaqla

camaatı aldadan bu dərvişi hər tərəfdən bağlayır və onun tamam yalançı, savadsız bir adam olduğunu sübut eləyir. Dərviş işi belə görüb Molla Nəsrəddini pərt eləmək üçün deyir:

- Sən barı danışma! Sənin ki, bu dünyada əlindən heç bir iş gəlmir.
- Düz deyirsən. Sənin əlindən gələn işlər mənim əlimdən gəlməz. Ancaq məni hamı tanıyır, gəlsənə bir sən özünü nişan verəsən, görək kimsən, nəçisən?
- Dərviş deyir:
- Mən övliyayam. Mən hər gecə bu aləmdən, bu günahkarlar dünyasından çıxıb göylərə uçuram.
- Molla Nəsrəddin özünü tamamilə inanmış kimi göstərərək soruşur:
- Yaxşı, heç dördüncü göyə gedibsənmi? Dərviş lovğa-lovğa deyir:
- Getmişəm, özü də bir dəfə yox,çox dəfə getmişəm.
- Molla yenə də inanmış adam kimi soruşur:
- Heç orada uçanda dodaqlarına yumşaq bir şeyin dəydiyini hiss edibsənmi?
- Dərviş Mollanı üstələdiyini görüb, tez "bəli, bəli!" deyə cavab verir.
- Molla Nəsrəddin camaata göz basıb dərvişə deyir:
- Hə, bax, o bizim eşşəyin quyruğudur.

***(Lətifə kitabxanası)***

## NƏRDİVAN

Bu dünya nərdivandı, -
Qalxanda mehribandı,
Enəndə yamandı…
Görüşdük pillələrdə,
Yolun yarısında biz.
Mən enirdim xəbərsiz,
Onu arzularına
Qaldırırdı nərdivan.

Məni xatirələrə
Endirirdi
Bu zaman,
Birimiz – günçıxana,
Birimiz – günbatana…
Qalxa bilməzdim daha,
nə o gün, nə o taqət.
O da enə bilməzdi, -
haqlı, haqsız
vermişdi
öz hökmünü təbiət.
Gərək ya düşməyəydi
bu görüş heç araya;
ya o, əvvəl gələydi,
ya mən sonra, dünyaya.

***(Nəriman Həsənzadə)***

## TİKANLI MƏFTİLLƏR

**(“Təbriz günləri” silsiləsindən)**

Sərhəddə haray salır
Ürək vətəndən ötrü
Məndən qabaq çəkilib
bu sərhəd – məndən ötrü.

Tikan göyərib allah,
məftillərdə - kəşfə bax!
Harda düzəlib gəlir,
Hansı el, hansı mərkəz?!
Kürəmizin belinə
dolasalar, tükənməz.

Gözə batır tikanlar,
Gəl ey Babək, hardasan!
Can, məftilli vətənim,
tikanlı vətənim, can!

Torpaqları ayırmaq,
sərhəd çəkmək adəti!-
Mədəni millətlərin
budur qul təbiəti.

***(Nəriman Həsənzadə)***

## ŞİKAYƏT

*"Sər bə zəmin düm bə hava mikünənd*
*Yəni ibadət bə xuda mikünənd"*

Rəmazan daxil olub, yarmarkalar… bağışlayın, səhv etdim.. məscidlər açılıb, marallarım mətalarını hazırlayırlar. Yəni moizə kitablarını rəfdən alıb, tozlarını təmizləyir, başlayırlar əzbərləməyə.

Burada bir haşiyə çıxım. Siz belə güman edirsiniz ki, axundlar etdikləri vəzləri sinələrindən, yainki başlarından buyururlar. Səhvsiniz. Qoy həqiqəti bilməyənlər bilsinlər ki, bir nəfər atası rəhmətlik beş–altı yüz il bundan əqdəm götürüb bir vəz kitabı yazıb! O kitabda tamam otuzədəd vəz var. İndi axundlar o kitabı qabaqlarına qoyub hər axşam bir dənə vəz əzbərləyib, sabahdan gəlib camaata nəql eləyirlər. Mən bu haşiyəni axundları məzəmmət edənlər üçün çıxıram.

Onlar axundlara sərzəniş edir ki, heç bir təzə söz meydana çıxartmırlar. Nə eləsinlər ki, tanrı bəndələri? Başda yox, sinədə yox, təzə söz ki, yerdən çıxmaz.

Axund iftarı yeyib təsbehi alır əlinə, başlayır hesablamağa: bəzzaz Palazqulaq oğlu–otuz manat, Fərə Cəfər-əlli manat, süpürgəsaqqal Rəhim–on manat, dana Bayram–on manat, körükburun oğlu–on manat, çürük Mehdi–on manat, yetim Dadaş – beş mant, cıq-cıq Fərzalı– beş manat, içgənə Kərim – beş manat,

zurna Balaxanımın uşaqları – on manat, qaban Kazım bəy-bir at, ya əvəzində iyirmi manat, quzğun Səfi bəy – bir çuval buğda, keçəl Mir Heydər – bir şaqqa keçi əti…

Bu növ müridləri bir – bir sayandan sonra üzünü ortancıl arvadına tutub deyir:

- Ay balam, nə qədər hesab eliyirəm, altı yüz manat da düzəlmir.
- Bilməyirəm, necə eləyim. Mənim ümidim bu ramazan ayınadır. Buna xatircəm olub, min manatadək borc eləmişəm və nisyə mal almışam. Belə getsə, axırda acımızdan qırılarıq. Üç arvad, səkkiz uşaq. Bunlar necə dolansınlar? Keçmişdə hər rəmazanda əlimə min beş yüz manatdan artıq pul gəlirdi. Bazar gəldikcə kasadlaşır, camaat dindən, məzhəbdən çıxıb, üləmaya etina eləmir. Allah evlərini yıxsın bu urusca oxuyub camaatı yoldan çıxardanların… Məscidə gedirsən – bomboş. Amma tiyatırdı, nə dağılmışdı, ağzınadək dolu! Buna nə deyərlər? Yəqin dünyanın axırı və Dəccalın xürucu yaxınlaşıb. A kişi, gör iş nə məqama çatıbdır ki, qanqal Sadıqla kaftar Tağı da uşaqlarını uşkolaya göndərirlər. Dünən nə qədər nəsihət elədim, olmadı. Hər bir belə şeyləri gördükcə, canım od tutub alışır. Bir az müddətdən sonra, şəhərdə bir müsəlman tapılmayacaq! Axırda gərək biz də gedib hamballıq edək. Sən güman edirsən ki, mən hər gün məscidə namaz qılmağa gedirəm, vallah yox! Ciyərim od ilə dolu, mənim qulağıma namazmı girir? Namaz haradadır? Əyilib – qalxmaqdan sivay bir şey yoxdur. Hər rükuə gedəndə ki, paçamın arasından baxıb müridləri az görürəm, ürəyim qana dönür. Evin yıxılsın qəzet yazan! Balaların qırılsın uşkola açan! Gorun od ilə dolsun tiyatır binası qoyan! A kişi, bunu allah götürər ki, qoyun Nəsirin oğlu da bığlarını qırxdırıb meydana çıxa, nədir mən tiyartırçı olmuşam. Nəsir ki, özü bir allahdan qorxan adamdır.

Pərvərdigara, birliyin xatirəsi üçün fəryada yetiş. Yoxsa dini – islam əldən getməkdədir.

Bu halda axunda xəbər verirlər ki, qiraət öyrənənlər gəlib cəm olublar. Axund çətinlik ilə durub, basin bulaya – bulaya keçir o biri otağa.

***(Əbdürrəhim bəy Haqverdiyev)***

**YAŞILBAŞ SONA**

*"Kür qırağının əcəb seyrəngahı var,*
*Yaşılbaş sonası heyf ki, yoxdur".*

**(*Vaqif*)**

Bu iki misra məşhur şairimiz mərhum Vaqifin əsərlərindəndır. Xan zamanında Vaqif neçə vaxt Kür qırağında qalıb, təngişməyi və vətənə qayıtmaq arzusunu bu şeirdə yazıb. Vaqifin təngişməyinə bir səbəb yaşılbaş sonaların yoxluğu olub; nə Kür tək gözəl çayın mənzərəsi, nə ətrafındakı gözəl meşələr, çəmənlər, heç biri onun ürəyini şad etməyib, ancaq yaşılbaş sona axtarıb. Bilmirəm keçən vaxt yaşılbaş sona niyə belə əlimyandı ilə axtarılırmış. Vaxta ki, bu əyyamda camaat bilməyir yaşılbaş sonanın əlindən başını götürüb haraya qaçsın. Yaşılbaş sonanın biri Şamaxıdan gəlib əyləşib Aşqabadda. Yazıq Aşqabad əhalisi bilməyir haraya qaçsın. Görürsən çıxır minbərə, başlayır: "Başlarını uzadanlara lənət! Üzlərini qırxdıranlara lənət! Qəzet yazana lənət! Qəzet oxuyana lənət! Bunlara lənət! Onlara lənət!..." Qırmızısaqqal, haçabirçək müridlər ağız-ağıza verib hind toyuğu tək bağırırlar: "Lənət!" Bu dəfə sonanın gözü bir üzü qırxığa sataşır. O saat rəngi üzündən qaçıb quyruğu kəsilmiş ilana dönüb qışqırır: "Nə baxırsan üzümə, bilmirsənmi mən kiməm? Mən peyğəmbərin qılıncıyam!" Belə anlayıram ki, əgər Vaqif orada olsaydı ona cavab verərdi və deyərdi: "Yalan deyirsən, sən peyğəmbərin qılıncı ola bilməzsən. Bəlkə Şümür Zilcovşənin xəncərisən! Şümür imam Hüseynin başını bir dəfə kəsdi. Amma sən, imam Hüseyn yolunda can verdiyi haqqı gündə bir batil edib onun başını hər gün kəsirsən". (Məsləkdən bir az çıxmağı idarə bağışlasın. Ürək yazır, qələm yazmır)

İkinci yaşılbaş sona neçə il bundan əqdəm Tiflisdə peyda olub, az qalmışdı sünnini – şiəni bir-birinə qırdırsın. Gəncə yaşılbaş sonası həmçinin. Qarabağ yaşılbaş sonası babasının qəbrini Cıdır düzündə ocaq qayırıb, özü də cadugərlik ilə Qarabağ xanımlarında istirahət qoymayıb. Təbrizdə xuliqanlıq edib boğazından asılandan nə deyim? Bakıda hürriyyəti – insan

tərəfdarını təkfir edəndən nə deyim? Məşəddə adamları kötəkləyib güc ilə pul alandan nə deyim? Təbriz yolunda müsafirlərin üstünə qarışqa tək tökülüb soyanlardan nə yazım? Yaxşı ki, Vaqif bu əyyamda yoxdur. Əsla yaşılbaş sona arzu etməzdi. Amma bir şey xəyalıma gəlir. Vaqif nə qədər arif olsa idi, yenə adı molla idi. Mollalara yaşılbaş sonaların dirisindən də olmasa ölüsündən mənfəət dəyir. Məsələn: on, on iki il bundan qabaq bir nəfər yaşılbaş sona Kərbəladan Qarabağa gəlib yekəqarın mollanın evində sakin olub bir qədər qalandan sonra vəfat edib, aparıb Mirzə Həsən qəbiristanında dəfn ediblər. Bir nəfər çayçı kişi, ləqəbi "Yıxılqo" sübh gəlib and içib camaata xəbər veribdir ki, gecə yaşılbaş sonanın qəbrində çıraq yandığını öz gözü ilə görüb. Camaat bunu eşidən tək ağsaqqal, qırmızısaqqal, uzunsaqqal, gödəksaqqal və cəmi şəhərin övrətləri hamısı tökülürlər qəbrin üstünə ziyarətə. Yekəqarın molla görür ki, bu qəbir yaxşı mədaxil yoludur. Məlum edir ki, çünki yaşılbaş sona mənim evimdə ölübdür. Onun qəbrinin təəllüqü mənədir. İndi o qəbri haman "Yıxılqo" deyilən şəxsə icarəyə verib, ildə nə qədər pul alır. "Yıxılqo" da çayçılığı buraxıb gedib həmin qəbirdə mücavirlik edir. Yaşılbaş sonanın qəbri o gündən böyük bir ziyarətgah olub və başdaşında bu sözlər yazılıb:

Güşadə bad bələzzət həmişə in dərgah
Bəhəqqi dini məişət Həmid, Mədəli şah.

***(Əbdürrəhim bəy Haqverdiyev)***

## ƏDALƏTLİ BÖLGÜ

Zəngin birisinin əlində, ovcunda olan bütün var-dövləti əlindən çıxmışdı. Dərdini paylaşmaq və yardım istəmək üçün o, yaxın dostu sayılan digər zənginin qapısına gedir, oturub ona hər şeyi anladır. Dostu çox götür – qoy etmədən içində üç yüz dinar olan pul kissəsini qonağa uzadaraq, deyir ki, bu – onun bütün olan – qalanıdır. Dostunun evini razı halda tərk edən şəxs öz evinə qayıdır. Aradan az keçmədən onun da bir dostu evinə pənah gətirir və dolanışığının ağırlığından ona acı-acı şikayətlənir.

Qarşısındakının halına canı yanan ev sahibi bir az öncə dostunun ona bağışladığı pul kisəsini gətirib, ona verir və deyir: "Mənim durumum səninkindən heç də yaxşı deyil. Bu kisəni də mənə bayaq bir dostum hədiyyə eləyib. Sən bunu götür, mənim üçün Allah – təala bir qismət yetirər, inşallah". Qonaq sevincək pulla dolu kisəni götürüb, evinə yollanır. Həyət qapısından içəri keçməyə macal tapmamış bir nəfər ona yaxınlaşır və Allah yolunda ondan yardım istəyir. Sən demə, bu adam pul kisəsinin ilk sahibi imiş.

Həyət qapısında ayaq saxlayan ev sahibi özü – özünə düşünür: "Deyəsən axı, bu pul kisəsi mənə də qismət olmayacaq" və əliaçıqlıq sərgiləyərək əlindəki kisəni ondan yardım istəyən bu adama uzadır. Dostuna verdiyi pul kisəsini tanıyan adam ev sahibindən bu kisənin ötən az vaxt içərisində necə ona gəlib çıxdığıyla maraqlanır və qarşısındakı adamın həmin dostunun dostu olduğunu anlayandan sonra deyir: "Bu pul kisəsi ən əvvəl mənimkiydi. Mövcud şərtlərdə ədalətli davranmaqdan ötrü gərək biz kisədəki pulları üçümüzün arasında bərabər bölək".

Onlar adam göndərib, üçüncü yardımsevər dostlarını da evə dəvət etdikdən sonra kisədəki üç yüz dinarı öz aralarında bərabər şəkildə böldülər.

**(*Azad Yaşar)***

## YAMANLIQ GERİ DÖNÜR

Rəvayətə görə, bir padşah dikbaş bir sərkərdəsini öldürtməyə bəhanə gəzirmiş. Sərkərdənin qan aldırmaq fikrində olduğundan duyuq düşən padşah bu işlə məşğul olan təbibi yanına çağırıb, ona gen – bol xələt və ənam verəndən sonra tapşırır ki, sərkərdə damardan qan aldırmağa gələndə zəhərli neştərdən yararlansın.

Qibleyi-aləm necə buyurmuşdusa, təbib elə də edir və qəhrəman sərkərdəni bu yolla o biri dünyaya yollayır. Zəhərli neştəri təmizləmədən digər alətlər arasına qoyan təbib bu neştəri də, aləti də unudur. Bir neçə gün sonra həkimin öz venasından qan

almaq lazım olanda o, yardımçısına göstəriş verir ki, gərəkli işləmləri icra eləsin. Neştərin zəhərli olduğundan yerli – dibli xəbərsiz olan təbib yardımçısı bütün işləmləri gərəkdiyi biçimdə həyata keçirsə də, həkim dünyasını dəyişir, çünki eyni neştərlə bir neçə gün öncə o, padşahın oyununa gələrək, günahsız sərkərdənin qatilinə çevrilmişdi.

*(Azad Yaşar)*

## MÜRƏKKƏB ASTRONOMİK CİHAZLARIN İXTİRAÇISI

**(Müəyyidədin Ordi)**

On üçüncü əsr. Çingiz xanın nəvəsi Hülaku xan özünün türk-monqol qoşunları ilə bütün Yaxın Şərqi işğal edərək, ərəb xilafətinin paytaxtı Bağdadı da hücumla tutur. Hülaku xan işğal etdiyi nəhəng ərazidə yeni Elxanilər (el xanları) dövlətini yaradır. Dövlətin mərkəzi Azərbaycan, paytaxtı əvvəlcə Marağa, sonra isə Təbriz olur.

Elxanilər dövləti və yeni Hülakular sülaləsi rəsmi və daha çox formal olaraq paytaxtı Pekində yerləşən böyük türk-monqol dövlətinin tərkib hissəsi sayılırdı. Yeni Azərbaycan dövlətinin hakimləri təsdiq yarlıqlarını, dövlət möhürlərini və fəxri Çin titullarını oradan alırdılar. Tarixin belə dönüşləri də olur.

Nəhəng türk imperiyasının başçısı, Yuanlar sülaləsinin banisi Xubilay imperiyanın qərb hüdudlarında gedən hadisələrlə bərk maraqlanırdı. Hülaku xanın yürüşü zamanı ona min nəfər Çin əsgəri verilmişdi. Bunların arasında körpü və istehkam salan ustalar, daş atıcıları, eləcə də odlu silahdan məharətlə istifadə edən hərbiçilər vardı. Vəziyyət sabitləşdikdən sonra Çindən alimlər, əczaçılar, sənətkarlar, rəssamlar, miniature ustaları işləmək üçün Azərbaycana axışırlar. Hətta Təbrizdə kağız Çin pulları "çou"nu tədavülə buraxmağa da cəhdlər olur.

Azərbaycanın ən görkəmli dühalarından biri Nəsrəddin Tusi Hülaku xana məsləhətçi təyin edilir. Hələ bundan da qabaq böyük alim kimi Nəsrəddinin şöhrəti Pekinə gəlib çatmış və onu

möhtəşəm bir mərkəz kimi düşünülmüş rəsədxananın tikintisinə kömək etməkdən ötrü paytaxta dəvət etmişdilər. Tusi isə Pekinə getməkdən imtina etmiş və Hülaku xanı rəsədxananın ilk növbədə imperiyanın deyil, Elxanilərin paytaxtında – Marağada tikilməsinin vacibliyinə inandırmışdı.

Bu iş üçün ölkənin hər yerindən alimlər çağırılır. Tusinin yazdığına görə, rəsədxananın tikintisində iştirak etmək üçün "Hülaku xan müxtəlif vilayətlərdən astronomik bilikləri olan alimlərin buraya gətirilməsini tələb edir – Dəməşqdən Müəyyidəddin Ordini, Mosuldan Fəxrəddin Marağayini, Tiflisdən Fəxrəddin İxlatini və Qəzvindən Nəcməddin Dəbiranini". Orası da məlumdur ki, rəsədxananın tikintisində və zəruri avadanlıqla təchiz olunmasında baslica rolu Müəyyidəddin Ordi oynayır.

Ordi haqqında bioqrafik məlumatlar, demək olar ki, yoxdur. Tarixdə sənəd kimi yalnız onun ərəb dilində qələmə aldığı "Marağa rəsədxanasının astronomik alətləri haqda" risaləsinin iki əlyazma nüsxəsi qalmışdır. Bunlardan biri Parisin, digəri isə Tehranın milli kitabxanalarında saxlanılır. Birinci nüsxə XIX əsrin əvvəllərində Parisdəki xüsusi şərq dilləri məktəbinin müəllimi A.Jurden tərəfindən tapılıb fransız dilinə tərcümə olunur. Kitab Parisdə iki dəfə - 1809 və 1810-cu illərdə nəşr olunur. 1811 – ci ildə alman dilinə tərcümə edilir. Bu əsərdə Nəsirəddin Tusinin rəhbərliyi altında Müəyyidəddin Ordinin hazırladığı on mürəkkəb astronomik cihazın təsviri də var.

Ordinin traktatında verilən məlumatların təhlili bir çox tədqiqatçıları belə bir qəti fikrə gətirmişdir ki, Marağa rəsədxanasındakı alətlər təkmilliyi ilə o dövrün bütün rəsədxanalarındakılardan seçilirmiş. Bu da məlumdur ki, Ordinin öz ixtirası olan bəzi alətlər sonradan dünyanın bir çox rəsədxanalarında istifadə olunub.

Ordinin görüşlərinin yayılmasında müxtəlif ölkələrdən Marağa rəsdxanasına çalışmaq və təcrübə keçmək üçün gəlmiş araşdırıcıların da böyük rolu olmuşdur. Marağa rəsədxanasının görkəmli tədqiqatçısı H.C.Məmmədbəylinin yazdığına görə, Ordinin hazırladığı alət və cihazlar Uluqbəyin, Tixo Bragenin,

Caypur (Hindistan) rəsədxanalarında astronomik cihazqayırmanın inkişafında müstəsna rol oynayıb.

Müəyyidəddinin oğlu, Məhəmməd ibn Müəyyindəddin Ordi də Marağa rəsədxanasında çalışmışdır. O da atasının yolu ilə gedərək, astronomik cihazlar hazırlanması sahəsində tanınmış mütəxəssislərdən olmuşdur.Onun yaratdığı ulduz qlobusu günümüzə qədər gəlib çatmışdır. Bu qlobus hal-hazırda Drezdendəki məşhur riyaziyyat-fizika salonunda saxlanılır və burada toplanmış qlobuslar arasında ən qədimi sayılır. Qlobusda da ulduzların yerləşmə vəziyyətinə əsasən onun hazırlanma ilini müəyyənləşdirmək mümkün olmuşdur - 1279-cu il. Avropanın bir çox böyük alimləri həmin qlobusun tədqiqi ilə məşğul olmuşlar. Bürüncdən düzəldilmiş və qızıl-gümüş suyu ilə naxışlanmış bu qlobus həm də XIII əsr Azərbaycan dekorativ sənətinin incilərindən sayılır.

***(Azərbaycan qədim və orta əsrlərdə görkəmli şəxsiyyətlər)***

## QIZ MƏKTƏBİNDƏ

- Quzum, yavrum! Adın nədir?
- Gülbahar .
- Pəki, sənin anan, baban varmı?
- Var.
- Nasıl, zənginmidir baban?
- Əvət, zəngin,bəyzadə...
- Öylə isə, geydiyin geyim niçin böylə sadə?  
  Yoqmu sənin incilərin, altın biləziklərin?  
  Söylə, yavrum! Hiç sıqılma...
- Var əfəndim, var... lakin  
  Müəlliməm hər gün söylər, onların yox qiyməti,  
  Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
- Pək doğru söz... Bu dünyada sənin ən çoq sevdiyin  
  Kimdir, quzum, söylərmisin?
- Ən çox sevdiyim ilkin

O Allah ki, yeri-göyü, insanları xəlq eylər.

- Sonra kimlər?
- Sonra onun göndərdiyi elçilər.
- Başqa sevdiklərin nasıl, yoqmu?
- Var...
- Kimdir onlar?
- Anam, babam, müəlliməm, bir də bütün insanlar...

***(Hüseyn Cavid)***

## İCLAS QURUSU

Əncil qurusu, ərik qurusu, zoğal qurusu – bunlar çox olur, iclas qurusu isə tək-tək olur.

Bir var ki, gün altında quruyan, bir də var ki, iclaslarda quruyan, suyunu çəkən, həyat hisslərini itirən.

İclas qurusunu siz tanıyırsınız. Adını bilməsəniz də, özünü yaxşı tanıyırsınız. Arıq bədənini qabağa əyib dizini bükəcək sürətli addımlarla gedən adamı siz küçədə, idarə qapılarında, pilləkənlərdə çox görürsünüz.

O haraya tələsir, İclasa!

Qoltuğundakı boz, sürtülmüş qovluq, səliqəsiz yığılmış kağız – kuğuzla doludur.

Bunlar nədir. Protokol! O bütün ömrü boyu başı aşağı, dünyadan bixəbər, qaş-qabaqlı, sifəti bulud kimi tutulmuş fikirli gəzir.

Nəyi düşünür. Qərarı!...

Güman etməyin ki, iclas qurusu ancaq ictimai yerlərdə belədir. Siz düşünürsünüz ki, evinə qayıdıb papağını çıxardanda, arvadı, uşağı ilə görüşəndə iclas qurusunun halı dəyişmiş olur, üzündə işıq, dodağında təbəssüm doğur.

Yox! Səhv edirsiniz! O iradəli, prinsipli, müstəqim adamdır. Onun şəxsi ailə həyatı özü də bir növ iclasdır. O, bir dəfə qət etmişdir ki, iclas üçün yaranmışıq, başımız qərar hazırlamaq, barmaqlarımız protokol yazmaq, əllərimiz çəpik çalmaq, səsimiz çıxış etmək üçün bizə verilmişdir.

İclas qurusu arvadı Meyransa ilə belə danışır:

- Yoldaş Meyransa, təklif var ki, mənim corablarımı yuyub qurudasınız!

Meyransa dinməyəndə o ayağa qalxır, qələmin küt ucunu stola döyüb danışır:

- Cavab üçün söz verilir yoldaş Meyransaya! On səkkiz il əvvəl Quru, axşam, iclasdan qayıdanda arvadını evdə görmədi. “Bu hansı iclasdadır gecənin bu vaxtında,” - deyə ürəyində fikirləşdi. Çox keçmədi qonşu qadın gəlib Qurunu təbrik etdi:

- Quru qardaş, gözün aydın, bir yaxşı qızınız oldu. Meyransa xanım xəstəxanada sizi gözləyir:

Quru, qadına nə muştuluq verdi, nə də cavab. Qəzəb və dəhşət yağan üzü bir az da qaraldı,gözündə ildırımlar oynadı: “Bu, nəyə lazımdır? Görəsən bu barədə nə qərar olacaq? Eşidənlər nə deyəcəklər?”

Meyransa ərindən xahiş etdi ki, bir yaxşı ad tapsın. İclas qurusu bu məsələni kluba iclasa keçirdi. Orada çox ad təklif olundu, ata razı olmadı, öz təklifində təkid etdi:

-Məruzə!

İclasdakılar qəh-qəhə çəkib gülüçdülər və sonra çəpik çaldılar.

Qızın adı qaldı Məruzə.

Məruzə bəsləndi, Məruzə böyüdü. Məruzə oxumağa, nəhayət diqqətləri cəlb etməyə başladı.

Məruzəyə kitab, dəftər almaq lazım gələndə İclas qurusu bütün rəsmiyyəti gözləyirdi. Əvvəlcə qız, atasına ərizə yazırdı. Sonra ərizə məktəbə, müəllimin təsdiqinə göndərilirdi. Daha sonra Meyransa qol çəkirdi. Nəhayət iclas qurusu maqazindən kitab, dəftər alıb gətirir, qıza qol çəkdirəndən sonra siyahı ilə verir və vaxt qoyurdu. “Gələn ayın ikinci həftəsinin sonuna qədər” həmin siyahının bir surətini idarəyə, “nəzarət üçün” müdirə göndərir, bir üzünü də öz arxivində ehtiyat üçün saxlayırdı. Gələcəkdə yoxlasalar lazım olar.

Məktəb müdiri bir neçə dəfə Məruzəyə demişdi:

- Qızım, atanı çağır, vacib söz deyəcəm! Quru cavab vermişdi:

- Mən iclasda olacağam!

Qız böyüyəndən sonra İclas qurusunun başağrısı daha da artdı. Qızı çox yerdən istədilər. Elçilərin hamısına bir cavab verilirdi:

- Anket doldurun, yoxlayıb baxarıq. Elçilər anket adını eşidib dağılışırdılar.

Ancaq məhəbbətində sadiq Əsgər adlı bir şofer İclas qurusundan əl çəkmədi. Meyransa Əsgərlə qohum olmağa razı idi. Kişinin qılığına girmək istədi:

- Kişi, Məruzəni istəyirlər axı.
- Konkret danış, kim istəyir və hansı şərtlərlə.
- Şofer Əsgər!
- Ərizəsi hanı.
- Ərizəsi yoxdur.
- Bəs niyə havayı danışırsan. Meydanda nə ərizə var, nə anket, nə zəmanət. Niyə bəs gəlib başımı ağrıdırsan.

Meyransa xahiş ədası ilə dedi:

- Bəlkə vaxt verəsən, iclasın olmayanda elçilər gəlsin, danışasınız.
- Elçini neyləyirəm. Qız istəyən adam şəxsi işini, şəklini göndərsin, tanış olum, sonra müzakirə edib baxarıq.

İclas qurusu oğlanın adını bir-iki dəfə təkrar edib Meyransaya baxdı, başını buladı:

- Adı köhnədir, çox köhnədir. Məruzəni almaq istəyənin adı Məruzəyə layiq olsun gərək!
- Sən deyərsən dəyişər!

İclas qurusu öz qərarını təkrar etdi:

- Dedim şəxsi işini göndərsin, baxıb müzakirə edərik, artıq danışmaq lazım deyil!

Meyransa bir söz deməyib çıxdı.

İclas qurusunun sözlərini Əsgərə çatdırdılar.Əsgər dedi:

- Anketimi getsin idarədən öyrənsin, ancaq mən bu işin daha asan yolla həllini bilirəm. O özünü belə zəhmətlərə nahaq salıb.

Bu axşam İclas qurusu oturub protokolları səhmana salırdı. Meyransa da şkafı açıb təzə paltarlarını geyinirdi. Kişi

başını qaldıranda arvadını ayrı bir həvəs, ayrı bir sevinclə, tələsə-tələsə geyinib keçinən gördü.

- Hara belə, ay arvad, - deyə təəccüblə soruşdu.
- Heç, balaca iclasımız var!
- Bəs Məruzə haradadır?
- O da iclasına gedib, sənə də kağız göndərib. Meyransa stolun üstündəki kitabın altından əl boyda bir kağız çıxarıb ərinə verdi:
- Deyəsən, uşaqların qərarı var. Oxu gör necədir? İclas qurusu kağızı oxuyanda gözü kəlləsinə çıxdı: - "Ata, biz çox müzakirə elədik, düşündük, danışdıq. Sizə zəhmət vermədən ZAQS-a getdik. Sabah toyumuzdur, oğlan evində olacaq, iclasdan sonra vaxtın olsa buyurub gələrsən. Qızın Məruzə".

İclas qurusu daha da qurudu. Quru uzandı, dik ayağa qalxdı:

- Necə, necə... Özbaşına qərar çıxarıblar...Bu qərarı kim təsdiq edib.

Meyransa təmkinini və mülayimliyini pozmadan cavab verdi:

- Gərək sən təsdiq edəsən də! İclas qurusu özündən çıxdı:
- Mən onun anketini oxumamış, işini yoxlamamış, müzakirə etməmiş, belə qərarı necə təsdiq edə bilərəm, bu nə intizamsızlıqdır...

Meyransa çəkməsini ayağına çəkib son sözünü dedi:

- Edərsən, etməzsən özün bilərsən. Mən Əsgərgildə toyda olacağam, evdən muğayat ol. Qapı-bacanı açıq qoyma!- Meyransa bunu dedi, qapını çırpıb çıxdı.

Ev dəyirman daşı kimi İclas qurusunun başına dolandı.

***Mir Cəlal***

**ŞUŞA**

Qayıt, Şuşa getdi, Sabir, hardasan? –
Vaqif haray çəkir Cıdır düzündə.
Yenə xilaf çıxdı əhdinə İran,
Uduzduq Arazın biz bu üzündə.

Kitab sərgisinə qalma, qayıt sən,
kitab yazan əlim buz oldu getdi.
Tank yerdən dağıtdı, təyyarə göydən,
qaya abidələr toz oldu getdi.

Moskva arxadır Ermənistana,
çoxdu adamları bu xar olmuşun.
Nyu-York Bağdadı qərq etdi qana,
indi də Bakıda əli var Buşun.

Şuşanı verdilər Xocalı kimi,
xəyanət tez vurdu gözümdən məni.
Şuşasız ağladım şuşalı kimi,
qoy indi assınlar səsimdən məni.

Erməni qatildi, tutsa qan tökər,
torpağa dən düşsə görün, götürün.
Təzə xarı bülbül bitibsə əgər,
sonuncu qönçəni dərin, gətirin.

Siz kimə qaldınız, aman, a dağlar!
Vartanlar, dığalar, qalxıb at üstə.
Göydə uçan bulud, yerdə bulaqlar,
əlvida söyləyir muğamat üstə.

Hər canlı oxuyur öz nəğməsini,
cavabsız qoymayaq sual dünyanı.
Çalsınlar "Qarabağ şikəstəsi"nı,
ağlayıb ağladaq bu lal dünyanı.

Bu qəmi karvanlar daşıya bilməz,
anadan, bacıdan, uşaqdan ayrı.
Bülbqül qızılgülsüz yaşaya bilməz,
Firudin Şuşalı – Şuşadan ayrı.

"Bir yandan bağlayan bir yandan açar!", -
ölümə məhkumdu qəsd ilə qərəz.
Şuşada itirdi tacını şahlar, -
millət yaddaşında yanıla bilməz.

Şəhid qəbirlərə and içib vətən,
mənim torpağıma qan düşür yenə.
Tarix təkrar olur şair, yenidən,
Tarix də tarixlə döyüşür yenə.

N.Həsənzadə
10 may 1992.

## SEVGİ QOCALMAZ

Cənnət ola qürbət, yenə, vallah, Vətən olmaz
Qürbətdə şah olsan da, bir arzun bitən olmaz.

Əcdadımızın türbəsi torpaq – kökümüzdür,
Torpaqsız açan buğda dənindən də dən olmaz.

Kökdən aralandınsa, işin düşdü qəzaya,
İmdadına, fəryadına bir dəm yetən olmaz.

Elçin çəkilən hər bir əzab min çiçək açmış,
Yurdunda elin çəkdiyi zəhmət itən olmaz.

Yurd eşqi bütün sevgilərin tacıdır, əlbət,
Haqdan doğulan qibləyə heç vaxt çatan olmaz.

Mart, 1992.

***

Çağırır indi bütün milləti imdada Vətən
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən.

Bizə meydan oxuyan bilməlidir birdəfəlik
Nə satılmaz, nə verilməz binədən yada Vətən.

Sinə altında gərək qəlb kimi hər an döyünə,
Yana ulduz kimi hər sözdə, hər imzada Vətən.

Vətən eşqindən ucalsın bütün istəklərimiz
Yaşasın arzuda, məqsəddə, təmənnada Vətən.

Ulular uymadı var-dövlətə, yalnız dedilər:
-Ən böyük bəxşişimiz bizdən hər övlada: Vətən.

Mart, 1992.

***

Alqış vətən yolunda vuran güclü qollara,
Alqış bu yurd üçün döyüşən mərd oğullara.

Düşmən də yalmanar, gücə təslim olar yəqin,
Millət bir olsa, bayrağı altında qeyrətin.

Biz haqqın oğluyuq, gücümüz haqdadır bizim,
Yollar əzablı olsa da, fitrətdədir, dözüm.

Vururuq sitəmli illəri mərdliklə biz başa,
Amal yaşa, iman yaşa, millət yaşa, yaşa!

***

Ömrüm boyu mən qul kimi oldum sənə möhtac,
Allahını idrak üçün insan, dinə möhtac.

Hər şey dəyişib başqa şəkil alsa da, amma,
Cövhər ki, dəyişmir, dəyişən, əslinə möhtac.

Eşqim – mənim öz zatım idi, burdan ucaldım,
Səndin baharım, mən də bahar fəslinə möhtac.

İdrak üçün hərdən dala boylansa da insan,
Yüksəlmək üçün daima idrak önə möhtac.

Bəzən inamın ustdə düşür kölgə mühitdən,
Günsən, o qaçan kölgədə iman, günə möhtac.

Dinim, imanım haqqa yetirsin məni, yarəb,
Allahını idrak üçün hər kəs dinə möhtac.

İyul, 1993, Şəki.

***

Bu çökən zülmətə bax, sirrini saxlar gecənin,
Səhərim doğsa əgər, köksünü dağlar gecənin.

Gecə bir sirr kitabı, doğdusa ay, qəm eləmə,
O, ürək sirrini insana varaqlar gecənin.

Səhərin rüzgarı əsdikcə güneydən quzeyə,
Ağaran saçlarını asta daraqlar gecənin.

İşıq istər bu könül, mən işığın möhtacıyam,
Sözüdür, söhbətidir göydə çıraqlar gecənin.

Bəxtiyarlıq nə imiş? Zil qara zülmətdə işıq!
Işıq olmazsa, müdam gözləri aglar gecənin.

İyun, 1996.

**Sözlük**
**Azərbaycanca-İngiliscə**

sərkərdə-commander
müdrik-wise
analitik-analytical
zəka-intelligense
predmet-subject
sakin-resident
Oğuz-Oghuz
geneoloji-genealogical
tipoloji-typological
zəmi-cornfield
zay-waste
sultan-sultan(gerent)
paraqraf-paragraph
zəngin-rich
ulu-great
iftixar-pride
növraq-adornment
ləl-cövhər-precious jewel
fateh-conqueror
yağı-sworn
çar-king
cümhuriyyət-republic
imperiya-empire
Milli Şura-National Counsil
sənaye-industry
hürriyyət-freedom
istiqlal-national
mütəxəssis-expert
muzey-museum
eksponat-exhibit
dekorasiya-scenery
hakimiyyət-power

memar-architect
azarkeş-fan
şahin-falcon
tabeçilik-subordination
mühasirə-siege
məfhum-consept
dublet-doublet
xurcun-saddle-bag
bəşər-man
fenomenal-phenomenal
leksikoqrafiya-lexicography
ixtira-invention
teleskop-telescope
mütəhərriklik-immobility
inci-pearl
naqis-imperfect
məhbəs-prison
xəfiyyə-secret police
sitəm-retribution
zarımaq-lamentation
Turan-Turkey called the oldest dormitories
zasedaniya-session
raznoreçiya-heteroglossiya
smeta-estymate
punkt-paragrapht
mədaxil-receipts
məxaric-expenditure
priblizitelno-about
zakon-law
sluçaynı-accidentally
predusmatret-provided
statya-article
senzor-exercising control over the official press
elektrotexnika-electrical engineeting
iflic-paralycis

padşah-king
div-ogre
mahal-district
keşik çəkmək-keep watch
mətbəə-typographical
xammal-raw material
pətək-honeycombs
dəzgah-bench
tarla-field
məğrur-lordly
pensilin-penicillin
sətəlcəm-pneumonia
metrik-Metric Space is a distance function defined on vector spaces
sinn(yaş)-ages
müştərək-joint
ulus(el,oba)-nation
bəsit-simple
çılğın-irascible
hövsələ-patience
divanxana-courthouse
mirvari-pearl
tövşümək-be short of breath
kütlə-mass
sövdəgər-businessman
fəzilət-virtue
etimologiya-etymology
toponim-place
vilayət-province
risalə-booklet
sərkərdə-commander
şeypur-horn
yelkən-sail
lövbər-anchor
zəfəran-saffron

gerb-coat of arms
region-region
şırnaq-jet
duma-thought
senator-senator
akademiya-academy
layihə-project
missiya-mission
süvari-cavalry
şeyx - sheikh
qızılbaş - gold head
peyğəmbər - messenger
din - relligious
fanotizm - fanaticism
süjet-plot
komporasiya-composition
nal-horseshoe
ləl-ruby
əmmamə-turban
məchulluq-unknown
təmas-contact
bilik dairəsi-the circle of knowledge

# QAYNAQLAR

## I. Elmi


1. Abbasov Ə., Tahirqızı Ş., Hüseynli O. Məktəblinin izahlı lüğəti. “Turan Evi”, Bakı, 2015.
2. Axundov A. Dilin estetikası. “Yazıçı”, Bakı, 1985.
3. Axundov A. Dil və Mədəniyyət. “Yazıçı”, Bakı, 1992.
4. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. “Elm”, 2005.
5. Aslanov M.A. İfadə yazı mətnləri. “Maarif”, Bakı, 1974.
6. Bayramov İ.O. Rus məktəblərində Azərbaycan dili üzrə nitq inkişafı metodikası. “Maarif”, Bakı, 1988.
7. Əhmədov N. Azərbaycan dili dərslərində məna intonasiya təhlili. “Maarif”, Bakı,1981.
8. Əhmədli N. Jurnalistin nitq mədəniyyətinin əsasları . “Elm-Təhsil”, Bakı, 2014.
9. Hacıyeva İ.H. Nitq mədəniyyəti “AZTU-nun mətbəəsi”, Bakı, 2011.
10. Həsənzadə N., Pənahova G., Abbasov Ə. Azərbaycan dili və nitq mədəniyyəti (dərslik). “Ecoprint”, Bakı, 2016.
11. Hüseynoğlu S. İfadəli oxunun əsasları.
12. İbrahimova A. Azərbaycan leksikoqrafiyasının təşəkkülü. “Mütərcim”, Bakı, 2000.
13. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili (I cild). Bakı, 2010.
14. Qurbanov A. Ümumi dilçilik ( II cild). “Elmi”, Bakı, 2011.
15. Qurbanov A. Bədii mətnin linqvistik təhlili. “Maarif”, Bakı, 1986.
16. Qasımov İ.Z., S.F.Əliyeva. Müstəqil öyrənənlər üçün Azərbaycan dili. “Elm”, Bakı, 2003.
17. Qurbanova M., Mahmudova X.M. Nitqin inkişafı, Bakı,2014.
18. Mustafayeva S. Nitqin inkişafı. “AZTU-nun mətbəəsi “, Bakı, 2011.
19. Orfoepik çalışmalar. APİ-nin nəşri. Bakı, 1980.
20. Pənahova G. Nəriman Həsənzadənin söz dünyası. Bakı, 2012.
21. Seyidov Y. Azərbaycan dili “BDU”, Bakı, 2009.

22. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. "Nurlar", Bakı, 2014.
23. Vəliyev K. Sözün sehri. "Yazıçı", Bakı, 1986.

**II Bədii**

1. Araz M. Seçilmiş əsərləri " Lider Nəşriyyat", Bakı, 2014.
2. Azərbaycan Qədim və orta əsrlərdə görkəmli şəxsiyyətlər "Oka Ofset", Bakı, 2012.
3. Babanlı V. Zəmanə adamı. "Elm və Təhsil", Bakı, 2015.
4. Babanlı V. Qəribə Eşq. " Çinar-çap" , Bakı, 2007.
5. Babanlı V. Vicdan Susanda. "Çaşıoğlu", Bakı, 2009.
6. Cəfərzadə Ə. Bakı 1501 "Kitab Klubu", Bakı 2015.
7. Gəncəvi N. Poemalar. "Maarif", Bakı, 1985.
8. Haqverdiyev Ə. Marallarım "Turan", Bakı, 2011.
9. Həsənzadə N. Taleyin Töhfəsi "Gənclik", Bakı,1993.
10. Müşfiq xan. Ünvansız sevgi. (2ci nəşr). Bakı 2013.
11. Molla Nəsrəddin lətifələri ("Uşaqgəncnəşr", Bakı, 1956 və "Yazıçı", Bakı, 1978 nəşrləri əsasında). Bakı, 2011.
12. Nəvai Əlişir haqqında rəvayətlər. "Yazıçı", Bakı, 1994.
13. Nicat Əlisa, Qızılbaşlar. "Adiloğlu", Bakı, 2013.
14. Paşayev M.C (ikinci kitab). Bakı, 2008.
15. Sadıq İ. Ocağı közündən tanıyıram "Azərbaycan Dövlət Nəşriyyatı", Bakı, 2016
16. Səməd Vurğun. Əsərləri (üçüncü cild) , "Elm", Bakı, 1983.
17. Səməd Vurğun. Əsərləri (dördüncü cild). "Elm", Bakı,1988.
18. Yaşar Azad çevriləri "Nurlar", Bakı, 2008.
19. Zəlimxan Yaqub. Biz bir eşqin butasıyıq (şeirlər və poemalar) "Yazıçı", Bakı,1989.